AZƏRBAYCAN DEYƏNDƏ

Vətən mənim bu günüm,
Sabahkı toy-düyünüm.
Haqqım var ki, öyünüm
Azərbaycan deyəndə!
Ürəklərdə döyünüm
Azərbaycan deyəndə!

Hər ölkəyə, hər elə
Olsun hörmət deyirəm.
Vətənimdir Vətənim
İlk məhəbbət deyirəm.
Onun şöhrət tacıdır
Şeir-sənət deyirəm.
Mən Vətənə Füzuli,
Abbas Səhhət deyirəm.
Mən Vətənə Sabiri
Doğan qeyrət deyirəm.
Mən Vətənə Üzeyir,
Müşfiq, Səməd deyirəm,
Günəş kimi müqəddəs
Bir həqiqət deyirəm
Azərbaycan deyəndə!
Dünya məni dinləsin:
– Diqqət! Diqqət! –
deyirəm!
Azərbaycan deyəndə!
Azərbaycan deyəndə!
Ləpələr şairləşir.
Anaların bətnində
Qara gözlü körpələr
Pələngləşir, şirləşir.
Azərbaycan deyəndə!
Müdrik qocalar kimi
Dağlar da fikirləşir.
Azərbaycan deyəndə!
Haralısan? – Sualı
Verənlərə ar olur.

Qeyrətlilər birləşir,
Qeyrətsizlər xar olur
Azərbaycan deyəndə!

Dostdan sovqat, muştuluq,
Düşməndən bac alaram
Azərbaycan deyəndə!
İşıq sütunu kimi
Səbaha ucalıram
Azərbaycan deyəndə!
Körpüləri, sədləri
Sinəmlə parçalaram.
Sərhəd məftillərində
Bu kobud əllərimlə,
Bir muğamat çalaram
Azərbaycan deyəndə!

Azərbaycan! – Bu nida
Qayaları silkələr.
Sal daşların köksündə
Çiçək bitər, gül gələr.
Azərbaycan deyəndə!
Təbim coşar, sel gələr.
Sanma, şöhrət pərdəsi
Ürəyimi kölgələr
Azərbaycan deyəndə!
Gözümdə doğmalaşar
Bütün xalqlar, ölkələr
Azərbaycan deyəndə!

QADIN ÜRƏYİ

Necə rəhmlidir, necə amansız,
Necə mehribandır qadın ürəyi!
Sən onu sındırsan, bil ki, a qansız,
Ağlayan kamandır qadın ürəyi.

Güldürsən, ömürlük səadətindir,
Söndürsən, yanmağı bir də çətindir.
O, əsl qayğın, məhəbbətindir,
Sevgisiz zindandır qadın ürəyi.

Daşı da əridər, daş da olar o,
Əriyib gözlərdə yaş da olar o.
Bahar da olar o, qış da olar o.
Damladır, ümmandır qadın ürəyi.

Onunla dünyadır sənə qəfəs də,
Onsuz heç yaşama bu torpaq üstə.
Sevən bir ürəyə axır nəfəsdə,
Ən gözəl dərmandır qadın ürəyi.

Onu alçaldan da, ucaldan da biz,
Dərd verib vədəsiz qocaldan da biz.
Qədrini biləndə bu cahanda biz,
Həmişə cavandır qadın ürəyi.

Bəzən gültək solar acı bir sözdən,
Ağlayar xəlvəti, gülsə də üzdən.
Bəzən uşaq kimi ən ürəksizdən,
Məhəbbət umandır qadın ürəyi.

Bir namərd əlindən zəhər içəndə,
Keçirər ömrünü o, yas içində.
Bəzən ən qiymətli libas içində
Nalədir, fəğandır qadın ürəyi.

Ömrə zinət verən, səadət quran,
Kişi ürəyini nurla dolduran.
İsməti bir nəsli göyə qaldıran,
Eşqə hökmrandır qadın ürəyi.

Sənsiz əl çəkərəm arzudan, kamdan.
Nə çıxar sevgisiz-sənsiz ilhamdan?
İncitsən dözərəm,
Tofiq Bayramdan
İncimə, amandır, qadın ürəyi!

SƏNİN ƏLİNDƏDİR...

Əlacım həkimdə, loğmanda deyil,
Nə xeyri sübhəcən yüz dərman atım.
Ayrı bir ümiddə, gümanda deyil;
Keçir həsrətinlə günüm, saatım.
İnan ki, heç kimdə, heç yanda deyil,
Sənin əlindədir mənim həyatım.

Sahilə atılan bir balıq kimi
Qıyma quru yerdə sürünüm, batım.
Qış günü geyilən arxalıq kimi
Qoy eşqin oduna bürünüm, yatım.
Yetimə əl tutan analıq kimi,
Sənin əlindədir mənim həyatım.

Damlayam, istəsən ümman olaram,
Sən də üzə çıxan cavahiratım.
Küləyəm, coş desən tufan olaram,
Dolaşır əlləri şərim, bayatım.
İstəsən dağılıb viran olaram,
Sənin əlindədir mənim həyatım.

Nə hökmün, fərmanın varsa, tez elə,
Ya yerə gömülüm, ya da boy atım.
Söndür, külə döndər, yandır, köz elə,
Soyuyan qəlblərin hayına çatım.
Üzürsən, əlini birdən üz elə,
Sənin əlindədir mənim həyatım.

Ömrün çoxu dalda, azı qabaqda
Yollarda qalmışam, büdrəyib atım.
Dönüb xatirəyə toyum, büsatım.
Qocalıq şah olub, əyləşib taxta,
Bir ağır səfərdə, bu dar ayaqda
Sənin əlindədir mənim həyatım.

AH 233969

Son simi çalınan sınıq tar kimi
Yaxın gəl, səsini səsinə qatım.
Əriyim quzeydə qalan qar kimi,
Olsun hərarətin payım-sovqatım.
İstəsən yaşayım sənətkar kimi,
Sənin əlindədir mənim həyatım.

Mənə çəkdirsən də min bir zilləti,
Hər gün pozulsa da halım-ovqatım,
Tükənməz könlümün səbri-taqəti,
Sənsən xilaskarım, sənsən nicatım.
Sən ki, son sözünü demirsən qəti,
Güman var eşqinə qovuşum, çatım.
Bəlkə anlamısan bir həqiqəti:
Sənin əlindədir mənim həyatım,
Mənim əlimdədir sənin həyatın.

AY GECİKƏN MƏHƏBBƏTİM

İllər boyu səni gəzdim,
Ay gecikən məhəbbətim!
Getdi gənclik təravətim,
Ay gecikən məhəbbətim!

Mən bir yanda sənə möhtac,
Sən bir yanda gəzdin əlac.
İki qəlbdə bir ehtiyac,
Övladıyıq bir həsrətin,
Ay gecikən məhəbbətim!

Saç ağartdım bu yollarda,
Harda idin, söylə, harda?
Bir yarpağam, son baharda
Saralıram yetim-yetim,
Ay gecikən məhəbbətim!

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Sən əzabsan, göz yaşısan,
Bəxtimin son naxışısan,
Bəlkə tale qarğışısan,
Bəlkə də ilk səadətim,
Ay gecikən məhəbbətim!

Ürəyimdə adın gəzər,
Gizli ağrın – odun gəzər,
Bir ilahi qadın gəzər,
Son ümidim, son niyyətim,
Ay gecikən məhəbbətim!

Gəl ki, sənsiz ürək bir daş,
Poz qanunu, sədləri aş.
Sevə-sevə öləydim kaş,
Sən olaydın vəsiyyətim,
Ay gecikən məhəbbətim!

Bir könül var əmanətdir,
Acısı da şirin dərddir.
Bir qadına xəyanətdir,
Bir gözələ sədaqətim,
Ay gecikən məhəbbətim!

Cəza varsə, verən gəlsin,
Könlü hicran görən gəlsin.
Məcnun gəlsin, Kərəm gəlsin,
Desin nədir qəbahətim,
Ay gecikən məhəbbətim!

Bir xəstəyəm, əlacım sən,
Bir koram, əl ağacım sən,
Görüşünə əl açım, sən, –
Sən ol mənim son qismətim,
Ay gecikən məhəbbətim!

MƏHƏBBƏT

Bir masanın arxasında ikimiz,
Gələn gündən otururuq yanaşı.
Neçə dostdan eşitmişik burda biz,
Gör necə də bir-birinə yaraşır.

Ürəyimi açmasam da özünə,
Təkcə onu düşünürəm, anıram.
Bir gözaltı baxmaq üçün üzünə,
Dəftərinə gizlincə boylanıram.

Bir oğlani var,
burda qazdan ayıqdır.
Vızıldayır qulağıma arıtək:
– Elə baxma, müəllimdən ayıbdır,
Gəlsənə öz yerimizi dəyişək?

Yox, – deyirəm, – gözüm bura öyrəşib,
Burda yaxşı eşidirəm dərsi mən.
Görürəm ki, qız rahatca əyləşib,
Gülümsəyir, –
Razı qalıb sözümdən.

Qəlbimizin hər sevinci, hər qəmi
Dinməsək də, gözümüzdən oxunur.
Mürəkkəbə batıranda qələmi,
Əllərimiz bir-birinə toxunur.

Sevgi var ki, vurulasan uzaqdan,
Sevdiyini ildə bir yol görəsən.
Nə yamanmış nəfəsini duyasan,
Ürəyini açmayasan ona sən.

Mən qızlarla danışıram ürəkdən,
Hər biriylə zarafat da edirəm.
Titrəyirəm görən kimi onu mən,
Nitqim batır, dərin fikrə gedirəm.

O, çoxbilmiş oğlan görüb halımı,
Göz də vurur: – Belə boyun bükərsən.
Ürəyimdə deyirəm o zalıma:
"Mən çəkəni sən də bir vaxt çəkərsən".

Bəzən dərsdən axşamçağı tək gedir,
İstəyirəm evlərinə ötürəm.
Hansı qüvvə ürəyimi titrədir,
Ancaq ona "sağ ol" deyib ötürəm.

Deməyin ki, nağıl açıb sevgidən,
Unutmuşam nədir bilik, imtahan.
Ya gecikəm, ya dərsimi bilməsəm,
Hamıdan çox utanıram o qızdan.

1953

İLK SEVGİ MƏKTUBLARI

Bu saralmış varaqlar
Gözümlə sığallanıb,
Əlimlə əzizlənib.
Sətirlər arasında
Uşaqlığım gizlənib.
Məhəbbətim gəzlənib
Sətirlər arasında.
Ən zərif duyğularım,
Ən yuxusuz günlərim,
Ən şirin yuxularım,
İlk sevgi məktubunda.

Baxıram əsə-əsə,
İlk məhəbbət mənimlə
Durur nəfəs-nəfəsə.
İlk "sevirəm" sözündən
Qəlbim indi də çağlar.
Yavaş oxuyuram ki,
Eşitməsin uşaqlar.

İlk sevgi məktubları
Necə doğmadır, necə.
Elə bil görüşdəyəm
Sevgilimlə gizlicə.
Dodağım pıçıldayır,
Höccələyib çaşıram.
Sətirlər arasında
İlk məhəbbətim qalır, –
Ürəyimdə qalırmı?
Sətirlər arasında
Özümlə danışıram.
Sətirlər arasında
Səmimiyyətim qalır,
Uşaq ürəyi kimi
Təmiz niyyətim qalır, –
Ürəyimdə qalırmı?
Sətirlər arasında
İlk məhəbbətim qalır, –
Ürəyimdə qalırmı?
Sətirlər arasında
Diqqət ver sözlərə sən
"Ey eşqim, səadətim,
Sənsiz yaşaram çətin".
Oxuduqca deyirəm;
O, mənəmmi görəsən?
Heyif ki, dəyişmişəm,
Bu mən, o mən deyildir
Heyif ki, o günlərim
Geri dönən deyildir.
Sətirlər arasında
Başqa Tofiq dayanır.
Toxunduqca nəfəsim,
Eşqim od tutub yanır.
Sətirlər arasında
Görüş yeri boylanır,
Vida yeri boylanır.
Bura nöqtələr düşüb,
Gözümün qarasından.

Saçlarıma dən düşüb,
Sətirlər arasında.
Demirəm ki, çəkmirəm
O günlərin qəmini,
Demirəm ki, qaytarın
Cavanlıq aləmini.
Çağırsan da qayıtmaz,
Onu hara səsləyim? –
Bircə dəfə verilmiş
Əziz nemətdi, paydı.
Sətirlər arasında
Qalan müqəddəsliyim.
Xatirəm kimi uzaq
Paklığım, təmizliyim
Kaş ki, məzara kimi
Ürəyimdə qalaydı.

GÖRÜŞ

Biz ki unutmuşduq ilk məhəbbəti,
Ah, bu qəfil görüş kaş olmayaydı.
Mənim gözlərimdə eşqin həsrəti,
Sənin gözlərində yaş olmayaydı.

Mən də bəxtiyaram, sən də bəxtiyar,
Bəs bu həsrət nədir, bu məlal nədir?
Saxlama, qoy gedim,
gözləyənim var,
Gedimmi? –
Bir hə de, o sual nədir?

Dayanma qarşımda günahkar kimi,
Mən ki, günahını bağışlamışam.
Hələ qəlbi geniş adamlar kimi,
Sənin toyunu da alqışlamışam.

Niyə zilləmisən gözlərini sən?
Mənə əvvəlki tək baxma, amandır.
Mən ki əl çəkmişəm məhəbbətimdən
Qəlbimi odlara yaxma, amandır.

Peşiman olmağın nədir əlacı?
Yüz fikir bir borcu ödəməz indi.
Mən sənə qardaşam, sən mənə bacı,
İlk eşqə tapmısan bir əvəz indi.

Yanmasın, ulduzum tez yanıb sönsə,
Vədəsiz şadlığı istəmirəm mən.
Özgənin eşqinə göz dikməkdənsə,
Həsrətin qoynunda can verərəm mən.

Sevin, əzizləyin bir-birinizi,
Ayrılıq diləsəm dilim lal olsun.
Qolboyun, mehriban görəndə sizi,
Mənim şair könlüm qoy xoşhal olsun.

Şirin söz eşitsəm dodağınızdan,
Bilin ki, sədası ürəyimdədir.
Gəlsə körpə səsi otağınızdan,
Hər xeyir-duası ürəyimdədir.

Pozmaram bir evin birliyini mən,
Görsəm ev yıxılır, gedib quraram.
Əl əldən soyusa, ürək-ürəkdən,
Sizi eşqinizə qovuşduraram.

Nə peşiman ol, nə qəlbbini sıx,
Çətindir, o günə qayıtmaq, çətin.
Əvvəli sevincdir, sonu ayrılıq, –
Taleyi gətirmir ilk məhəbbətin.

Qoy bu ürək sözüm getməsin hədər:
Məni sevirsənsə, ismətini sev.

Mən səni bir vaxtlar sevdiyim qədər,
Sən də öz ərini, qismətini sev.

Biz ki, unutmuşduq ilk məhəbbəti,
Ah, bu qəfil görüş kaş olmayaydı.
Mənim gözlərimdə eşqin həsrəti,
Sənin gözlərində yaş olmayaydı.

EVƏ QAYIDIRIQ

Çatsaq da rütbəyə, ali savada,
Adi fəhlə kimi işləsək də biz,
Bağlı kabinetdə, açıq havada
Gündüzlər gərilir əsəblərimiz.

Gündüzlər bezirik üzlü bir "dostdan",
Bezirik xahişdən, ya göstərişdən.
Hərdən də çıxanda uzun iclasdan
Elə bil çıxırıq ağır döyüşdən.

Ürəy də yorulur, beyin də, göz də,
Sözlər eşidirik töhmətli, acı.
Axşam fəhləmiz də, nazirimiz də
Olur ev möhtacı, qayğı möhtacı.

Axşam hər ürəkdə bir istək gəzir:
Bir şirin təbəssüm, bir loxma çörək.
Kişilər görmüşəm evə tələsir
İlk görüş yerinə tələsdiyitək.

Kişilər görmüşəm qismәti, payı
Böyük bir külfətdir, kiçik bir otaq.
Hər axşam qadını dəmləyən çayı
Yüz-yüz qonaqlığa dəyişməz ancaq.

Qadınlar görmüşəm, ac-susuz qalıb,
Məskəni bir mətbəx guşəsi olub.

Yollara baxmaqdan gözü qaralıb,
Çeşməyi pəncərə şüşəsi olub.

Rəislər görmüşəm, sinə qəfəsi
Az qalıb partlasın bir zəng səsindən.
Hirsini soyudub qadın nəfəsi,
Evdə şəfa tapıb xoş təbəssümdən.

Kişilər də görmüşəm qalxıb kürsüyə,
Ağzından od saçıb, deyiblər nərsən
Evə qayıdanda, yazıq kilsəyə –
Zorla ibadətə gedir, deyərsən.

Tez gəldi, günahdır, gec gəldi, xəta,
Elə bil üstünə daş-divar yağır.
Qapısı açılır yarım saata,
Açanın üzündən zəhrimar yağır.

Soruşmur: Ay kişi, nə aləmdəsən?
Kim səni incidib, dərdlisən niyə?
Soruşur: – Bəs hansı cəhənnəmdəsən?
Tez ol, gecikirik, toya, şənliyə.

Qadınlar görmüşəm, dünya qəmini
Evindən didərgin salır hər axşam.
Kişi ürəyinin sarı simini
Qayğı mizrabıyla çalır hər axşam.

Hardasa başına yağır alqışlar,
Kimәsə şöhrətin, adın gərəkdir.
Evdə ipək əllər, gülgün baxışlar,
Evdə səni duyan qadın gərəkdir.

Evdə qayıdırsan uşaqlığına,
Qadın insandırsa, dodaq da büzməz.
Lap dahi olasan, şıltaqlığına
Öz qadının dözər, öz anan dözməz...

Evə qayıdırıq addımlarımız
Tələsir, –
Hamımız yorğunuq, acıq.
Qayğıkeş, mehriban qadınlarımız,
Açın süfrələri, sizə möhtacıq.

Sevən qəlbimizdə bir istək gəzir:
Bir şirin təbəssüm, bir loxma çörək.
Vəfalı kişilər evə tələsir,
İlk görüş yerinə tələsənlərtək.

VAĞZALI ÇALINIR

Bacım Elmiraya ithaf edirəm

Duvağa bürünüb yola düşürsən,
Qonşular telinə çiçək bağlayır.
Ay bacım, sən haldan-hala düşürsən,
"Vağzalı" çalınır, anam ağlayır.

O, nələr etmədi, toyunda nələr,
Bu həsrətin yeri nə tez bilindi?
"Vağzalı" çalınır, son dəqiqələr...
Özgə bir yuvaya köçürsən indi.

Köçürsən üzüağ, məğrur, həyalı,
Gedirsən könlünü verdiyin yerə.
Buydu anamın da fikri-xəyalı,
Bəs niyə kövrəlir o, birdən-birə?

Ortada quş kimi süzür gəlinlər,
Qızlar oğrun-oğrun yar soraqlayır.
Gülür, fərəhlənir toya gələnlər,
"Vağzalı" çalınır, anam ağlayır.

Xeyir-dua verir kiçik bacılar,
Dərindən ah çəkir böyük qardaşım.
Atanı dövrəyə alır qocalar,
Qapıya söykənir bəzəkli maşın.

Göz yaşı inci tək qonur sinənə,
Getmək istəyirsən, o qucaqlayır.
– Ay qızım, xoşbəxt ol! – Söyləyir sənə,
"Vağzalı" çalınır, anam ağlayır.

Bir evdən, bir evə səadət gedir,
Biri yola salır, biri səsləyir.
Bir ana qızını burda ləngidir,
Bir ana həsrətlə gəlin gözləyir.

Otaqda boş qalır gümüş çarpayın,
Küncdə bir kitabı yel varaqlayır.
Naxışlı fincanda soyuyur çayın,
"Vağzalı" çalınır, anam ağlayır.

Ona təskinlik də gərək deyildir,
O göz yaşlarında sevinc var, bacım.
Səadət həmişə gülmək deyildir,
Ana qız toyunda ağlayır, bacım.

Gedirsən ən şirin arzu-kam kimi,
"Vağzalı" çalınsın, get yavaş-yavaş.
Dünyada hər ana öz anam kimi,
Bircə toy günündə ağlayaydı kaş!

TOY GÜNÜ

Əmim İslamın sevimli nəvəsi
Sonanın toy gününə həsr edirəm

Üzüklü barmağın, xınalı əlin,
Qızım, ilk bəzəyin, ziynətin olsun!
Bu gün nişanlısan, sabah bir gəlin,
Bir gün də analıq qismətin olsun!

Babanın ürəyi dönübdür dağa,
Nənən süfrə açıb gələn qonağa,
Anan sənə baxır, atan uzağa,
Onlara bənzəmək niyyətin olsun!

Sən də bir yadigarsan bizə dünəndən,
Adın miras qalıb ulu nənəndən.
Biz onun ətrini alırıq səndən,
Bu ada ömürlük hörmətin olsun!

Çağırın, göllərdən uçub birbaşa,
Sonalar Sonama etsin tamaşa.
Bu gün dostlar dönüb qohum-qardaşa,
Bu birlik poladdan qoy mətin olsun!

Uyma, qiymətinə qızılın, zərin,
Başının tacıdır öz böyüklərin.
Nəslinin kökü var dərindən-dərin,
Bu sənin tükənməz sərvətin olsun!

Barışıb ulduzu gəlinlə-bəyin,
İstəyi bir olsun iki ürəyin.
O evdə can deyib, can eşitməyin,
Ay qızım şəkərin-şərbətin olsun!

Xeyir-duamızı özünlə apar,
Sənə bu Tofiqin bir arzusu var.
Ən böyük bəxşişin vəfa, etibar,
Cehizin öz həyan, ismətin olsun!

1986

KEÇ GÜNAHIMDAN

Mənə qurban verdin cavanlığını,
Nur etdin ömrümün qaranlığını.
Heyif ucuz tutdum qurbanlığını,
Görmədim, duymadım insanlığını.
Qəzəbim soyusun etirafımdan,
Sənə yalvarıram:
Keç günahımdan!

Bir gəlin olardın üzü duvağlı,
Bir xanım olardın evi çıraqlı.
Bir ana olardın oğul-uşaqlı,
Qaldın taleyi kəm, qapısı bağlı.
Mən səni ayırdım dostdan, qohumdan,
Sənə yalvarıram:
Keç günahımdan!

Ruhumu oxşadın gizli, xəlvəti,
Mən oldum könlünün son əmanəti.
Qadın nəvazişi ömrün zinəti,
Ölümdən betərmiş qadın nifrəti.
Bunu öz gözümlə gördüm yaxından,
Sənə yalvarıram:
Keç günahımdan!

Ah, nələr törədir acı söz, nələr!
Mənə bal verənə içirtdim zəhər.
Hicran hədəfiyəm hər axşam-səhər,
Qayıdıb sinəmə dəyir zərbələr.
Özüm yaralandım öz silahımdan,
Sənə yalvarıram:
Keç günahımdan!

Elə ucaltmısan, enə bilmərəm,
Elə yandırmısan, sönə bilmərəm.
Sənsiz lal olaram, dinə bilmərəm,
Əl çəkə bilmərəm, dönə bilmərəm
Mən öz bugünümdən, öz sabahımdan,
Sənə yalvarıram:
Keç günahımdan!

Ömrüm təkqanadlı quşa dönməsin,
Həsrətin gözümdə yaşa dönməsin.
Baharım borana, qışa dönməsin
Ürəyin bərkiyib daşa dönməsin,
Daşlar da od tutub yanar ahımdan,
Sənə yalvarıram:
Keç günahımdan!

Gözüm yox dünyanın bir sərvətində,
Səni arxa bildim darda, çətində.
Mənimdir qəmin də, sədaqətin də.
Qul olub eşqimin əsarətində,
Mərhəmət umuram sevgi şahımdan,
Sənə yalvarıram:
Keç günahımdan!

Sağalmaz xəstənəm, dərmanım sənsən,
Həkimim, həkimi, fərmanım sənsən,
Dövlətim, şöhrətim, ad-sanım sənsən.
Yeganə ümidim, günahım sənsən,
Mən necə əl çəkim son pənahımdan?
Sənə yalvarıram:
Keç günahımdan!

Vaxt ötür səfərə yığışır köçüm,
Bir dərya ömrümdən qalmış bir içim.
Ondan da yolunda hazıram keçim,
Keçim öz canımdan, öz var-yoxumdan,
Ayrılmaq istəməm şirin yuxumdan,
Sənə yalvarıram:
Keç günahımdan!

ULDUZLAR

Yüz illər, min illər sizin şöləniz
Sularda səpildi hər yola, izə.
Zülmət pərdəsinə bürünən dəniz,
Gecələr həsrətlə göz dikdi sizə.
Yandınız, gəmilər üzdü birtəhər,
Söndünüz, daşlara toxunub batdı.
Dedilər: Nə gözəl nemətdir səhər,
Təbiət gecəni nahaq yaratdı.

Ümidlər, arzular batdı Xəzərdə,
Sahildə hər gecə matəm quruldu.

Sulara qərq oldu qədim şəhər də,
Bir vaxt qaranlığın qurbanı oldu.

Gəmisi qəzaya düşən qapitan,
Əlini göylərə açıb yalvardı.
Sizdən işıq umdu boğulan, batan,
Tale ulduzunu axtaran vardı.

İnsan fəryadından əsrlər boyu,
Qayalar diksindi gecə dənizdə.
Nura boyamağa qaranlıq suyu
Siz də acizsiniz, ulduzlar, siz də...

Bir gün parçalandı zülmət pərdəsi,
İnsan öz bəxtini işıqlandırdı.
Bakı yer üzünün nur sərkərdəsi,
Xəzərdə bir qoşun ulduz yandırdı.

Buruqlar dənizin göy sinəsindən,
İndi sütun-sütun göyə nur çilər.
Əgər istəsəniz öz şöləsindən,
Sizə də pay verər bizim neftçilər.

Sizə də öyrədən yerə düşməyi,
Hər buruq bir işıq nərdivanıdır.
Hər mayak gəminin nurlu çeşməyi,
Sahili göstərir, yolu tanıdır.

Hər neftçi Koroğlu, bir nər oğlu nər,
Dəniz cilovlanmış kəhər kimidir.
Qoynu çilçıraqlı polad körpülər,
Xəzərin belində yəhər kimidir.

Ürək bura elə isnişir ki,
Deyirsən öz küçən, öz evinizdir.
Bircə tufan vaxtı yada düşür ki,
Bura torpaq deyil, bura dənizdir.

Hər ləpə ovcunda bir ulduz gəzir,
Sular başdan-başa nurdur, nur indi.
Gecə paltarını soyunub Xəzər
İşıq dənizində yuyunur indi.

Əriyib, əriyib siz axırsınız,
Dəniz möhtac deyil sizə, ulduzlar.
Yerə həsrət-həsrət hey baxırsınız,
Yerdə parıldayır təzə ulduzlar.

Deyirəm əbəsdir bu qəm-qüssəniz,
Sizdən işıqlıdır nuru ümmanın.
Ulduzlar, nə çoxdur qaranlıq dəniz,
Onların üstündə alışın, yanın.

1964

ÜNVANSIZ ŞEİR

Bilirəm yerini, ünvanını da,
Ancaq görüşünə bel bağlamıram.
Öldür o sonuncu gümanını da,
Mən səni gəzmirəm, soraqlamıram.

Qapıdan keçirəm gözü yumulu,
Qəsdən öz yolumu ordan salıram.
Mən kiməm? Dünənki eşqinin qulu
Bu gün həsrətindən qisas alıram.

Bir də görüşümüz baş tutan deyil,
Bəlkə yuxularda bunu görəsən.
Səni ürəyimdə yaşadıram bil,
Sən mənə təbərrik bir xatirəsən.

Qorxuram, deyərlər kefdə, büsatda
Ömür keçirirsən, qərq olum dərdə.
Qorxuram görəndə səni həyatda,
Ölsün o yaşayan xatirələr də.

ZORLA ŞAİR OLMAZSAN

Deyirsən ki, şairlik
Ancaq peşədir, peşə.
Nə əcəb girişmisən
Vəzifəli bir işə?
Şükür, ali savadın,
Özünə görə adın.
Nə əcəb bir rütbəyə,
Ada sahib olmadın?
Qulluq zəmanəsidir,
Ağlını yığ başına.
Aç gözünü, yaxşı bax
Bəzi yar-yoldaşına.
Bil ki, vəzifən olsa,
Yazdığın gedər çapa.
Qəzetçilər şerini
İstər əlindən qapa.
Tənqidçilər boynuna
Zorla qoyar – dahisən.
Təriflər kitabında
Şanlı bir siyahısan.
Unudulmuş əsərin
Təzədən varaqlanar.
Dünən bəyənməyənlər
Səninlə maraqlanar.
Məclis səndən başlanar,
Səninlə də bağlanar.
Xidmətçilər maşını
Bir-bir sürər qapına.
– Buyur, buna min, buna...
– Mənimki təptəzədir,
İnciyərəm minməsən.
Danışmasan, dinməsən
Bir maşında papağın,
Bir maşında kitabın.
Bir maşında ayağın,
Birində ayaqqabın.

Biri başı gəzdirər,
O biri də bədəni.
Qapında birləşdirib
Evə ötürər səni.
Əvvəl etiraz edib,
Deyəcəksən nə lazım?
Vəzifəm təzələnib,
Təzə deyil avazım,
Görəcəksən xeyir a.
Tərif yağış tək yağır.
Bu təriflər içində
Neyləyəsən sən fağır?
Əlqərəz bu şairlik
Adi peşədir, peşə.
Məşhur olmaqçın giriş
Vəzifəli bir işə...
Söylə, nə cavab verim?
Kömək elə oxucum.
Ona təsir edərmi
Qəzəb dolu bir hücum?
Deyimmi Nizaminin
Dövləti olmayıbdır.
Füzulinin şairlik
Bileti olmayıbdır.
Deyimmi Abbas Səhhət
Vəzifə axtarmayıb.
Hadini küçələrdən
Faytonda aparmayıb.
Deyimmi "Volqa"da yox.
Sabir piyada gəzdi.
Bir raket sürətiylə
Şeri dünyada gəzdi.
Sənə duyğusuz, gəreksiz,
Bu günsüz, gələcəksiz,
Ucuz şeir yolunda
Baş girləyən boşboğaz,
Yüz il gücən,

Yüz il yaz,
Çaşıb – vəzifən olar,
Yaşayan şerin olmaz.
Çəkmə asan yollara
Məni əbəs yerə sən,
Oxucunun ürəyi
Sənə kabinet deyil.
Zəngi basıb girəsən.
Gilə-gilə əriyib,
Kəlmə-kəlmə düzdüyüm,
Söz ömrümü uzadıb,
Öz ömrümü üzdüyüm,
Qızıl sətirlər üçün
Gümüşlənən saçımı,
Nəğmə ehtiyacımı,
Şeir ehtiyacımı
Dəyişmərəm o sənin
Kefdə keçən vaxtına.
Dəyişmərəm masamı
Yüz hakimlik taxtına.
Məhəbbəti, ilhamı
Vəzifəylə almazsan.
Zorla şair olmazsan.

ARXİV ŞEİRLƏRİ

Sən mənim qədrimi bilәsən deyə,
Bu cavan yaşımda ölümmü indi?
Əli Kərim

Bir silsilə şerini
Dərc ediblər bu səhər.
O, belə səxavəti
Az görüb sağlığında.
Şəklinə də qayğıyla
Yer ayırıb qəzetlər.
Harda isə çəkdirib
Onu uşaqlığında.

Üstündə oxuyuram:
"Şairin arxivindən".
Hər kəlmədə döyünür
Qəlbinin bir parçası.
Deyirlər beş kitablıq
Şeir çıxıb evindən,
Diriykən nəşr olunub
Əl boyda kitabçası.
Oxuyuram...

Duyğular

Körpə qəlbitək zərif,
Fikirlər kövrək, həzin,
Nisgillidir bir qədər.
Yəqin ki, sağlığında
Çox naşirə göstərib,
Sonra da arxivinə
Qayıdıb bu şeirlər.
Hər sözü ürəyimə
Köçürmək istəyirəm,
Məna dolu sətirlər
Həkk olunur beynimə.
Özümdən ixtiyarsız
"Yaşa. Sağ ol". – deyirəm.
İndi bu tərifləri
Kimə deyirəm, kimə?
Özünə söyləsəydim
Bəlkə bir gün, bir saat
Çox yaşardı rəhmətlik,
Sevinərdi ürəkdən.
"Əla, gözəl" deyirəm,
Məni eşitmir heyhat,
Nə xeyri, nə gecikmiş
Tərifləri deməkdən?
Şəkildə gözlərindən
Nurlu təbəssüm yağır,
Sağlığında bu qədər
Gülüb sevinməmişdir.

Şerini verməyəndə
Gedərdi səssiz, fağır,
Haqsız tənqidlərə də
Bircə yol dinməmişdir.
Dinib coşaydı gərək,
Öz haqqını alaydı,
Titrədəydi səsiylə
Daşqəlblini, kobudu.
Mənəvi qələbədən
Ürəyi sağalaydı,
Azalaydı dünyada
Bir şair tabutu.
Deyirdilər: – Nə qədər
Təvazökar, utancaq,
Necə də həyalıdır.
Getməz o, şikayətə.
Səssizcə öz evində
Yazıb-yaradır ancaq.
Nə kitaba möhtacdır,
Nə bir ada, şöhrətə.
Yaman razıydı ondan
İlhamsız rəqibləri.
Susmağı xoş gəlirdi
Maskalı xəbislərə.
Hər birinin olsaydı
Bu arxivdən xəbəri
Paxıllıqdan qovrulub,
Çıxmazdılar səhərə.
O isə borc alırdı
Pulu qonum-qonşudan,
Yazdığı baldan şirin,
Həyatı zəhər idi.
Onu bəzən ac-susuz
Bir ümidlə yaşadan
Bütün varı-dövləti
Həmin şeirlər idi.
Evinin nömrəsini,

Küçəsinin adını,
Çörəyin qiymətini
Unudardı həmişə.
Həyatda şeir qədər
Çox sevdiyi qadını
Utanardı çağırsın.
Qanuni bir görüşə.
Ürəyi bir şam kimi
Yandı köksünün altda.
O, şeir yaza-yaza
Öz ömrünü bitirib.
Sənətin fədaisi
Acizdirsə həyatda,
Tək özü yox, Vətən də
Bundan çox şey itirib!
İtirib şerimiz də,
Seyrəlib cərgəmiz də.
Sinəsində aparıb
Bəlkə şah əsərini.
Bir rütbəli riyakar,
Bir peşəkar xəbis də
Bu itki hesabına
Rahlayıb öz yerini...
Sənətkar öz haqqını
Gec-tez alır deyirlər,
İstedadın yolunu
Kəsə bilməz bənd-bərə.
Şairin arxivindən
Qanad açıb şeirlər,
Qonur qaranquş kimi
Ağızlara, dillərə,
Özü eşitmir ancaq
Elin alqışlarını.
Qəzəbindən partlayır
Bəzi diri meyitlər.
Xəlvətdə kötük kimi
Tərpədib başlarını.

Onun dirilməyindən
Xoflanır laqeydlər.
Sağlığında şerinə
Göz yumanlar söyləyir:
"Ah necə də gözəldir!
Gözüm yaşarır, baxın".
Biganə dostların da
Ürəkləri göynəyir.
Əfsus ki, qulağı kar,
Dili laldır torpağın!

ŞAİR HAQQINDA DÜŞÜNCƏLƏR

Bəzisi düşünür: – Şairə nə var,
Sözdür, qafiyədir tapıb düzəldir.
Alnında tər olmur, əlində qabar,
Həyatı firavan, ömrü gözəldir.

Bir kitab yazdım, gəzir "Volqa"da,
Yollar daş-kəsəksiz, hər işi asan.
Qızlar da tez uyan şöhrətə, ada,
Təki məhəbbətdən şeir qoşasan.

Şair ol, barmaqla göstərsin hamı,
Dünyanın dərdini heç alma vecə.
Gir evə, harayla, təbi, ilhamı,
Bir qələm, bir kağız, bir səssiz gecə.

Gəlsin qabağına limonlu çayın,
Evin xanımı da qulluğundadır.
Doldur varaqları rahat, arxayın,
Şeir qafiyənin bolluğundadır.

"Ellərə" "sellərə" qoş, bir "dağ de", bir "bağ",
Söz aç bu gündən də, ötən çağdan da...
Yox, qafil, yarımçıq sənətkar olmaq
Ağırdır yarımçıq doğulmaqdan da.

Bir qoşma deməklə dağdan, arandan,
Şairlik olmayır, ad-san olmayır.
Polad əridəndən, qaya yarandan
Şairin zəhməti asan olmayıb.

Dostu milyon-milyon,
Düşməni min-min,
Hər sətri bir tufan qoparan dalğa.
Şairin köksünə dəyən güllənin
Ağrıları dəyir bütöv bir xalqa.

Daim şairiylə öyünmüş Vətən,
Şairsiz ağlamaq, gülmək çətindir.
Şairin adını milyon ürəkdən
Neştərlə, xəncərlə silmək çətindir.

Baxın keçmişinə bizim diyarın:
Şair olan yerdə hünər də varmış.
Xalqa divan tutan hökmdarların,
Birinci qurbanı şair olarmış.

O, bir qığılcımdır, söndürülməsə
Qəlblərdə törədər alovlar, odlar.
O, bir qasırğadır, bu qorxunc səsə
Çaxnaşıb səs verər göydə buludlar.

Şeir arzulara qanad yarandı,
Əməllər şeirtək axub durulsun.
Bütün insanların ən böyük andı,
Böyük şairlərin vicdanı olsan.

Bəlkə ilk qartal da qayalar üstə,
Şair vüqarına baxıb ucalmış?
Tufan qoparmağı bəlkə dəniz də
Şairdən öyrənmiş, şairdən almış?

Düşmə xam xəyala, yazıqsan, yazıq,
Şan-şöhrət tilsimə salmasın səni.

Kim deyir, həmişə biz kefi sazıq?
Dağ çəksə, əriyər şair çəkəni.

Dünyanın qayğısı gəzir sinədə,
Aləm yuxudadır, bir qələm, bir o.
Sevdiyi bir qızın görüşünə də
İlham gələn zaman gedə bilmir o.

Günlər necə gəlir, necə dolanır.
Şairə nəğməsiz ömür , gün nədir?
Gecələr şerinə şeir calanır,
Gecələr ömründən ömür, gün gedir.

Ürək söz eşqiylə vurur həmişə,
Həyat nəğmələrlə zinətli olur.
Axtarır, saçları dönür gümüşə,
Tapdığı qızıldan qiymətli olur.

Qu quşu ömründə təkcə bir kərə,
Deyib nəğməsini köçür dünyadan.
Ömür daha şirin olur şairə,
Ən gözəl şerini yaradan zaman.

Qayğıdır şairin qolu, qanadı,
Şeir də qayğıyla yaranmalıdır.
Şairin hüququ, şairin adı
Dövlət sərhəditək qorunmalıdır.

Nəsillər borcludur, gözəllik yayan,
Saflığa çağıran bu təmiz ada.
Bəlkə şair olmuş ilk dəfə duyan,
Eşqin mənasını qoca dünyada?

Hamı şeir yaza bilsəydi əgər
Olmazdı dünyanın heç qəmi, dərdi.
Ən ağır, ən böyük müharibələr
Sözlə başlanardı, sözlə bitərdi.

Şerin düşmənidir ölümlər, qanlar,
Şair həyat deyir, səadət deyir.
Şeirlə yazılsın bütün qanunlar,
Ana südü kimi təmizdir şeir.

Bütün diplomatlar eşitsin bunu:
Natiqlər kürsüdən ensin deyirəm.
Bu gün BMT-nin iclas salonu,
Şeir məclisinə dönsün deyirəm.

Orda gərək deyil tərcüməçi də,
Şerin vahid dili ürəkdir, ürək.
Daxmada, zindanda, evdə, küçədə,
Onları yer üzü dinləsin gərək.

Şairlər kürsüyə ucalsın bir-bir,
Söz açsın dünyanın dərdi-sərindən.
Ürək parçalasın hər qəmli şeir,
Hərbə nifrət yağsın kəlmələrindən.

Desinlər: – Bəşəri salmayın qana,
Dünya yetim qalar, torpaq insansız.
Raketlər sancılsa göyün bağrına,
Səma yersiz qalar, yer asimansız.

Gör nələr yaradır əliniz, nələr,
Yanın alnınızdan çözülən tərə:
İnsanlar, lüt gəzir milyon körpələr,
Şinel tikirsiniz milyon əsgərə.

İnsanlar, yeriyin ləpələr kimi
Hərbin üzərinə siz qoşun-qoşun.
Uçan quşlar kimi, nəğmələr kimi
Siz də qucaqlaşın, siz də qovuşun.

Hər şair qəlbində min arzu, həvəs,
Şadlığa müntəzir, toya müntəzir.

Hər şair qəlbində bitib-tükənməz
Sizə deyilməli nəğmələr gəzir.

İnsanlar, sizindir bu gül, bu çiçək,
Həyatın bal qədər şirinliyi var.
Anamız dünyanın gəlin evitək
Bəzəyin, qoruyun, sevin, insanlar.

Sizə nəğmələrdən hörərik çələng,
Nəğməylə yaşamaq bir səadətdir.
Zalqı ucaltmayıb qorxunc top-tüfəng,
Xalqı ucaldan da şeir-sənətdir...

Ən yaxın, yn uzaq ünvana kimi
Hər şeri o, yola salır nigaran.
Qızı gəlin gedən bir ana kimi
Gözləyir nigaran, qalır nigaran.

Hər ürək bu yola gətirməyib tab,
Şairlik nə bəylik, nə soltanlıqdır,
Şairlik ən böyük əziyyət, əzab,
Şairlik ən böyük qəhrəmanlıqdır.

Deyirəm bir şair göstərin mənə,
Dünyada o, yüz il yaşayıb bir vaxt.
Loğmanlar hər ömrü uzatsa, yenə
Şairlər hamıdan tez qocalacaq.

Bağrı gecə-gündüz yanan bir məşəl,
Onuntək yanmazsan nə qədər yansan.
Bəlkə şair imiş hər kəsdən əvvəl,
İlk dəfə ürəyi ağrayan insan?

Şair öz sözüylə, öz qüdrətiylə
Ömrünü verməli Vətənə, yurda.
Tonqalda hamının hərarətiylə
İsidib, kül olur özü axırda.

O, gərək can qoya, ürək əridə,
Qəm ona əbədi bir yük olubdur.
Dərdi böyük xalqın şairləri də
Sənətdə həmişə böyük olubdur.

Danışsın vətəndaş, böyük şairlər,
Kəlmələr alovdan, oddan yoğrulsun
Hər şair bir xalqın rəhbəri qədər,
Milyon talelərə cavabdeh olsun.

Şairdə ildırım gücü var bəlkə,
Şeir daşdan keçən qurşun kimidir.
Nəğməsiz bir millət, şairsiz ölkə,
Sərkərdəsiz qalan qoşun kimidir.

1962

DOST TÖHMƏTİ

Dedi: – Oxumuram təzə şerini,
Xeyli var heç yanda görünmür imzan
Elə kürsülərdə görürəm səni,
Bəs nə vaxt oturub şeir yazırsan?

Dostum, qədrini bil saatın, günün.
Həyat nəfəsidir sənət həvəsi.
Qırxı adladımı –
şair ömrünün
İnan ki, qızıldır hər dəqiqəsi.

Gün var əllərindən uçub şar kimi,
Yerində nə qalıb? –
Yersiz hay haray.
Dövlət bankındakı hesabdar kimi
Ayları, günləri xəsisliklə say.

Hesabla, görərsən bu səxavətin
Ömür bahasına başa gəlibdir.

Tərifi, xumarı hər ziyafətin,
Evə günahınla qoşa gəlibdir.

Dostum, çox gedirsən toya, matəmə,
Gərək bu gedişdə bir ölçü olsun.
Şeir yaz, təskinlik gətirsin qəmə,
Şeir yaz, toylarda bir elçi olsun.

Xərcləmə ömrünü, tükənir varın,
İllər köçəridir, qayıtmaz bir də.
İnan ki, həqiqi sənətkarların
Özü bir yerdədir, sözü min yerdə.

Ötəri fikirlər qatıb başını,
Uşaq tək uymusan boş təsəlliyə.
Sən çoxdan ötmüsən Müşfiq yaşını,
Artıq qədəm qoyub ömrün əlliyə.

Şair qocalırsa, bu şadlıq deyil,
Ömrə güman hanı, etibar hanı?
Şairlik döyüşdür. Rahatlıq deyil,
Yürüş meydanıdır, yarış meydanı...

Onun qəzəb dolu həqiqətinə
Bircə yol "haqlısan" deyib kiridim.
Yoldaş gileyinə, dost töhmətinə
Çoxdan həsrət idim, tamarzı idim.

Bu gün hakim kimi durdu qarşımda
Öz şair qardaşım, sınanmış dostum.
Hər sözü od töküb çaxdı başımda,
Bildim günahkaram, hörmətlə susdum.

Necə xeyirxahmış dostun qəddarı. –
O məni yandırdı öz əvəzimə.
Üzümə çırpdığı bu günahları
Qorxmuşam deməyə özüm-özümə.

Qorxmuşam görməyə zəifliyimi,
Tərif kölgəsində daldalanmışam.
Günləri sovurub köhnə pul kimi,
Şirin yuxularda çox talanmışam.

Uçdü beynimdəki alqış xumarı,
Keyimiş təbimə zəlzələ düşdü.
Yolumu gözləyən ağ varaqları
Öz kəfənim kimi yas bürümüşdü.

Gördüm ki, dəyəndə şair nəfəsi,
Kağız da sevinir qaralmağına.
Bəlkə bir ölkənin sözü, nəğməsi
Yazılır kitabın bir varağına.

Sanki təzələndi ruhum, varlığım,
Qəlbim də, evim də işıqla doldu.
Dostun töhmətinə minnətdarlığım
Təzəcə yazdığım bu şeir oldu.

KÖHNƏ ŞEİRLƏRİMLƏ SÖHBƏT

Həkimlər qadağan edib yazmağı,
Dəyirman daşı tək hərlənir başım.
Susmaq şair üçün ölümdür axı,
Görəsən dərdimi kimə danışım?

Sizə danışıram, ey şairlərim,
Ey mənim sınanmış, köhnə dostlarım.
Gözümün işığı, bəhərim-barım
Dünyada yeganə dövlətim-varım.

Bir zaman gecəni qatdım gündüzə,
Dedim üzülməsin əlim fürsətdən.
Ömür bahasına can verdim sizə,
Şirin ləzzət aldım bu əziyyətdən.

Siz üzə çıxınca əsərdi ürək,
İmzamı görməyə mən tələsirdim.
Pəncərə önündə durub sübhədək,
Günəş nə gec doğur, – deyib küsərdim.

Səhərlər yürüyüb qəzet köşkünə,
Tutardım növbədə birinci yeri.
Beş-altı sətirlik şerin eşqinə,
Bir qucaq qəzetlə dönərdim geri.

Ayağım altında qalardı şəhər,
Uçardım, sizə mənim qolum-qanadım,
Heyrətlə baxardı yoldan keçənlər,
Sanardım hamıya tanışdır adım.

Şerimi oxuyur bütün binalar,
Hər ev dost eviydi, qohum eviydi.
Duyar sevincimi əziz analar,
Sinəm nəğmələrin doğum eviydi.

Mən indi dünyanın ən bəxtəvəri,
Atam hər şerimə məclis qurardı.
Anam da eşidib bu şad xəbəri,
Başıma üzərrik dolandırardı.

Oğlun şair olub, gözlərin aydın! –
Axışıb gələrdi tanış-bilişlər.
(Deyirəm ay ata, kaş sağ olaydın,
Dolaydı evimə həmin gülüşlər).

İndi o günlərim dönüb nağıla,
Ummuram əvvəlki umacağımı.
Bir də o nəğmələr çətin doğula,
Bir də kim qaytarar gənclik çağımı?

Şeir var, heyif ki, söhbəti yoxdur,
Girmir otaqlara xoş xəbər kimi.
Əvvəlki oxucu heyrəti yoxdur,
Şairə baxmırlar peyğəmbər kimi.

Yazdığım ilk şerin ləzzətini mən,
İndi on kitabdan almıram, düzü,
Hər gecə gözümə çökür duman, çən,
Qorxuram görməyəm bir də gündüzü.

Əlimdə tutar yox, qələmdən tuta,
Qələmə nə var ki, dərd mənim olur.
Stolum qaralıb dönür tabuta,
Ağaran varaqlar kəfənim olur.

O mən deyiləmmi təbim gələndə,
Hazırdım daş üstə oturub yazım?
Elə ki, qurudu qələm əlimdə,
İstərdim qanıma batırıb yazım.

İndi utanıram, ey şeirlərim,
Varmı bundan ağır cəza, bilmirəm.
Qoy çıxsın aşkara ürək sirlərim! –
Əvvəlki həvəslə yaza bilmirəm.

Dünyaya baxmıram əvvəlki gözlə,
Üzünü görməyim necə namərdin.
Yanmıram əvvəlki atəşlə, közlə,
Əlində girincəm azarın, dərdin.

Şeir əvəzinə, kitab yerinə,
Dərman kağızları çıxır cibimdən.
Şəhərin mötəbər həkimlərinə
Baxıram Allaha baxan kimi mən.

Onlara deyilir hər ağrım, acım,
Ərkim çatmayanda üç övladıma.
Hər şəfqət bacısı öz anam, bacım,
Simurq quşu kimi çatır dadıma.

Dilimə yad olub iynəli sözlər,
Bədənim iynədən deşik-deşikdir.
Durur başım üstə xətri əzizlər,
Körpəyəm, çarpayım sanki beşikdir.

Bax, buna görə də ey şeirlərim,
Sizdən xəcalətəm, özümdən bezar.
Şeir məclisində görünür yerim,
Məni dustaq edib qocalıq, azar.

Nə vaxtdır qalmışam yoldan, səfərdən,
Yadıma gəzdiyim ölkələr düşür.
Bir zaman uçduğum təyyarələrdən,
İndi pəncərəmə kölgələr düşür.

Ən uca kürsüyə mən yaraşardım,
Sənət meydanına gəldiyim gündən.
İlham təzyiqiylə aşıb-daşardım,
İndi boğuluram qan təzyiqindən.

Hamını maqnit tək çəkərdi sözüm,
Daş-divar dözməzdi həyəcanıma.
Qızların dilində şəkərdi sözüm,
Qurd kimi daraşıb şəkər canıma.

Zəhərə döndərib o şirin ömrü,
Hər ağrım sonuncu əzab kimidir,
Yataqda çürüyən şairin ömrü,
Bir küncə atılmış kitab kimidir.

Onu kim oxusun, kim varaqlasın?
Yaxınlar duyurmu uzaqlığımı?
Bədxahım tələsir gəlib ağlasın,
Qəzetdə axtarır başsağlığımı.

Kim ki, qiymət verib, məni sayıbdır,
Həmişə gələrdi, az gəlir daha.
Dostlar ünvanımı yadırğayıbdır,
Telefon zəngləri seyrəlir daha.

Görəsən nə imiş günahım mənim?
Bəlkə azara da günah deyirlər.
Sizsiniz sonuncu pənahım mənim,
Ey məni yaşadan köhnə şeirlər!

Sizə övladımdan çox inanıram,
Övladlar böyüyüb dəyişə bilər.
Birini aldadır əyrilik, haram,
Həyatdır, yolları səhv düşə bilər.

Ancaq siz dəyişməz qalın eləcə,
Mən də bu dünyadan köçüm arxayın.
Ayları, illəri almayın vecə,
Necə var səsimi ellərə yayın.

Bəziniz yollarda köhnələrsiniz,
Yaxşınız bir yana, pisiniz də var.
Demirəm hamınız ləl-gövhərsiniz,
Sizin tuncunuz da, misiniz də var.

Sizə şəkər verib, bal qatmaq üçün
Əlləşdim, canımı şəkər tez aldı.
Sizin ömrünüzü uzatmaq üçün
Artdı qan təzyiqim, ömrüm qısaldı.

Məlhəmim sizsiniz, ey şeirlərim,
Siz mənə ən doğma, ən əzizsiniz.
Sənət dünyasında boş qalmaz yerim,
Özümdən sonrakı həyat sizsiniz!

AY KEÇMİŞ CƏBHƏÇİ

Bir cəbhəçi dostuma

Bilirəm, köksüylə cəbhələr yaran
Ən cəsur, ən igid əsgər olmusan.
Düşmənin başında tufan qoparan
Cəsarət olmusan, hünər olmusan.

Ən ağır döyüşə sən atılardın,
Ən qabaq səngərdə yerin var idi.
Ölümün cəngindən həyat alardın,
Rəşadət dilində bir şüar idi.

Saçını güllələr daradı sənin,
Hazırdın el üçün candan keçəsən.
Mənim şöhrətimdir, nurlu dünənin,
Ay keçmiş cəbhəçi, bu gün necəsən?

Bilmirəm ürəyin sınar, ya sınmaz,
Məndən incisən də, deyim üzünə:
Tanımaz olmusan, ay dost, tanımaz,
Bu gün dəyişmisən özün-özünü.

Nə döyüş qorxusu, nə top səsi var,
Bəs niyə bir azca qorxaq olmusan?
Sizin idarənin bir rəisi var,
Yanında titrəyən yarpaq olmusan.

Axı, daban döyüb o sən getdiyin
Cəbhəni kinoda görür, kinoda.
Ölüm pəncəsindən xilas etdiyin
Milyon adamların biridir o da.

Dünən daş səngərdən gələndə səsin,
Hər gecə o, yumşaq yatağa girdi.
Barıt qoxuyanda odlu nəfəçsin,
O, baxıb güzgüyə ətirlənirdi.

Dünən son qoyaraq elin yasına,
Qorudun xalqını, məmləkətini.
Sən qan bahasına, can bahasına
Qorudun onun da səadətini.

Bunları anlamır, duymur o qansız,
Elə bil anadan rəis doğulub.
Yaşayır keyfi saz, ömrü tufansız,
Bağlı kabinetdə cəngavər olub.

Sən ona yaralı köksünü göstər,
Görsün kimdir layiq ada, şöhrətə.
Səngərə şir kimi atılan əsgər,
Quzu tək girirsən bu kabinetə.

Ona xoş görünmək xətrinə sən
İndi göz yumursan əyriyə, pisə.
Bal qatıb sözünün hər birinə sən,
Tərif yeridirsən həmin rəisə.

Görürsən kiməsə ilişir dişi,
Pozur qanunları, baxırsan mat-mat.
"Axı, nə dərdimə özgənin işi?
Yerim rahat olsun, başım salamat.

Cəbhəmi öyrədib həmin şüarı?
De, necə vicdanın götürür indi?
Dünən qoruduğun dövləti-varı
O, yağlı quyruq təki ötürür indi.

Sən elə baxırsan dili, nitqi lal,
Beləmi baxırdın yanan bir kəndə?
"İgidliyə görə" aldığın medal
Əriyib qəlpəyə dönür sinəndə.

Ay keçmiş cəbhəçi, kimə oldun tay,
Mən ki, tanıyırdım əsgər tək səni.
Qalxıb məzarından Mixaylo, Gəray,
Hərbi tribunala çəkəcək səni.

Deyəcək: – Cavab ver öz keçmişinə,
Cavab ver durduğun sıralara sən.
Cavab ver güllələr dələn döşünə,
Aldığın müqəddəs yaralara sən!

Süngü vuruşuna sən cərgə-cərgə
Atılıb "qorxağa ölüm!" demisən.
Sən ki, qorxaqlığı düşmənlə birgə
Moskva altında güllələmisən.

Sən qorxaq olsaydın ana torpağı
Günəş bürüməzdi, nur dolanmazdı.
Sən qorxaq olsaydın, zəfər bayrağı
Berlin üzərində dalğalanmazdı.

Həqiqət nəfəsli bir həyatdasan,
Qorxarmı od-alov görmüş bir ürək?
Özün döyüşçü tək ehtiyatdasan,
Sənə ehtiyatlı olmaq nə gərək?

Səndən kömək umur iş yoldaşların,
Cəbhəçi vicdanın pənahdır bizə,
Barsız kötüklərin, karsız daşların
Kökünü üzməmək günahdır bizə.

Üzürük, kəsirik, yer təmizlənir,
Ümmandır yaxşılar, damladır pislər.
Harda ki, cəsarət, hünər gizlənir,
Orda üzə çıxır zalım rəislər.

Ay keçmiş cəbhəçi, imtahan olsa,
Mərdliyi sən bizə öyrətməlisən.
Sabah yolumuzda bir tufan olsa,
Yenə ilk sırada sən getməlisən.

Adında bir nəslin adı, şöşrəti,
Qəlbində atəş var, bu torpaq üçün.
Qoru odlar görmüş o cəsarəti.
Dar gündə Vətəni qorumaq üçün.

Yaradan cəsarət, quran cəsarət,
O qorxan gözlərə nizədir, nizə.
Haqqın keşiyində duran cəsarət
Döyüşkən əsgər tək vacibdir bizə!

GƏRƏK ELƏ YANIM...

Deyirsən, hissini bir az cilovla,
Bir az mülayim ol, hələ uşaqsan.
Əgər belə yansan, bu ad-alovla
Sən özün-özünə yandıracaqsan.

Deyirsən, düz sözü çırpma hər üzə,
Kürsüyə qalxanda böyük-kiçik bil.
Lazımsa yalanı doğruyla bəzə,
Lazımsa, ucalmaq naminə əyil.

Deyirsən, beledir, indi nə etmək,
Bu coşub daşmağın hədərdir, hədər.
Sən tutan bu yolla irəli getmək
Çətindir iynəylə gor qazmaq qədər.

Nə qədər gec deyil, dəyiş yolunu,
Sənə yandığımdan deyirəm ancaq.
Mənə yandığından?!
Kim deyir bunu?
Dərdimə, halıma yanana bir bax!

Məni istəməyin yalandır, yalan!
İstəyin odur ki, sən deyən olum.
Mənim mənliyimdir səni qorxudan,
Dəridən çıxırsan dönüb sən olum.

İblis məhəbbətin özünə qalsın,
Mən sənə bənzəsəm min günah olar.
Yaltaq istəyər ki, sayı çoxalsın,
Pələngsiz meşədə tülkü şah olar.

Paxıllıq hissidir səni öldürən:
Niyə həqiqəti deməkdir peşəm.
Niyə əzildikcə bərkiyirəm mən,
Niyə sənin kimi kiçilməmişəm?

Yanırsan. Duyuram yanıq iyini,
Sərçə üreyini vüqarım sıxır.
Sən şöhrət naminə itirdiyini
Məndə görən zaman cızdığın çıxır.

(Mənə az coşub-daş, az yan deyənin
Başında, ey şerim, şimşək kimi çax.

Vətənə yalandan can-can deyənin
Vətəni kabinet, kürsüdür ancaq).

O da yavaş-yavaş çıxır əlindən,
Bir yol ucalmaqçın yüz yol süründün.
O qədər girdin ki, roldan-rola sən,
Rollar da qurtardı, özün göründün.

Göründün, gizlənmək gümanı getdi.
Göründün, gördük ki, çox yanılmışıq.
Ucuz alqışların gümanı getdi,
Həqiqət üzünə saldı gur işıq.

Tanındın! Ay yazıq, necə dözmüsən
Özünü özündən oğurlayaraq?
Böyük faciəymiş, düşünürəm mən,
Şöhrət xatirinə başqası olmaq!

Dəyişə bilmərəm təbiətimi,
Dəyişə bilmərəm şöhrətə, ada.
Ölüm-yaşayınca mən sənin kimi,
Nəyəmsə, özüməm ancaq düynada...

Deyirsən, hissini bir az cilovla,
Bir az mülayim ol, hələ uşaqsan:
Əgər belə yansan, bu od-alovla
Sən özün-özünü yandıracaqsan.

Yox, qəbul etmərəm, "əxlaq" dərsini,
Bu qayğı altında min hiylə yatır.
Yananda yandırıb-yaxıram səni,
Səsim gür çıxanda cır səsin batır.

Məni əbəs yerə gəl tutma dilə,
Odumdan qorxursan, demə ki, xamam.
Gərək elə yanam, külümdən belə
Nəsillər tanısın Tofiq Bayramam!

TÜRK MÜĞƏNNİSİ SEVDA AYDANA

Bir cüt qara göz görmüşəm,
Zülmətdən qara.
Qaralığı işıq saçır
Qaranlıqlara.
Bir cüt qara göz görmüşəm,
O gözlər nədir?
Bəlkə Qara dənizdən o,
İki qətrədir.
O gözlərin alovuyla
Yandı ürəyim.
O gözlərə ulduz deyim,
Ya çıraq deyim...
Səhnəmizdə bir qu quşu
Süzür bu axşam.
Bir ilahi qız səsindən
Əfsunlanmışam.
Canı mənim canımdandır,
Qanı qanımdan.
Lisanını ayırmıram
Öz lisanımdan.
Bu səs necə doğma,
Necə müqəddəs.
Qılıncları atəşiylə
Əridər bu səs.
Bu uğurlu sevgi kimi
Qəlbə girir o.
Ürəkləri,
Sərhədləri
Birləşdirir o...
Bülbülləri lal eləyən
Bülbülüm hanı?
Cəh-cəhiylə salamlasın
Sevda Aydanı.
Deyin, yarıb qaranlığı
Gəlsin meydana.

Həsrət qalıb Qırat ona,
Səhnəmiz ona.
Azərbaycan torpağını
Titrədən bir səs
Torpaq altda qala bilməz,
Yox qala bilməz.
Bülbülləri lal eləyən
Bülbülüm hanı?
Cəh-cəhiylə salamlasın
Sevda Aydanı...
Türkiyənin gözəl qızı,
Nəğməkar qızı.
Sən yandırdın ürəyimdə
Sevda ulduzu
Elə bil ki, təlatümlü
Bir Xəzərəm mən,
Yollarına çiçək kimi
Söz düzərəm mən.
Söz düzərəm Bakımızdan
İstanbulacan,
Sən arzusu çiçəklənən,
Eşqin gül açan
Millətimin nəfəsiylə
Ətirlənmisən.
Günəş görüb,
Bir ay kimi
Bədirlənmisən.
Gəlişin bir toy-bayramdı
Gedişin ağır
Ürəyində məni səslə.
Məni də çağır.
Xəyalım bir köhlən kimi
Çapar izinlə.
Sənə məftun ürəyimi
Apar özünlə.

1964

AZƏRBAYCAN DÜNYA GƏZİR

Sevimli dirijorumuz
Niyaziyə ithaf edirəm

Şəhər təngiyirdi bulud içində,
Günəşə həsrətdi dumanlı London.
Hovent Harden zalı sükut içində,
Sən bir qartal kimi səhnəyə qondun.
Kral orkestri əmrə müntəzir,
Əllərin aramla qalxır havaya.
Məxmər lojalarda pıçıltı gəzir,
Bəlkə də heç səni almırlar saya.
Lordların, serlərin gözü bərəlmiş,
Səhnəyə buz yağır baxışlarından.
"Londona Bakıdan dirijor gəlmiş,
Bakıdan – mazut, neft diyarından?
Ağla sığışmayır, ha beynini yor,
Onların çaldığı tütək, nağara.
Kral orkestri, şərqli dirijor,
Hovent Harden hara, müsəlman hara?
Motsart bu səhnədə çalıb bir zaman,
Ştraus qəlblərə olubdur hakim.
Dahi Toskaninin, böyük Karayan
Çıxdığı o pulta gör kim çıxır, kim?
Yəqin əl-qol atıb düşəcək yerə,
Səhnədən çıxacaq o, kor-peşiman.
Qəzetlər hərisdir bu cür xəbərə,
Müxbirlər indidən yazır çox güman:
"Ruslar geri qalmış bir əyalətdən
Dirijor göndərib Hovent Hardenə.
Elə uzaqdır ki, böyük sənətdən
Orkestr ağladı onun dərdinə.
Bizim ingilislər qonaqpərəstdir...
Fitə basmadılar yaxşı ki, onu.
Yerdən söz atdılar: "Çalmayın bəsdir".
Durub tərk etdilər bir-bir salonu" –

Belə düşündükcə lordlar qımışır,
Ledilər ürəkdən acıyır sənə.
Əllərin qalxdıqca orkestr coşur,
Notlar dəniz olub axır sinənə.
Süzülür səhnəyə, qovuşur zala,
Hamı nəfəsini qısıb dinləyir.
Pensne gözlərdən düşür az qala,
Ledilər, ağalar susub dinləyir.
Coşur valtornlar, violençellər,
Sola çevrilirsən, sağa dönürsən.
Qartal qanadıtək açılır əllər,
Böyüyüb, böyüyüb dağa dönürsən.
Yrəkdir alışan pultun dalında,
Zalı atəşiylə yandırıb yaxır.
Yaman çaşbaş qalıb öz sualında,
Cənablar səhnəyə heyrətlə baxır.
Biri acı yeyib, sanki biri şor:
"Bu necə insandır, bu necə tufan?
Deyəsən Londona cənab dirijor
Bizə dağ çəkməyə gəlib Bakıdan".
Burda paytaxtımı görən tapılar,
Göz dikdi xalqımın nur sərvətinə
Fatehlik fikrinə düşən ağalar
Düşüb musiqinin əsarətinə.
Biri övkələyib qızıl bantını,
Bakıdan gətirib, əminəm, əmin
Bir xanım gizlədib brilyantını,
Bəlkə cehiziymiş bir vaxt nənəmin?
Bir zalım ürəyi tutulsa dərdə,
Bir vicdan oynasa, – bu hünərindir.
Sən pultun dalında qalib sərkərdə,
Kral orkestri əsgərlərindir.
Çalınır "Koroğlu" uverturası,
Cəngilər, nərələr bürüyür zalı.
Serlərin, lordların çaşıb sırası,
Gözlər dumanlıdır, başlar havalı.

Zalda vətənimi sevənlər də var,
Daim səninlədir ruhu, nəfəsi.
Qəlbində məhəbbət, əlində qabar
Sənə gül gətirib London fəhləsi.
Sinən dəniz kimi enib-qabarır,
Əlin qılınc kimi yarır havanı.
Kral orkestri tufan qoparır,
Salonda görürsən Azərbaycanı.
Bura Araz gəlir, bura Kür axır,
Min ildırım qopur, min şimşək çaxır,
Sanırsan arxadan Şah dağı durmuş,
Üzeyir əminin gözü burdadır.
Anan Azərbaycan torpağı durmuş,
Baban Koroğlunun özü burdadır.
Bir elin ürəyi vurur sinəndə,
Axır damarından vətən selləri.
Pultun arxasında qalxıb-enən də
Sənin əllərindir, xalqın əlləri,
Salon aşıb-daşır, salon titrəyir,
Bax, belə fatehlik yaraşır bizə
Şekspir vətəni alqışlar deyir
Üzeyir nəfəsli musiqimizə...
Doğma musiqimin qaranquşusan
Geydiyin dirijor paltarında sən.
Hara sən aparsan, nəğmə daşısan,
Orda qanadlanır, ucalar Vətən.
Deyirlər Niyazi hər yanı gəzir,
Dilində doğmadır o, yadların da.
Demək, Azərbaycan dünyanı gəzir
Sənin o qaranquş qanadlarında.
Sən pulta qalxanda min-min ürəyə
Nəğmə də bir axır, arzular da bir.
Qəlbləri, əlləri birləşdirməyə
Əllərin ən gözəl vasitəçidir.
Sanki gözlərin də oxuyur sənin,
Musiqi süzülür barmaqlarından.

Nəğmədən yoğrulmuş ruhun, bədənin,
Sinən musiqiylə dolu bir ümman...
Deyirəm bir arzum, bir istəyim var:
Yığılsın bir yerə bütün ordular.
Toplar, topxanalar gəlsin o yerə,
Gəlsin "qan-qan" deyən "sülh" deyən kəslər.
Oğulsuz analar gəlsin o yerə,
Gəlsin gözü korlar, əli şikəstlər.
Matəm paltarında gəlinlər gəlsin,
Qara kağızları gələnlər gəlsin.
Nəhəng bir orkestr gəlsin ortaya,
Xəbərdar etsinlər o gün hamını:
Uyusun dənizlər, sussun daş, qaya.
Niyazi çalacaq "Rast" muğamını.
Qaldır çubuğunu, çağla o ki, var,
Min ilin şimşəyi bir gündə çaxsın.
Sinəsi yaralı bütün ağaclar
Çubuğun ucunda havaya qalxsın.
"Rast" tufan qoparsın, dili lalların
Vicdanı dil açıb bu səsi anlar.
Yüz-yüz döyüş görən generalların
Axsın gözlərindən tökdüyü qanlar.
"Rast" üsyan qoparsın, nurlu əməllər
Çalsın ölüm marşı bəd əməllərə.
Ürəyin hökmüylə boşalsın əllər,
Töksün silahları ordular yerə.
Bəlkə qan tökən də dünyayla birgə
Boğub boğazını qəhər, ağlasın.
Oğulsuz qoyduğu anayla birgə
Ah-nalə qoparıb əsgər ağlasın.
Dönsün yer kürəsi toya, mağara
Ürək musiqiylə qoy təslim olsun.
Tüfəng qundaqları çalsın nağara,
Raketlər əriyib sarı sim olsun...
Bu, şirin arzudur, xəyaldır ancaq,
Bəlkə dediyimtək bir gün olacaq.

Böyük salonları titrətmək üçün,
Milyon ürəkləri fəth etmək üçün
Nə ordu lazımdır, nə top, nə tüfəng.
Axı, insan hara, ölüm, qan, hara?
Məhəbbət yaymaqçün bütün xalqlara
Xalqa sənin kimi oğullar gərək.

ƏSGƏR OĞLUMA

Üzündən öpməyə çatmazdı boyum,
Bir az da qalxardım pənxəmin üstə.
Razıydım başımı çiyninə qoyum,
Sən palıd cüssəli, mən boyu bəstə.

Ay dəcəl, şaqqanaq çəkib gülərdin,
Mən sənə sarmaşıb əl-qol atanda.
Öpüşü atana günah bilərdin,
Doyunca öpərdim səni yatanda.

Deyərdin: – Kişilər hər gün öpüşməz,
Üstümə güldürmə bütün məhləni.
Üz-gözüm qızarar, bu, yaxşı düşməz.
Əsgər gedən günü öpərsən məni.

Təki, ömrüm-günüm, sən deyən ola,
O günü görməkçin günləri saydım.
Sən qatara minib düşəndə yola,
Əfsus ki, mən cərrah otağındaydım.

İndi uzaqdasan, başımın tacı,
Cahangir deyəndə səsim titrəyir.
Sən silah götürdün, mən əl ağacı,
Oğul ayaq döyür, ata büdrəyir...

Bu gün şəklin qondu əllərimizə,
Belə uçurdardın göyərçinləri.

Bir zərfin içində qəşəng, təptəzə
Əsgər paltarında girdin içəri.

Atdım ağacımı yerə sevincdən,
Körpə cəldliyilə atılıb-düşdüm.
Görəndə ulduzlu papağını mən,
Tale ulduzumla bir də görüşdüm.

Yayılıb otağa gülüş, zarafat,
Çəkilib ayağı azarın, dərdin.
Şəklin hamımıza verib qol-qanad,
Ay oğul, sən mənə həyat göndərdin.

Qardaşın öyünür öz qardaşıyla,
Qapqara gözləri nurdan durudur.
Anan da isladıb sevinc yaşıyla,
İsti nəfəsiylə şəkli qurudur.

Nə gözəl yaraşır bu geyim sənə.
Çiynində paqonlar çıraq tək yanır.
Sənə tapşırılıb taleyim, sənə,
Sanıram arxamda bir dağ dayanır.

Üzündə müqəddəs Vətən qüruru,
Alnında bir kişi ləyaqəti var.
Qara gözlərində gözümün nuru,
Bir uşaqlığın təravəti var.

Ondan da tezliklə gen düşəcəksən,
Üzünə qonacaq sərtlik, mətanət.
Orda cavanlıqla görüşəcəksən,
Evdə uşaqlığın qalır əmanət.

Şəklini əlimdən yerə qoymuram,
Qoy sənə məktubla çatsın bu xəbər.
Yüz dəfə, min dəfə öpüb doymuram,
Ay dəcəl, adamı belə öpərlər.

Ürəyi Vətənçün döyünən oğlum,
Atanın köksündə döyünməyə gəl.
Əsgər paltarını geyinən oğlum,
Bəylik paltarını geyinməyə gəl.

Gərək qamətini bir az əyəsən,
O vaxt əyilməyin yerinə düşər.
Gün o gün olsun ki, özün deyəsən:
Ay ata, kişilər belə öpüşər.

ƏSGƏR ANASI...

Ay əsgər anası, gözlərin aydın!
Şad xəbər qapını döyməyə gəlib.
Əsgər paltarında gedən övladın
Bəylik paltarını geyməyə gəlib.

Bir yüngül qədəmli gəlin soraqla,
Qaynana olmalı çağındır sənin.
O, top-tüfənglə yox, çəkic-oraqla
Ucaltsın başını ana Vətənin.

Baxıb övladına sən də cavanlaş,
Başına yığılsın nəvə-nəticə.
Nə qəlbində həsrət, nə gözündə yaş,
Sakitcə arxayın yuxla hər gecə.

Ömrünə, gününə şirinlik qatıb,
Yüz sevinc, yüz şadlıq borcu var hələ.
Əsgəri borcunu verib, qayıdıb,
Qabaqda övladlıq borcu var hələ.

Vüqarı dağlarla olsun tən onun,
Buğda xaralları qalansın çin-çin.
Barıt iyi gələn əlindən onun
Bu gün çörək ətri, gül iyi gəlsin.

Bağrı tuş olmasın qəfil mərmiyə,
Dağların bağrını mərmiylə yarsın.
Səngərlər qazmasın qorunum deyə,
O, qazıb torpağı mədən axtarsın.

Avna ürəyində gəzir xoş dilək;
"Hərb deyib, döşünə döyən olmasın.
Sonuncu əsgər də gəlsin balantək,
Əsgər anasıyam devən olmasın.

ƏRİK AĞACI

Atamın əziz xatirəsinə

Hər cür ağac vardı bizim həyətdə,
Bu ağac bir bağın yaraşığıydı.
Tayı bərabəri yox idi kənddə,
Əriklər elə bil ay işığıydı.

Camaat gələrdi tamaşasına,
Ondan ətək-ətək meyvə dərərdi.
Atam ən istəkli dost-aşnasına
Yayda səbət-səbət pay göndərərdi.

Yenə qurtarmazdı bəhəri, barı,
Əziz xəlif idi səxavətiylə.
Yerdə adamları, göydə quşları
Hər yay doydurardu öz nemətiylə.

Kölgəsi tutmuşdu evi, eyvanı.
Yamyaşıl pərdəydi pəncərələrə.
Barlı ağacların mahir bağbanı
Atamın əliylə sancılmış yerə.

Deyərdi: – Kamına çatıb, qovuşub
Ömrüm bu əriyin ilk nübarıyla.
Cavanlıq günlərim bir-bir sovuşub
Hər payız tökülən yarpaqlarıyla.

Onun qulluğunda durub il boyu,
Nazını çəkmişəm öz övladım tək.
Əzəldən əhdim var, –
Oğlumun toyu
Bu ağac altında çalınsın gərək.

Başına dolanıb əlində qayçı,
Kəsib seyrəldərdi ilk bahar çağı.
Bir qız qamətiydi, bir gəlin saçı
Onun sığal görən qolu, budağı.

Bir beşik asmışdı iri şaxından.
(O günlər mənimçün qədimdən qədim).
Həmin o beşikdə yatdım bir zaman,
Ana laylasını orda dinlədim.

Yastığım, yorğanım yaşıl yarpaqlar,
Əriyin xoş ətri yuxu dərmanım
Üstümə sallandı yumru çıraqlar,
Qorxdum ki, onları qoparıb yanım.

Özləri beşiyə dolardı bir-bir,
Yayda süd yerinə ərik yeyərdim.
Yuxuda görərdim ağac yeriyir,
Ulduzlar başıma qonur deyərdim.

Mən də yorğanıma bürünüb bərk-bərk,
Yellənib üzərdim nur dənizində.
Bəzən yaddan çıxıb gecə sübhədək
Asılıb qalardım göyün üzündə.

Duranda bəxtimə ərik çıxardı,
Şirin həqiqətə dönərdi xəyal.
Quşlar da payıma şərik çıxardı.
Sapsarı əriklər olardı xal-xal...

Yuxu da, nağıl da köçdü beşikdən,
Dəyişdi gözümdə bu həyət-baca.
Bir gün körpəliyim düşdü beşikdən,
Dəcəl uşaqlığım çıxdı ağaca.

Quşlar pərən-pərən oldu səsimdən,
Hər budaq əlimdə göy qanad kimi.
Dırmaşıb ağacın təpəsinə mən,
Sürmək istəyirdim onu at kimi.

O ki, var dartırdım irəli, geri,
Aşırdım ağacdan kəlləmayallaq.
Hər yarpaq üzümdə bir cızıq yeri,
Hər budaq çiynimə dəyən bir şallaq.

Anam tez yoxlayıb əl-ayağımı,
Şükür eləyərdi sağ-salamatam.
Gözümün işığı, dağıt bağımı,
Dəymə bu ağaca, deyərdi atam.

Bir yarpaq ya soldu, ya büzüşdümü,
Ağrısı canına düşürdü onun.
Ağacın bir qolu sınıb düşdümü,
Qolları yanına düşürdü onun...

Bu yay bəhərliydi həmişəkitək,
Meyvə gətirmişdi, o pıtraq kimi.
Birdən yağdı yağış, gurladı külək,
Əsdi nəhəng ağac bir yarpaq kimi.

Belə əsməmişdi yaranışından,
Təbiət kökündən burdu ağacı.
Külək sinəsindən, yağış başından
Döydü, silləyib vurdu ağacı.

Şaxlar bir-birinə dəydi şaqqaşaq,
Dolu budaqların azaldı yükü.
Ərik ölməmişdi, hələ sağdı, sağ,
Onu saxlayırdı rişəsi, kökü.

Mən də titrəyirdim küncə qısılıb,
Ay aman, gözümə nələr görünür:
Anamın əlləri göydən asılıb,
Yaralı budaqlar yerlə sürünür.

Hərdən eşidirdim ah-nalәsini
Göylə danışırdı o, aram-aram.
"Әladan hifz elə, bol meyvәsini
Dәrib, qapı-qapı nәzir paylarım".

Nə külək dayandı, nə yağış kәsdi,
Yay kimi dartınıb gərildi yerə.
O, elə titrədi, o, elə әsdi,
Birdən gurultuyla sərildi yerə.

Sanki yaraşığı getdi hər yanın,
Yaşıl paltarını hər yer soyundu
Üstünə budaqlar qonan eyvanın
Üstünə yetimlik, qəriblik qondu.

Atamın qəddi də əyildi yaman,
Dedim fəryad səsi göyləri dələr.
Elə yapışdı ki, öz yaxasından,
Ovcunun içində qaldı düymələr.

Üzünün kədəri, gözünün nəmi
Ah, nələr söylədi,
Deyim sizə mən:
"Uzaq gəncliyimin yaxın həmdəmi
Xatirə ağacım getdi əlimdən".

Dedi: – Dolanmayın yan-yörəsinə,
Qoyun öz-özünə quruyub yansın.
Əliniz dəyməsin bir meyvəsinə,
Toyuqlar, sərçələr yeyib dolansın.

Mən də şərik idim o qəmə, dərdə,
Torpağa çökmüşdü ağac köhlənim.
Beşik üzüqoylu qalmışdı yerdə,
Yıxılan körpəlik çağımdı mənim.

SƏN NİYƏ DOĞULMUSAN?

Dedim? – Başım ağrayır,
Dedi: – Əlacı məndə,
Gedər azar-bezarın
Xəzərin sahilində.
Hardan taparsan, ay dost?
Mən də bilməyib dedim:
Yaxşı ki, varsan, ay dost.
Gəldik sahil bağına
Təmiz hava udmağa,
Dünyanın qayğısını,
Dərdini unutmağa.
Yanımızdan qol-qola
İki cavan ötüşdü.
Mən baxdım, öz gəncliyim
Birdən yadıma düşdü.
Oğlan öz pəncəyini
Qızın çiyninə saldı.
Bir anda başımdakı
Ağrılar da azaldı.
Şeir axdı qəlbimə
Pıçıldadıqca onlar.
Yanımdakı dilləndi:
– Çox pozulub cavanlar
Abır-həya qalmayıb,
Sən işə bax, dərdə bax.
Gör qaranlıq düşəndə
Nə həngamə qopacaq?
Dedim: – Nədən bilirsən,
Ayıb deyilmi sənə?
O qızın barmağında
Üzüyü bir görsənə.
Dedi: – Əşi nə üzük,
Nələr fikrinə düşür.
İndi qızların çoxu
Birinə nişanlanır,
O biriylə görüşür.

Zorla boğdum hirsimi,
Başımda ağrı gəzdi.
Dedim: "Sevsəydi əgər,
Bu sözləri deməzdi".
Xəzərin sinəsində
Bir-bir yandı çıraqlar.
Buruqların başında
Saçaqlandı çıraqlar.
Dedim: – Cəsur neftçilər
Gör nə aləm yaradır.
Dedi: – Eh, yazıqların
Günü neftdən qaradır.
Çörək dərdi olmasa
Kim girər bu ümmana?
Elə böhtan dedi ki,
Mən qaldım yana-yana.
Hardan tuş oldu mənə
Bu fikri qəlbi qara?
Dolaşdıqca sahili,
Zəhər tökürdü dili.
O, yerə göz dikmişdi,
Mən isə insanlara.
Bağda bir dəstə qoca
Nəsə deyib gülüşdü.
Sanki onun başına
Göydən ildırım düşdü:
– Bu da bizim qocalar. –
Nə dərd, nə qəm bilirlər.
Gora əsir başları,
Arsız-arsız gülürlər.
Aləm od tutub yanır,
Hərə öz kefindədir.
Balam, bu camaatın
Bilmirəm fikri nədir?..
Daha dözə bilmədim,
Dedim: – Rədd ol yanımdan.
Yoxsa xilas olmazsan

Qəzəb, kin ümmanından.
Sən niyə doğulmusan,
Həyatda nə gəzirsən?
Sən işıqlar içində
Qara kölgə gəzirsən.
Birqəmli üz görəndə
Üzün gülür əlüstü.
Kim ki, tənha yaşadı,
Kim ki bəxtindən küsdü,
Eşidib kam alırsan.
Sən qüssədən mükafat,
Qəmdən ənam alırsan.
Ey sevincin düşməni,
Boğdu nəfəsin məni.
O görüşən cavanlar,
Gülən qocalar hanı?
Onlar mənim ağrımın
Təskinliyi, dərmanı
Rədd ol, çəkil gözümdən.
Dənizi, insanları
Qucmaq istəyirəm mən.

1969

GƏLİN AÇIQ DANIŞAQ...

Bu təfəkkür əsrində
Şair olmaq çətindir
Qafiyə düzmək asan.
Ən ağıllı bir yol var:
Şerin acı olsun,
Heç şeir yazmayasan.
Vay o gündən bu aclıq
Şöhrət ilə birləşə.
Şairlər bəhsə girib,
Oxucu şairləşə...

Məni fikir götürür,
Dərd alır gündən-günə.
Şeir göbələk kimi
Çoxalır gündən-günə.
Şeir xurcunla gəlir.
Şeir zənbillə gəlir.
Redaktorun yanına
Hərə bil dillə gəlir:
"Dərc eləyin şerimi,
İncilər yaratmışam.
Şairliyə qurşanıb
Öz peşəmi atmışam.
And içmişəm bir yolluq
Öz yolumdan azmayım.
Şair xalqın oğluyam,
Necə şeir yazmayım?"
– Nə yazmısan, ay oğul?
– "Mənim nağıllı dünyam",
"Nənəmin xatirəsi".
"Çinar qamətli babam",
"Anamın layla səsi".
"Atamın səyahəti",
"Bibimin yuxuları",
"Mənim ilk məhəbbətim",
"Ürəyimin qübarı".
– Sonra nədən yazmısan?
Bulaqdan da yazmışam,
Gözü yaşlı bulaqdan.
Beş dastan bağlamışam
Başı dumanlı dağdan.
– Bəs bugünün insanı?
Onun sevinci, qəmi?
Elin qaynar həyatı,
Düşüncələr aləmi?
Qurub yaradan əllər?
– Buna vaxtım çatmayıb.

– Ər qeyrətli gözəllər?
– Yox döşümə yatmayıb.
– "Bulaq" şeir yazınca
Süd içmisən beş litr.
Barı inək sağanın
Adını şerə gətir.
Sarı buğda çörəyi
Qabağında buğlanır.
Sənə bolluq gətirən
Çöldə təndirtək yanır.
Bir gün çörək yeməsən
Dağıdarsan dünyanı.
Bəs o çörəyə layiq
"Bərəkət" şerin hanı?
Özün bu həyatdasan.
Şerin həyatdan uzaq.
Nə xatirəbazlıqdır?
Gəlin bu gündən yazaq. –
Deiyr yazıq redaktor,
Çənə döyür bayaqdan.
Şairlər qoşun-qoşun
Girib-çıxır otaqdan.
Döşəyirlər o ki, var,
Bu necə haqq-hesabdır?
Zərif şeri dinləmək
Ən dəhşətli əzabdır.
Hərənin öz "məktəbi",
Öz yolu var, öz dəbi.
Şerindən mənalıdır
Çoxusunun ləqəbi.
Yuxarıdan zəng vurur
Adlı-sanlı bir müdir:
– Redaktor, gözün aydın.
Oğlum şairlik edir.
Yazır gecəbəgündüz,
Təbə gəlibdir, təbə.

Deyir bəsdir oxudum,
Bəsdir getdim məktəbə.
Füzulinin, Sabirin
Ərzi böyüyür adı.
Nə diplomu olubdur,
Nə də ali savadı.
Əlqərəz, ay redaktor,
Bir əncam çək bu işə
Oğlum gərək bu gündən
Mətbuatdan girişə,
Arvad-yəni anası
Məni seçibdir vəkil.
Üstgünə göndərirəm
Beş poema, bir şəkil.
Bəlkə yenə göndərim?
Arvad deyir ki, azdır.
Bir görkəmli şairə
"Uğurlu yol" da yazdır.
Var getsin bu nömrədə,
Deyək bizi tanıdır.
Axı sabah oğlumun
Şirnisi, nişanıdır,
Məbadə ləngidəsən
Çap işini, məbada.
Bəri başdan anası
Səni seçib tamada...
Yağır şeir yağmuru,
Əsl şairlər çaşıb,
Qardaş, mağazalarda
Kağız, qələm qıtlaşıb,
Yağır şeir yağmuru,
Sabir qısılıb baxır.
Elə bil ki, üstünə
Şərimizdən su axır.
Niyə belədir görən?
Bu nə işdir, bu nə sirr?

Bəlkə də, ay şairlər,
Özümüzük müqəssir.
Səsinizi duyuram
Ürəyimin səsində.
Gəlin, açıq danışaq
Vicdan məhkəməsində.
İnciməyin, deməyin
Nədir bu haray-həşir.
Bir üreksiz yazanda
Oxucu şairləşir.
Təbi iştaha gəlib,
Deyir ki, mən də varam.
Bunu mən də deyirəm,
Bunu mən də yazıram.
Deyəsən ilk alqışdan
Gözümüz xumarlanır.
Başımız tumarlanır,
Şərimiz hamarlanır.
Elə ki, sinəmizi
Bərbəzəyə tuturuq,
O sinənin altında
Yananı unuduruq.
Beş ürəyi gəzməmiş
Beş sətirlik şərimiz.
Beş otaq istəyirik,
Yeri maraqlı olsun.
Pəncərəsi qonşunun
Üzünə bağlı olsun.
Sanki vətən dayədir,
Biz ərköyün bir uşaq.
Xalqdan çox şey alırıq,
Verdiyimiz nədir bəs?
Bir bunu da soruşaq,
Bir soruşaq bu şerin
Dünya səsi hardadır?
Bir soruşan bu şerin
Öz Qarası hardadır?

Bir soruşaq hardadır
Bu günlərin dastanı?
Şerin Məkkəsi olub
Rəsulun Dağıstanı,
Bir soruşaq hardadır?
Bizim öz içimizdə.
Var şeir incimiz də,
Gözəl səs incimiz də.
Sənətin iftixarı
Qocamız, gəncimiz də.
Şair var ki, dağ aşar,
Təpəyə də qonmayıb.
Tərçümeyi – halı da
Tərcümə olunmayıb.
Ölkəni şəhər-şəhər
Gəzib-dolaşır səsi.
Bakı-Xaçmaz qədərdir
Şerinin vəsiqəsi.
Niyə belədir görən,
Bu nə işdir, bu nə sirr?
Deyəsən, ay şairlər,
Özümüzük müqəssir.
Hamımızın fikrində
İlk cərgədir, ilk sıra.
Dahilik ştatını
Tez alırıq hasara.
Gözətçi də qoyuruq,
Əmr edirik: – Bura bax.
Kim gəlsə, vur başından,
Bu yer mənimdir ancaq.
Soruşmuruq nə üçün
Mənim kimi başqası
Öz haqqını almasın?
Soruşmuruq nə üçün
Dünyanın mərkəzində
Rustaveliylə birgə
Nizami ucalmasın?

Moskvamı günahkar?
Yox, özümüzük ancaq.
Özü ucalmayanı
Heç kəs ucaltmayacaq.
Buna haqqımız da var,
Buna yerimiz də var,
Qızıla tutulmalı
Şairlərimiz də var.
Nəyimiz çatmır axı?
Bir soruşaq, nəyimiz?
Vətəndaş ürəyimiz,
Təəssübkeş ürəyimiz,
Qayğıkeş ürəyimiz.
Deyəsən, ay şairlər,
Sözlərim acı oldu?
Bəlkə mənim bu şerim
Dərdin əlacı oldu?
Şeir şöhrət yaranıb
Ana torpağımıza.
Min ildir yer üzünə
Səpələnir ulduztək.
Ay şairlər, papağı
Qoyaq qabağımıza,
Bugünkü şerimizin
Sabahını düşünək.

1966

İLLƏR BOYU

İllər keçir, ürək deyir:
Gecə-gündüz yarat, şair.
Ən qiymətli girov kimi
Əmanətdir həyat, şair.
Boyun əymə şan-şöhrətə,
Ürəklərdə boy at, şair.

Nəyə lazım, kimə gərək
Boyat nəğmə, boyat şair?
Könüllərdə ülvi, təzə,
Pak duyğular oyat şair.
Yer üzünə haqq-ədalət
Toxumu səp illər boyu.
Vicdanlara insaf-mürvət
Toxumu səp illər boyu...

Bu dünyada ömür sürüb,
Günlər gördük şirin-acı,
Hər ürəyin öz dərdi var,
Hər dərdin də bir əlacı.
Çörək acı tapılmasın,
Qoy çoxalsın şerin acı,
Qızıl taclar qan çanağı,
Şair xalqın şöhrət tacı.
Qeyrətlilər ona qardaş,
İsmətlilər ana-bacı.
O, gözsüzə mənəvi nur,
Əlsizlərə əl ağacı.
El şairin, şair elin
Nəfəsidir illər boyu.
İnsanlığın ilk məhəbbət
Nəğməsidir illər boyu...

Günəş göydə yanır hər gün,
Şair yerdə alovlanır.
Günəş batır, doğur yenə,
Kül olunca şair yanır.
Onun tonqal sinəsindən
Məşəl kimi söz boylanır.
Bir masanın arxasında
Bir dünyanı görüb anır.
Bir ayağa daş dəyəndə
O, min yerdən yaralanır.
Bir körpənin gülüşündən
Ürəyində toy yaranır,

O, hər yerə öz şəhəri,
Kəndi sayır illər boyu.
Hər ürəyin ürəyinin
Bəndi sayır illər boyu...

Düymələr var yer üzünün
Yaxasında düzüm-düzüm.
Külə dönmüş Kərəm kimi
Qorxusu var ömrümüzün.
Orda gəzən barmaqları
Toxunmamış kəsim, üzüm
Dünyamızın yaxasına
Çiçək taxım, şeir düzüm.
Əgər vicdan zəlzələsi
Qoparmasa şair sözüm,
Dünyanı yox, ürəkləri
Yandırmasa odum-közüm,
Mən hamının əvəzinə
Özüm yanım, gərək özüm.
Mən hamının ağrısına
Əzabına filtək dözüm,
Bu meydanda söz döyüşsün,
Söz əlləşsin illər boyu.
Qoca dünya şeir kimi
Gözəlləşsin illər boyu.

UCUZLAŞMIŞ KİTABLAR...

Bu dükan təklənib günahkar kimi,
Çıxıb dükanların sıx cərgəsindən
Yel vurur, cilidsiz kitablar kimi
Qapısı laxlayır çərçivəsindən.

Burda satıcı da qaşqabaqlıdır,
Burda alıcılar seyrək görünür.
Yazıq kitabların dili bağlıdır,
Onları dindirən tək-tək görünür.

Burda kitab var ki, bir küncə düşüb,
Dərdinə xəlvəti o yanar bəlkə?
Bir kitab görürəm yaman büzüşüb,
Yazanın yerinə utanır bəlkə.

Məst olub bir tərif qonaqlığında,
Kef çəkir müəllif, dərd çəkən odur.
Alınmaz kitablar öz sağlığında
Naşı sənətkarın nekroloqudur.

Kitablar dərdini kimə söyləsin?
Dükandan-dükana gəlib çaşıblar.
Ən yüksək qonorar həzm edən şəxsin
Burda kitabları ucuzlaşıbdır....

Əsnəyir satıcı – yorğun bir qarı,
Qapının səsinə diksinir hərdən.
Silib, sığallayır o, kitabları,
Cilidlər od alır soyuq əllərdən.

"Aha aparırlar, gedirik deyən,
Bizi axtaran var, bizi alan var".
Onları tərpətmir heç kəs yerindən
Aldanır, büzüşüb yazıq kitablar.

Büzüşüb üstündə famili, Adı,
Yazanın olsa da boyu tir kimi.
Bir evdə özünə məskən tapmadı
Kitablar pasportsuz mühacir kimi.

Qarı məni görcək gəlir yaxına,
Yəqin düşünür ki, nəsə alıram
"Ay oğul, zarafat gəlir baxana,
Kitablar köhnəlir, mən qocalıram.

Bir qutu kibrit də düşsə qiymətdən
Böyüklü-kiçikli hamı sevinər.
Kitab ucuzlaşsa düşər hörmətdən,
Eh, onu satmaq da, hünərdir-hünər.

Ay oğul, dövlətin, xalqın pulları
Harda qazanılır, gör itir harda.
İnan ki, Allahın siçovulları
Kiflənmiş kitabı yemir anbarda.

Bəlkə oxucudur buna müqəssir?
Nə deyim, özüm də çaşıb qalmışam.
Hər kitab daş olub çiynimdə gəzir,
Varaqlar soluxub, mən saralmışam.

O cildi bahalar, özü ucuzlar,,
Satılmır, məni də boğur bu qəhər.
Burda işləmədi cavanca qızlar,
Məni göndərdilər zorla, birtəhər.

Burda kitab var ki, sığallasan da,
İçindən çürüyür o, yavaş-yavaş.
Deyirəm bəzisi kitab yazanda
Mənim də halımı düşünəydi kaş..."

Elə bil başıma fırlanır aləm,
Günahkar bilmirəm buna özgəni.
Kitablar içində səs eşidirəm,
Gələcək kitabım çağırır məni.

Varaqlar çırpınır: Yaxın gəl, dinlə.
Ürəksiz, ilhamsız az qaralt bizi.
Gördün isinmirik hərarətinlə,
Heç kimə göstərmə, oda at bizi.

Yandır öz əlinlə, nə qədər vaxtdır,
Gözdən uzaq olaq, əllərdən iraq.
Yoxsa ki, özgəsi yandıracaqdır,
Sənə də üstəlik tənə vuracaq.

Taleyin nə olar düşsə o günə?
Kitaba hər ucuz söz niyə qonsun?
Sənin ki, çökməyib torpaq üstünə,
Bizim üstümüzə toz niyə qonsun?

Dükandan çıxıram səssiz, ahəstə,
Fikrimdə öz qayğım, öz acılarım...
Deyirəm: ay mənim oxucularım,
Gəlməyin, gəlməyin qəbrimin üstə.

Bir gün ucuzlaşsa şeir kitabım,
Gəlin qəmli-qəmli siz bu dükana.
Gəlin, o kitabı axtarın, tapın,
Mənim qəbrim bilib yas tutun ona.

VAQİFİN MƏQBƏRƏSİ ÖNÜNDƏ

Zəmanənin hər üzünü görə-görə,
"Görmədim" ilə sona çatdı söz vuruşun.
Bircə dəfə məğrur başın endi yerə
Qılıncıyla bir əlləri qurumuşun.
Nöqtə qoyduq qan qoxulu o illərə
Qüdrətiylə bu dövranın, quruluşun.
Xalqın kimi sən də çıxdın al səhərə,
Halal xoşun olsun, Vaqif, halal xoşun.

Qismətə bax, taleyə bax, vəzirdən sən.
Bəxtəvərsən, qanad açıb şahlıq quşun,
Günəş kimi hər baxışda, nəzərdəsən,
İnanmazsan bir özünə gəlsə huşun.
Sən bizimlə iyirminci əsirdəsən,
Mübarəkdir bu ikinci doğuluşun.
Vəzir nədir, şaha layiq qəsrdəsən,
Halalxoşun olsun, Vaqif, halalxoşun.

Bu cah-cəlal gələrdimi gümanına?
Dağ titrəyir sədasından gur alqışın.
Cıdır düzü dönüb şeir meydanına,
Şair gəlib hüzuruna qoşun-qoşun.
Qiymət verib qocasına, cavanına,
Ağsaqqallı hakimi ol bu yarışın.
Qol-qanadsan neçə şeir tərlanına,
Halal xoşun olsun, Vaqif, halal xoşun.

Xalq yaşadır bu müqəddəs əməlini,
Haqq yolunda bilir nələr çəkib başın.
Görmədiyin o günlərin sıx əlini,
Bir gör necə cavanlaşıb ömrün, yaşın.
Ana vətən ucaldır tunc heykəlini
Ürəklərdə heykəlləşən vətəndaşın.
Şerin halal südü saydın öz dilini,
Şerimizin bəzəyidir hər naxışın.
Sən ucaltdın Azərbaycan gözəlini,
Halal xoşun olsun, Vaqif, halal xoşun.

Bu təntənə sığışmayır yüz varaqa.
İnsan kimi üzü gülür, dağın-daşın.
Günəş nurdan çələng hörüb bu torpağa,
Çəmən-çəmən çiçəyi var hər qarışın.
Məclis sənin, söz sənindir, gəl qabağa,
Arzusudur bu hər qəlbin, hər baxışın.
De ki, şair nəvələrim, bu növrağa,
Mənim kimi qoşma deyin, şeir qoşun.
Başdan-başa Vətən dönsün çılçırağa,
Ömrü keçsin sədaqətlə yazın, qışın.
Səcdə qılın bir məsləkə, bir bayrağa,
Bir amalla, bir istəklə siz qovuşun.
Belə yurda ürək qurban, can sadağa,
Aynasıdır azadlığın, qurtuluşun,
Belə yurda ürək qurban, can sadağa,
Aynasıdır azadlığın, qurtuluşun.
Öz gözüylə baxsaydı bu təmtərağa
Bulaq kimi süzülərdi sevinc yaşın.
Mavzoleyin işıq saçır Qarabağa,
Halal xoşun olsun, Vaqif, halal xoşun.

BƏLKƏ

Döşdə sürü ağarır,
Qucaqlaşır dağ, aran.
Elə bil göy dənizdə
Ləpələrdir ağaran.

Dağ başına yaxşı bax,
Neçə əsrin qarıdır,
Yazılmamış dəftərin
Dümağ varaqlarıdır.
Qaya üstə qatılan
Yuvasını seyr elə,
Uçuşunu salamla
Qanadlı bir şeirlə
Ehmal-ehmal yeri ki,
Əzilməsin ləpələr
Onsuz da az ömrü var.
Üzülməsin ləpələr.
Sısqa bulaq görəndə,
Ayaq basma gözünə.
Bəlkə yerlə əlləşib,
Yollar gəzir özünə?
Bəlkə üzə çıxdı o,
Öz yolu. Səsi oldu?
Bəlkə sabah dağların
Ən gur çeşməsi oldu?..

QULAQ ASIN, ÖVLADLARIM

Hanı atılıb-düşən,
Hay-küy salan çağınız?
Yuxusuz gözlərimə
Heyrətlə baxmağınız?
Hanı şeirlərimdən
Quş düzəldib uçurdan,
İlhamımı küsdürüb,
Düşüncəmi qaçırdan
O nadinc əlləriniz?
Otaq həmin otaqdır,
Böyüməyib yeriniz.
Birdən-birə boy atan,
Böyüyən siz oldunuz.

Özüm kimi sizi də
Düşüncəli etmişəm.
Özüm kimi sizi də
Bir az "dəli" etmişəm.
İşıqda yatmağı da
Öyrətmişəm sizə mən.
Evə kitab gətirdim
Oyuncaq əvəzinə.
Bəzən düşüb uşaq tək
Düşüncəmin izinə,
Bir otağın içində
Sizi unutmuşam da,
Uzaq ərəb qızının
Dərdini gəzdirmişəm
Xəyalımda, huşumda.
Şerim alovlananda
Fələstinli yetimin
Fəryad qopdu səsindən, –
Üstünüz açıq qalıb,
Xəbər tutmamışam mən.
Xəbər tutmamışam ki,
Ən ilhamlı anımda
Quzu kimi mülayim
Üç oğlum var yanımda.
– Atamız şeir yazır,
Zakir, gəl oynamayaq.
Atamız şeir yazır,
Qapıdan boylanmayaq.
– Cavanşir, döy divarı,
Çağırmasın qonşu qız.
– Cahangir, qoy yarımçıq
Qalsın bu nağılımız.
– Söndür televizoru,
Baxmayaq multfilmə də.
– Atamız şeir yazır,
Dinməyək bir kəlmə də.
– Görən niyə gəzişir,
Nə deyir yana-yana?

Bəlkə yadından çıxıb,
Kömək elə, ay ana.
Bəlkə bir az dincəlsin,
Yorğun gəlib səhərdən?
Yoxsa bir söz nədir ki,
Tapa bilmir səhərdən?
Elə ananızın da
Gəncliyi belə gedir.
Atanız şeir yazır,
Toy nədir, gəzmək nədir?
Atanız şeir yazır,
Mən oduna qalanım.
Gərək onun başına
Dolandıqca dolanım.
Pərvanə yox,
Sübhəcən
Ümid, inam oldu o.
Bəzən unudub sizi,
Mənim anam oldu o.
Şairə qulluq etmək
Söz deməkdən çətindir.
Şair arvadı olmaq
Sizin tək yüz körpəni
Bəsləməkdən çətindir...
Bu dünyada hər şeyi
Qurdan verdiniz mənə.
Balalarım, mən sizə
Nə vermişəm, axı nə?
Görüşlərdə aldığım
Təzə gül dəstəsimi?
Şəklim çıxan qəzetə
Qürurla baxa-baxa
Gələn şirin yuxunuz.
Bir tənqidçi əminin
Tikanlı sözlərinə –
Düyülən yumruğunuz.

Bir dostun xoş sözünü,
Şirin ahənglərini,
Sizi yuxusuz qoyan
Telefon zənglərini, –
Desəm budur verdiyim,
Düz olmaz sözüm, andım.
Bu şöhrəti ən əvvəl
Mən özümçün qazandım.
Bəs nə vermişəm sizə
Üç oğul atası tək?
Desəm ikicə otaq,
Desəm bir qarın çörək, –
Gülünc olar sözlərim.
Sizə əzabdan özgə
Nə verdim əzizlərim?
Nə yazdım ki, söz açım
Cilid-cilid kitabın
Sizə gəlhagəlindən?
Atalıq borcumu da,
Atalıq eşqimi də
Şeir aldı əlimdən.
Məndən sonra ömrümü
Təzədən varaqlayın.
Ata kimi günahım
Varsa,
Gizli saxlayın.
Gizlədin filan günü
Soyuq olmağımı da.
Əsəbi günlərimi,
Ən qəmli çağımı da.
Nimdaş paltarlarınızdan
Söz açmayın heç kəsə.
"Yeməyiniz bol idi", –
Deyin verin səs-səsə.
Məndən sonra Vətəni
Oymaq-oymaq gəzsəniz,

Əgər bir şair kimi
Olmasa adım, yerim,
Gizlədə bilməsəniz.
Balalarım, mən sizə
Onda nə cavab verim?
Soruşanda nəçiydi
Atan?
Çaşıb, qalsanız,
Kimliyi bilinməsə,
Atasız övlad kimi
Sıxılıb alçalsanız,
Soruşanda – sağdırmı?
Sizə dərd olar bu da,
Demək bilinmir onun
Varlığı, yoxluğu da.
Soruşanda – qalıbmı
Özündən bir yadigar?
Atalıq öz yerində,
İnsan kimi nəyi var? –
Yarıyoldan qayıdıb,
Coşun,
Qəzəbdən coşun,
Gəlib qəbrimin üstə,
Üçünüz də soruşun.
Soruşun: – Niyə bizi
Gətirdin bu həyata?
Kaş ki, bir divar hörüb,
Yadda qalaydın, ata...
Balalarım, ömrümü
Kitab tək varaqlayın,
Ata kimi günahım
Olsa, gizli saxlayın.
Bu günahı həmişə
Yumaq asandır, asan.
Təki Vətən yanında
Üzüqara atanın,
Yarımçıq sənətkarın
Övladı olmayasan.

SƏTTAR BƏHLULZADƏNİN XATİRƏSİNƏ

O fırça barmaqlar büküldü birdən,
O mavi gözlərin işığı söndü.
Göylər də hönkürdü qara xəbərdən,
Təbiət Səttarsız yetim göründü.

Danışa bilmirəm dərddən, qubardan,
Köməyə çağırın coşan Xəzəri.
Sanki yellər əsdi, qopdu divardan
Sənət sərgisinin bir şah əsəri.

Bilirdi dünyadan bir gün köçəcək,
Yatacaq kəndinin bir bucağında.
Yazda köçmədi ki, solar gül-çiçək,
Köçdü təbiətin xəzan çağında...

Bakı yola salır rəssam oğlunu
Qıy çəkib ağlayan küləkləriylə.
Durnalar Səttarın nekroloqunu
Göylərə nəqş etdi lələkləriylə.

Bir duman yeridi Qızbənövşədən,
Vurdu xəzan yeli çiçəyi, gülü.
Sonuncu ceyran da çıxıb meşədən,
Yollara göz dikdi boynu bükülü.

Dağların zirvəsi hüznlü, həzin,
Şimşəklər ayrılıq nəğməsi çaldı.
Axdı göz yaşları qoca Kəpəzin,
Ahından Göy gölün rəngi qaraldı.

Bu xəbər Qoşqarın büküb dizini,
Dağlar mehribandır, dağlar səmimi.
Yamaclar Səttarın ayaq izini
Köksündə saxlayar təbərrik kimi.

Biri turac vurdu, kəklik ovladı,
Qırdı ağacları gur ocaq üçün.
Gəzdi bu sənətin Məcnun övladı,
Ana təbiəti sağaltmaq üçün.

Sənət tufanıydı o zərif bədən,
O zərif ürəkdən bir dağ hünəri.
Füzuli dünyaya gəlib təzədən,
Fırçayla nəqş etdi gözəllikləri.

Elə nəqş etdi ki, ürəyimizi
Həmişə vüsala, eşqə səsləyə.
Onun hər lövhəsi çağırdı bizi
İşığa, paklığa, müqəddəsliyə...

Sənət daimidir, ömür ötərgi,
Solar məzar üstə güllər, çiçəklər.
Əbədi muzeydir, əbədi sərgi
Səttar sənətini sevən ürəklər.

VURĞUN DEDİM...

Vurğun dedim, –
Qafqaz dağı
Ağ başını silkələr
Ehtiramla.
Vurğun dedim, –
Gözlərimdən
Yaş töküldü damla-damla.
Vurğun dedim, –
Obalarım,
Oymaqlarım yada düşdü.
Vurğun dedim, –
Durna gözlü
Bulaqlarım yada düşdü,
Vurğun dedim, –

Səsə gəldi
Odlar yurdu Azərbaycan.
Vurğun dedim, –
Ləngər vurdu
Göydə tərlan,
Boynun bükdü yerdə ceyran.
Vurğun dedim, –
Daş ürəkli
Qara torpaq inildədi.
– Hanı Vurğun?
– Məndə deyil,
Qəlblərdədir Vurğun, – dedi

1956

MEHDİ HÜSEYN KÜÇƏSİ

Bir küçə var –
Dünyanı
Gətirir evimizə.
Özü görünməsə də,
Ərzi göstərir bizə.
"Azərbaycan" himninin
Gur səsiylə oynayıb,
Səhər-səhər yaratmaq
Həvəsiylə oyanıb, –
Ekrandan, ya efirdən
Hər gün eşidirəm mən
Bu küçənin adını.
Mehdi Hüseyn küçəsi, –
Ən sevimli ünvan.
Mehdi Hüseyn küçəsi. –
Arzular dalğa-dalğa,
Məktublar ümman-ümman.
Hər zərfin üzərində
Adın yazılır sənin.

Sənətini, özünü
Varlığıtək sevənin
Evində eşidilir
Hər gün diktorun səsi:
Diqqət. Danışır Bakı, –
Ünvanımız belədir:
Mehdi Hüseyn küçəsi.
Ucalsaydı heykəlin, .
Tanınmazdı bu qədər.
Yazılsaydı adına
Xatirələr, nəğmələr, –
Tanınmazdı bu qədər.
Bu, ən gözəl abidə,
Bu ən gözəl xatirə.
Radionun dalğası
Yayıldıqca hər yerə,
Səhər-axşam eşidir
Şəhərlərin, kəndlərin,
Ölkələrin neçəsi,
Ünvanımız belədir:
Mehdi Hüseyn küçəsi.
Ellər dolaşır, ay dostlar,
Cilid-cilid əsərin.
Sərhədlər aşar, ay dostlar,
"Abşeron"un, "Səhər"in.
Bəlkə əsərin də var –
Ömrün kimi köçəsi.
Axı, harda tapılır
Xalis qızıl küçəsi?
Bir ümmanı qaraltmaz
Bir yağış gölməçəsi.
Ancaq sənin adını
Ekrandan, ya efirdən
Eşidəcək həmişə.
Nəsillərin övladı,
Nəvəsi, nəticəsi:
Diqqət. Danışır Bakı.

Diqqət. Göstərir Bakı.
Ünvanımız belədir:
Mehdi Hüseyn küçəsi.
Bu küçəyə can atdı
Neçə sənət sərçəsi.
Sən ucalan zirvəyə
Ucalmadı bircəsi.
Qoy bildirsin onlara
Bu şərimin gur səsi:
Mehdi Hüseyn yolu var,
Mehdi Hüseyn küçəsi...

1969

SƏMƏD VURĞUN GÖRÜŞDƏ

Keçən bir tarixi salıram yada,
Şirin xatirədir körpəliyimdən;
Şeir gecəsiydi Ağstafada,
İlk dəfə gəlirdim bu məclisə mən.
İstədim yer tutum hamıdan qabaq,
Qaldım ayaq üstə –
Eh, kim kimdən.
Şair görəcəkdim.
Səadətə bax.
İlahi, özü də kimi? –
Səmədi.
Sinəmdə şəklini əzizlədiyim,
Onunla keçirdi ən şirin yuxum.
Kiçik bir səhnəyə sığmaz deyirdim,
Arzuma sığmayan nəhəng boy-buxun...
Dəmiryol klubu, qarışıb aləm,
Hamı bu məclisdə olmaq istəyir.
Sanki on qatarlıq sərnişin bu dəm,
Köhnə bir vaqona dolmaq istəyir.
Çəliyə söykənib gələn bir qarı
Öz ilk görüşünə çıxıb deyəsən.

Çörəklə doyurmaq olar acları,
Bizdə şerin acı doymaz şeirdən.
Birdən səs yayılır:
– Gəldi qonaqlar.
Dedim divar uçar, tavan dağılar,
Sönər çıraqlar da alqış səsindən.
Depodan ucaldı bir salam fiti,
Balaca klubun dar səhnəsindən.
Qalxdı şeir dağı, söz səltənəti
Hələ cavanlıqdan gen düşməmişdi.
Hələ ciyərini mərəz yemirdi,
Sözlər ürəyindən işıq əmirdi.
Kürsü düzəltmişdik yol budkasından,
Bir lampa āsmışdıq tən ortasından, –
Qalxıb Səməd Vurğun şeir deyirdi,
O, bəlkə layladı, bəlkə sehrdi?
Sanki saz üstündə bir kövrək simin
İlahi səsinə qulaq asırdı.
Sinifdə əlifba müəlliminin
Birinci dərsinə qulaq asırdım.
Hanı bu gələnlər? –
Yoxam ki, mən də,
Təzədən özümə qayıdarammı?
Bəlkə yuxulamışam bir göy çəməndə?
Camaat, siz deyin, burda varammı?
Varammı. –
Zal titrəyir alqış səsindən,
Çıraqlar göz qırpır cazibəsindən.
Səhnədən söz yağır məhəbbət dolu,
Səhnəyə gül yağır təravət dolu,
Şair işıq dolu, şeriyyət dolu
Müdrik gözləriylə baxır məclisə.
Gözlər ziyalanır, qəlblər isinir.
Dayanıb bizimlə nəfəs-nəfəsə,
O, dərib köksünü təzədən dinir:
– Camaat, şerinə səcdə etdiyim

Neçə sənətkar var, –
Biri də Puşkin.
Adına müqəddəs bir məbəd deyin
Bu ali hörmətin, bu sönməz eşqin.
İndi izn verin, əzbər deyim mən
Puşkinin "Yevgeni Onegin"indən.
– Oxu , ağrın alım, meylin çəkəni,
Oxu, sübhə kimi eşidək səni.
Şair aramla qaldırır göyə,
Elə bil dalğanı külək qaldırır,
Sinədə tufanı ürək qaldırır:
– "Mənim qayda güdən və nizam sevən
Əmim xəstəliyə düşdüyü zaman,
Hörmət etdirərdi özünə cəbrən,
Ağlına özgə şey gəlməzdi bir an".
Elə ki, bitirir son misraları,
Dikəlir yerindən qoca bir qarı:
Camaat, mənə də bir qulaq asın:
Görüm o Puşkini yüz il yaşasın.
Vallah, o bizim dili, bizim ləhcəni
Bəzi şairlərdən yaxşı bilirmiş.
Kişinin hər sözü ağlatdı məni,
Halal olsun ona, Məkkəymiş, pirmiş.
Bax, o başı batmış zalım əmidən
Min əzab görmüşəm uşaqlıqda mən.
Görəsən o, harda eşidib bunu?
Şerə duaçıyam ömrüm uzunu.
Sağ ol ki, Puşkindən dedin, ay Səməd.
Bisavad olsam da, sinəmdə yazdım.
Şairə ehtiram-şerə məhəbbət, –
Bunsuz indən belə çox yaşamazdım. –
Deyib ağır-ağır qalxır səhnəyə:
– Ay oğul, ay Səməd, gəl bir öpüşək.
Onun ağ saçları gül dəstəsitək
Tökülür şeirlə dolu sinəyə.
Deyir: – Tanımasın kədər, qəm səni,
Həmişə xoş günün olsun, xoş günün.

Oğul, iki dəfə öpürəm səni:
Bu sənin qismətin, bu da Puşkinin.
Şair gözlərindən yaş – süzə-süzə,
Baxdıqca qarıya coşurdu təbi.
Fikrində Puşkinlə durub üz-üzə,
Tərcümə edirdi ona mətləbi.

Ağstafa, 1968

ATANIN ARZUSU

Qəşəngdir oğlumun xurmayı saçı,
Qaşları qaradır, gözləri qonur.
Məni görən kimi o, qanad açır,
Bala göyərçintək sinəmə qonur.

Deyirlər, oğlumu çox sevdiyimdən
Batır sol yanağı gülümsəyəndə.
Qoy olsun, bu sözü bildiyim gündən
Elə həmin yeri öpürəm mən də.

Deyirəm, basdıqca onu bağrıma:
O, mənim canımla bir can deyilmi?
Mənim hər dərdimə, ürək ağrıma
Onun gül nəfəsi dərman deyilmi?

Əzizdir hamının mənə körpəsi,
Gözümün işığı özümünküdür.
Elə ki, eşitdim ağlamaq səsi,
Deyirəm ağlayan özümünküdür.

Onda süd qoxusu, gül nəfəsi var,
Səadət diləyir bütün varlığa.
Bu yer küresində körpə balalar
Balamtək çıxaydı bəxtiyarlığa.

Hər vaxt diləyirəm o gözəl çağı;
Gözlərdə nə qüssə, nə qəm olaydı.
Bütün körpələrin sığınacağı
Deyirəm kaş mənim sinəm olaydı.

İNAMIM, ƏQİDƏM

Yaşaya bilərəm odsuz, ilhamsız,
Yaşaya bilərəm çörəksiz, susuz.
Yaşaya bilərəm yüz il yuxusuz,
Yaşaya bilmərəm bir gün inamsız.

Soyusa ürəyim köksümün altda,
İnamın oduyla mən yanmalıyam.
Ömür sürüremsə mən bu həyatda
Kiməsə, nəyəsə inanmalıyam.

İnamsız nə ürək, inamsız nə səs?
İnam ürəyimdə dəniz olmalı.
Kim isə mənimçün ülvi, müqəddəs,
Dünyada hamıdan əziz olmalı.

Əqidəm var isə, özüm də varam,
Odlardan alaram arzu-kamımı.
Sinəm yaralansa, məlhəm qoyaram
Yaramın üstünə öz inamımı.

Ömrün son anları gəlib yetəndə,
Son qətrə su kimi inam içilir.
Fəqət, bir ürəkdə inam itəndə,
İnsan dağ olsa da birdən kiçilir.

Kiçilir gözündə yediyin çörək,
Onda yaşamağın hədərdir, hədər.
İnamı itirmək, eşqi itirmək
Ağırdır Vətəni itirmək qədər.

Həyatın yolları hamar deyildir,
Gərək dağ aşmaqçın ayaq döyəsən.
İdeal, əqidə paltar deyildir
Hər gün dəyişəsən, təzələyəsən.

Əqidəm yolunda qan tökmüşəm, qan,
Onu isitmişdir alovum, odum.

Mən öz əqidəmi topun ağzından,
Süngünün ucundan alıbqorudum.

Mən öz əqidəmi əsrin əksinə,
Qatıb zülmətlərə nur ələmişəm.
Mən öz əqidəmi yer kürəsinə,
Bahar toxumu tək səpələmişəm.

Üstünə yağsa da böhtan yağışı,
Elə atəşdir ki, söndürmək olmaz,
Min əzab çəksəm də hər addımbaşı,
Məni inamımdan döndərmək olmaz!

Biri çaşbaş olsa öz məsləkində,
Hirsimdən dəniz tək qabarmalıyam.
Mən öz əqidəmlə qoca Pekində
Daşkənd zəlzələsi qoparmalıyam:
Gücü on iki bal!

Bəzi cənablaşan sabiq yoldaşlar.
Evlər uçulmasın, silkələnməsin,
Ancaq silkələnsin beyinlər, başlar!
.....

Əqidə baş əymir qılınca, zora,
Yalan təriflərə heç kəs ucalmır.
Uydurma Allahın öləndən sonra
Adi insan qədər hörməti qalmır.

Məni qorxutmayır hər əsən külək,
Təməli inamdan yoğrulmuş dağam.
Vətən keşiyində duran əsgər tək,
Mən öz əqidəmi qoruyacağam.

Əqidəm yolunda hər gün yanmasam,
Mənə nankor deyər Vətənim, anam.
Yaşaya bilmərəm mən inanmasam,
Mənim nəfəsim də inamdır, inam!

1967

OĞUL MƏHƏBBƏTİ

İlk dəfə dünyaya sanki göz açdım,
Mən yaşa dolmamış ağıla doldum.
Uşaqlıq çağımdan ayrılmamışdım,
Özüm bir uşağın atası oldum.

Ata qayğısından azad olmamış,
Ata çağrılıram otağımda mən.
Qucaqda gəzdiyim unudulmamış,
Körpə gəzdirirəm qucağımda mən.

Dəydi nəfəsimə övlad nəfəsi,
Ayıldım gəncliyin yaz yuxusundan.
Coşdu ürəyimin şeir həvəsi
Onun gül ətrindən, süd qoxusundan.

Qoluma güc gəldi şirin sözüylə,
O, dodaq büzəndə çoxaldı dərdim.
Oğluma baxanda ata gözüylə,
Mən oğul gözüylə atamı gördüm.

Dünən bilmədiyim, bu gün bilindi,
Son qoydum dünənki rahatlığıma.
Düşündüm, bu sakit otaqda indi,
Mənə göz qoyan var yaratdığıma.

Aldada bilmirəm o gözləri mən,
Bu gündən yazdığım mənə sınaqdır.
Oğul qarşısında xəcalət çəkən,
Vətən qarşısında utanacaqdır.

Bağrıma basdıqca hər gecəyarı
Sevinci, fərəhi sinəmə doldu.
Körpə ürəyinin çırpıntıları
Şerimin ən gözəl ahəngi oldu.

Nədir övlad eşqi, əzəl bilməzdim,
Bu hissi qəlbində kim yaşatmamış?

O, gəzib otağı başa çatmamış
Mən masa dalından dünyanı gəzdim.

Əlindən tuturam o büdrəyəndə,
Sanır dağ gücü var ata qolunda.
Fəqət, o bilmir ki, şerin yolunda
Büdrəyə-büdrəyə gedirəm mən də.

Hələ qəlbimdədir istəyim, kamım.
Sənət zirvəsinə əl çatmamışdır.
Qoy balam bilsin ki, şair ilhamım,
Hələ balasını yaratmamışdır.

Bilsin ki, aldatsam o gözləri mən,
Sabah yazdığımı o, danacaqdır.
Oğul qarşısında xəcalət çəkən
Vətən qarşısında utanacaqdır.

ÖMRÜMƏ BİR GÜN QALMIŞ...

Kaş ki, öləcəyim günü biləydim,
Biləydim nə zaman son nəfəsimdir.
Demirəm dünyaya bir də gələydim,
Bir dəfə gəlmişəm, elə bəsimdir.

Bilsəydim olmazdı əsib-qorxmağım,
Kim tutub dünyanı min il qalacaq?
Bu gün həyatınam, sabah torpağın,
Mən qəfil ölümdən qorxuram ancaq.

Barı xəbər tutum bircə gün əvvəl,
Bir gündə ömrümə haqq-hesab çəkim.
Səhər yatağımdan qalxım əlbəəl,
Nə dərman gərəyim olsun, nə həkim.

Olmasın heç kimə əziyyətim də,
Sabah köçməyimi dostlar bilməsin.
Mənim son sözüm də, vəsiyyətim də
Evimin içində eşidilməsin.

Efirdə eşidim son xəbərləri:
Sərhədlər dolubdur çiçəklə-güllə.
Sonuncu əsgər də qayıtdı geri,
Torpağa quylandı sonuncu güllə.

Eşidim diktorun sevinc səsində:
Sabah şənlik edir hər ev, hər ocaq.
Sabah ölüm yoxdur yer küresində,
Sabah neçə milyon artım olacaq.

Sonra çıxıb yola həmişəki tək,
İnsan axınına qoşulub gedim.
Sonuncu eşq ilə çırpınsın ürək
Sonuncu...
Bu sözü mən necə dedim!

Kimin ki, qəlbinə toxunmuşam mən,
Gizli bir həsrətlə ona yanaşım.
Haqlı gileylənən, haqsız inciyən
Bütün dostlarımla mən halallaşım.

Tutum əllərindən yaxşının, pisin,
Hamıda gözəllik, yaraşıq görüm.
Yamanlıq gördüyüm mahir xəbisin
Gözündə son dəfə bir işıq görüm.

Eşidim Bakının addım səsində
Sonuncu əlvida nəğməsini mən.
Eşidim bir körpə qəhqəhəsində
Ömrümün uğurlu əvəzini mən.

Çıxım xatirələr səyahətinə;
Yenə o sahildir, on yeddi yaşım.
Bir yaşıl çinarın ziyarətinə
Gəlib, yarpaqlarla hey pıçıldaşım:

Ay ilk görüş yeri, məni bağışla,
Bəlkə yaşamadım adına layiq.
Məsum qız gözləri məni bağışla
Yanmadım eşqinə, oduna layiq.

Ay dəniz birinci gəlişimizdən
Yadigar, nişanə ləpir hardadır?
Qağayı hürkərdi gülüşümüzdən,
O gülüş, qəhqəhə de bir hardadır?

Gedərəm, əlvida deyib astaca,
Titrəşər budaqlar, gurlayar dəniz.
Kaş mən ayrıldığım həmin ağaca
Bir oğlan yanaşsın səssiz, səmirsiz.

İlk vüsal çağları gəlsin həyata,
Bir bahar doğulsun, mən keçən qışam.
Oğlan intizarla baxsın saata,
Mən öz saatımı dayandırmışam.

Gedirəm, dünyadan arxayın gedim,
Bura sevməyənin yolu düşməsin.
Mənim göy çinarım, sevgi məbədim
Ucuz görüşlərdən qoy büzüşməsin.

Gözümdə qüssə yox, ürəyimdə qəm,
Ötən günlərimə çətin ki, yanam,
Əgər qəbrim üstə bir gülə dönsəm,
Bilin, ürəyimdir yerdən boylanan.

Ariflər dünyanı mənim tək anlar,
Vaxtında getmək də mərd hünəridir
Yerdəki çaylar, qaratikanlar
Qəlbiqaraların sümükləridir.

Silinib getmərəm xatirələrdən,
Heykəllik şöhrət də qazanmamışam.
Bir şair ömrünü yaşamışam mən,
Bəlkə bircə şeir yazammamışam.

Ürəklə yazmışam neçə nəğməni,
Biri yadda qalan, biri itəndir.
Deməröm, ey Vətən, bağışla məni,
Torpağın altı da mənə Vətəndir.

Girmək istəmirəm mələk cildinə,
Danmaq istəmirəm günahımı da.
Əcəl möhlət versə bir günlük mənə,
Sevincə döndərrəm son ahımı da.

Bütün yer üzünün yamanlığını,
Dərdini özümlə apara bilim.
Bütün insanların cavanlığını,
Ölümün cəngindən qopara bilim.

Verin bir ağacı bada mənimçün,
Ustalar, ürəklə çəkic vurun siz.
Bir tabut düzəldin, o da mənimçün,
Sonra milyon-milyon beşik qurun siz.

Mən onda ölümə təşəkkür edib,
Keçməyə hazıram hamıdan əvvəl,
Bilsəm ki, ayrılıq mənimlə gedib,
Mənimlə yox olub amansız əcəl.

ŞAİR QOCALMAZ

Deyirsən şairlər niyə qocalır?
Ömür bahar olsa, şair qocalmaz.
Ürək cavan qalır, göz cavan qalır,
Təbi qaynar olsa, şair qocalmaz.

O, haqqa sığınıb əzəldən, başdan,
Keçib cəsarətlə eniş-yoxuşdan.
Mərdlərin adına yağan alqışdan
Namərdlər xar olsa, şair qocalmaz.

Götürüb hər üzünü qarın, boranın,
Fitnə dəllalının, tələ quranın.
Paxılın, sözbazın, aravuranın
Qulağı kar olsa, şair qocalmaz.

Dünyadan qəm köçüb, dərd azaldıqca,
Qəlbi cavanlaşar qələm çaldıqca.

Elin xoş günündən ilham aldıqca,
Saçları qar olsa, şair qocalmaz.

Bərəkət diləyər ana torpağa,
Yazda çiçək yağa, qışda qar yağa.
Böyüklü-kiçikli – başdan ayağa
El bəxtiyar olsa, şair qocalmaz.

Xalqın sevgisindən yaranır bu səs,
Soyumaz bu atəş, sönməz bu həvəs.
Qəlbi şeir kimi nurlu, müqəddəs
Oxucular olsa, şair qocalmaz.

Bir eşqin quludur, bir həqiqətin,
Şairə yalanla barışmaq çətin.
Əzabla doğulan şerin, sənətin
Yolu hamar olsa, şair qocalmaz.

Öyünər kədərə sevinc qatmaqdan,
Sözlə göz oxşayır, qəlb ovutmaqdan.
Əli gecə-gündüz qələm tutmaqdan
Damar-damar olsa, şair qocalmaz.

Ay Tofiq, şeirdir ömür də, gün də,
Hər qəlbə qonaqsan öz mənzilində.
İnan ki, bu şair xalqın dilində
Bir sözün var olsa, şair qocalmaz!

1978

NƏĞMƏ ÇƏLƏNGİ

Sevdiyim sənətkarın şərəfinə

Yığışsın məclisə əhli-ürfanlar,
Gələnlər bir əhdə, peymana gəlsin.
Ruhlar təzələnsin, qaynasın qanlar,
Sevdalı könüllər cövlana gəlsin!

Gəlsin ən sevimli oxuyan, çalan,
Ellərin dilindən mükafat alan
Sənətdir əbədi yaşadıb-qalan,
Qoy hamı bu fikrə, gümana gəlsin!

A dostlar, Ən böyük arzuya çataq:
Xalqın zəhmətinə şirinlik qataq.
Nəğməylə nurlansın hər ev, hər ocaq
Günəş tez oyansın, Yer cana gəlsin!

Məclisə can versin Bəhrəmin tarı,
Torpağa endirsin uçan quşları.
Sarı sim – qəlblərin o şah damarı,
Ustadın əlindən tüğyana gəlsin!

Hacı tək yaranıb, çalan yüz ola.
Adı tarixlərə gərək yazıla.
Onun barmağını tutaq qızıla,
Çətin ki, o, bir də cahana gəlsin!

Muğamdır qibləsi bu xanımanın
Onda nəfəsi var elin-obanın.
Sənətin Məkkəsi Cabbarın, Xanın
Şöhrəti hər təzə cavana gəlsin!

Kənddə çal-çağırdır, ay cuvanəzən,
Tovuz quşu kimi tumarlan, bəzən,
Bəlkə öz oğluna adaxlı gəzən,
Rastına ağbirçək bir ana gəlsin!

Tofiqin tarında el nəğmələri
Deyir: – A rəqs edən, budur, gəl bəri.
Sevənlər az deyil dostum Sərvəri
O da öz tarıyla meydana gəlsin!

Şövkət cəh-cəh vuran ana bülbülüm
Elə yandırsın ki, qalmasın külüm.
Başında tac olsun çiçəyim, gülüm,
Qoy dönüb o nəhrə, ümmana gəlsin!

Buyursun qabağa ustad Əbülfət
Səsi hər məclisə, şənliyə zinət
Ecazkar yaradıb onu təbiət
Dərdlilər eşidib dərmana gəlsin!

Elin nəğməkarı İslam oxusun,
Dilində ən gözəl misram oxusun.
Dağda bir yanıqlı muğam oxusun,
Buzlar da əriyib arana gəlsin!

Xalqın ürəyidir Habil kamanı,
Kərəm atəşidir ahı-amanı.
Quzuya döndərir pisi, yamanı,
"Kafir" də az qalır imana gəlsin!

Yaqubun öz yeri, öz aləmi var,
Könüllər oxşayan zili, bəmi var.
Qəmli ahəngində can məlhəmi var,
Daşlar da od tutub zəbana gəlsin.

"Sona bülbüllər"ə dil verən Qədir,
Yeri silkələyir, göyü titrədir.
Dəryalar yandıran odlu qətrədir,
Sədası zamandan-zamana gəlsin!

Aftandil sənəti ruhlara qida,
Yerindən oyadır ayaqsızı da.
Qopsun barmağından min şirin nida,
Qarmonun dilləri fəğana gəlsin!

Varam Süleymanın zənguləsinə,
Şəlalələr kimi qaynar sinəsinə.
Nazim rövnəq verir toy məclisinə,
Qatıb öz səsini tufana, gəlsin!

Behcətin oylağı qədim Gəncədir,
Nəğməsi xalqımın ürəyincədir.
Nəfəsi mehriban, ruhu incədir,
Sinəsi odlana-odlana gəlsin!

Nəğmə bulağıdır Məhəmməd Bağır,
Üzündən işıqla təbəssüm yağır.
Könül, bu bayrama onu da çağır,
Qoy dönüb qıy vuran tərlana gəlsin!

Ellər vurğunudur hər gözəl səsin
Ürəklər titrədib necə əsməsin?
Arif Məcnun kimi səhra gəzməsin
Leyliylə gül açan Muğana gəlsin!

Şeirlə musiqi bir cüt çələngdir,
Qoşa qanad kimi xalqa gərəkdir.
Mənim bir evim var, o da ürəkdir,
Gələnlər bu ada, ünvana gəlsin!

Sizsiniz işığı sözün, ilhamın,
Pərvanəsi olum siz yanan şamın.
Yığılın başına Tofiq Bayramın
Adınız nəğməyə, dastana gəlsin!

KƏHƏR ATLA SÖHBƏTİM

Dolana-dolana şütüyüb dağı
Bir yol təntiməyir polad köhlənim.
Şığıyır enişdə qartalsağayı,
Küləklər arxamca sürünür mənim.

Qalxır zirvələrə, çıxır dik yola,
O süzür ox kimi duman içində.
Babalar at çapan bir günlük yola,
Maşınım yetişir bir an içində...

Kövşəndən düşmüşdü yolum bu səhər,
Polad köhlənimdə gəzirdim kəndi.
Baxdı məlul-məlul mənə bir kəhər,
Alma gözlərində yaş gilələndi.

O, şahə qalxaraq durdu qarşımda,
Sanki sahibindən aman istədi.
Kişnədi, saçlarım əsdi başımda,
Dərdindən dil açıb görün nə dedi:

"Ay məni unutmuş vəfasız insan,
Haqqım gözlərindən söylə, itdimi?
Hara şütüyürsən, hara çapırsan?
Mən ki, tanımışam öz sahibimi.

Bir yol eşitmirsən, ha kişnəyirəm,
Qapında dururam boynu bükülü.
Nalsız ayağımı yerə döyürəm,
Dırnağım eşdikcə yer də sökülür.

Mən ağzı cilovsuz, belə yəhərsiz
Dağları, düzləri tək hərlənirəm.
Görürəm xoş keçir günün kəhərsiz,
Mən sənsiz dözməyib qəhərlənirəm.

Söylə, sözün nədir, ver qərarını,
Gərək deyilməsə köçüm dünyadan.
Baban Koroğlunun yadigarını
Ucuzmu tutursan, yadını sanırsan?"

O dedi, eşidib, duydum halını,
Ahından titrəyib əsdi qayalar.
Qucdum kilkə düşmüş ipək yalını,
Dolmuş gözlərindən öpdüm o ki, var.

Dedim: – Ay kəhərim, sadiq sirdaşım,
Demə yaxşılığın gözümdə heçdi.
Sınaq günlərində neçə savaşım
Bu dağlar qoynunda sənlə keçdi.

Hər dağ bir dastandır, min il də susa,
Bir gün dilə gəlib danışasıdır.

Hər daş o dastanın bir varağısa,
Sənin ayaq izin ilk misrasıdır.

Neçə yol yağıyla girdik döyüşə,
Alaylar dağıtdın, cəbhələr gəzdin.
Mən üz-üzə durdum, sən də döş-döşə,
Mən göydə doğradım, sən yerdə əzdin.

Bəzən qanım çıxdı yəhər qaşına,
Belində sallana-sallana qaldım.
Sən məni apardın mənzil başına,
Sən qana bələndin, mən də sağaldım.

Ay atım, könlümdə əzizdir yerin,
Bu qoca dağlar da qədirbiləndi.
Çəməndə nalından düşən ləpirin
Dövrəsi çiçəklə haşiyələndi.

Cıdırda mənzilə birinci çatdım,
Anamın saçı tək öpdüm yalını.
Bir ellər qızına mən qaş-göz atdım,
Boynuna bağladı tirmə şalını.

Sən də o gözlərə dikdin gözünü,
Yanında quzuya döndün o axşam.
Zərif qız çiyninə sürtdün üzünü,
Duydum öz eşqimdə yanılmamışam.

Ay atım, dəyişib həyatım indi,
Demə dönük çıxdım əhdə, ilqara.
Axı yalmanına ha yatım indi,
Ha çapıl, sən hara, bu sürət hara?

Barış bu həyatın hökmüylə sən də,
Nə qədər çətindir desən, halıyam.
Sən məndən ayrılmaq istəməsən də,
Ay atım, mən səndən ayrılmalıyam.

Meylindən nə keçir, nə keçir istə,
Könül göy dağları pay verər sənə.
Darıxıb kişnəsən nə vaxt yer üstə,
Yer altdan Koroğlum hay verər sənə.

Ülək bir qızılquş, dilək qanadlı,
Quşqonmaz zirvələr görməliyəm mən.
Bu şimşək yerişli, külək qanadlı
Əsrin öz atını sürməliyəm mən.

ÜZEYİR HACIBƏYOVUN EV MUZEYİNDƏ DÜŞÜNCƏLƏR

Ədəbiyyat nəsib deyil hər sənətkara,
Hər keçənin evi dönüb muzey olmayır.
Yüz-yüz bəzək vurdumsa da daşa-divara,
Nə faydası, adı xalqa bəzək olmayır.

Ev-muzeyi, xatirəsi müqəddəslərin
Bu dünyada ölümsüzlük vərəqəsidir.
Ev-muzeyi, qəbri nurla dolan kəslərin
Ürəklərdə yaşamağa min il bəsidir.

Dəbdəbəyə, cah-cəlala baxmır gələnlər,
Sənətkarın nəfəsilə varlanıb gedir.
Lap qaranlıq daxma olsun, qədirbilənlər
Yaratdığı incilərlə nurlanıb gedir...

Budur, qədim bir imarət, ucqar məhəllə,
Qapısında heykəlləşən Üzeyir baba,
Mən çırpınan bir ürəklə, titrəyən dillə
Sənətkara salam verib girdim mehraba.

Bu tənəklər xoşbəxtdir ki, onu dinləyib,
Yer üzündə nə əvəzi, nə qiyməti var.
Bu ağaca Üzeyirin nəfəsi dəyib,
Gövdəsində sahibinin əzəməti var.

Payız vaxtı yarpaqların rəngi qızıldı,
Bir-bir qonub saçlarıma verdi səs-səsə.
Ürəyimə həzin-həzin bir not yazıldı,
Bülbül dindi, qulaq asdım ölməz "Sənsiz"ə...

İliyimə, damarıma təzə qan kimi
Nəğmə axdı, tüğyan etdi sinəmdə ürək.
Bu muzeydə sətir-sətir gördüklərimi
Şəkil-şəkil gözlərimə köçürdüm gərək.

Bura ömrün aynasıdır təmiz, ləkəsiz,
Hər zərrəsi brilyantdan, qızıldan baha.
Bilirsənmi niyə olub sənət Məkkəmiz?
Bilirsənmi niyə dönüb ziyarətgaha?

Od paylayıb min ocağın gözünə bu ev,
Evsizləri öz başına yığıb ana tək.
Deyirlər ki, hər gələnin üzünə bu ev
Gecə-gündüz açıq olub mehmanxana tək.

Yüz-yüz cavan istedadı qanadlandırıb,
Bir qocaman qartal kimi ucaldıb göyə.
Yüz-yüz ömrün yollarında işıq yandırıb,
Musiqimiz günəş kimi parlasın deyə.

Əfsuslar ki, o vaxt bura yolum düşməyib,
O, köçəndə on dörd yaşlı uşaq olmuşam.
Ən nurani ağsaqqalla mən görüşməyib,
İndi özüm saç-saqqalı dümağ olmuşam.

Adam var ki, paltarını geyib Üzeyirin,
Aldığına şərik çıxıb, gözü doymayıb.
Ömrü boyu çörəyini yeyib Üzeyirin,
Bircə dəfə bu muzeyə qədəm qoymayıb.

Ustadına kəc baxana nankor deyilir,
Qoy bu yerdə fikir xalqın, söz mənim olsun.
Kim kökündən uzaqlaşıb yada əyilir,
Üzeyirin ruhu ona qoy qənim olsun!

Bura sənət rübabının Çənlibelidir,
O bir evdən milyon qəlbə köçən Koroğlu,
Yurdumuzun zəka nuru, nəğmə selidir,
O xalqımın həm atası, həm də ki, oğlu.

Boran olub, tufan olub ömür yolunda,
Musiqisi Vətən deyib bəmdən ziləcən.
Sənətiylə şəxsiyyəti dəmir yolunda
Relslər kimi qoşa gedib son mənziləcən.

Bura ömrün aynasıdır təmiz, ləkəsiz,
Hər zərrəsi brilyantdır, qızıldan baha.
Üzeyirin ev-muzeyi sənət Məkkəmiz
Bu gün dönüb ən müqəddəs ziyarətgaha.

1983

CAVANLAR... CAVANLAR...

Ay mənə süd verən ağbirçək ana,
Ay mənə dərs deyən əziz müəllim.
Yazıram bu şeri mən yana-yana,
Özüm də bilirəm nədir təsəllim.
Qəribə cavanlar çıxıb meydana,
Görəsən onlara kim verib təlim?

Dadıma yetişin, köməyim olun,
Arabir söyləyin lənət şeytana.
Siz mənə göstərin ünvanın, yolun
Səmtini dananlar çıxıb meydana.
Dibindən boy atıb yovşanın, kolun,
Qəribə cavanlar çıxıb meydana.

Elə bil halal süd əmməyib onlar,
Qarışıb qanları, dönüb zəhərə.
Ana qucağından enməyib onlar,
Göydən paraşütlə tökülüb yerə.

Gəzirlər allahın vəziri kimi,
Hamı gözlərində əsrin avamı.
Hər biri hazırın naziri kimi
Yeyir çörəyimi, udur havamı.
Elə bil borcludur, borclu onlara
Gecəni, gündüzə qatan cavanlar.
Külüng vura-vura, dağ yara-yara
Çöllərdə qan-tərə batan cavanlar.
Eləbil borcludur, borclu olanlar
Qəhrəman Zəminəm, igid Sarvanım.
Qızıl zəmilərə, yaşıl kollara
Gözündən nur səpən yüz-yüz cavanım.
Bunlarsa, elə bil toy toğlusudur,
Artır gündən-günə nazı-qəmzəsi.
Sərdar Mil düzünün Koroğlusudur,
Onlarsa bulvarın Keçəl Həmzəsi.
Ortada bəslənib, qıraqda gəzib,
Süfrəmə cumanlar çıxıb meydana.
Atanın, ananın cibini kəsib,
Qəribə cavanlar çıxıb meydana. –
Dəstəylə yığışıb küncə-bucağa,
Hərcayı danışıb məclis qururlar.
Xor baxıb müqəddəs, doğma ocağa
Qərbin havasıyla xaric vururlar.
Əcaib çalanlar çıxıb meydana,
Ürəyim bulanır qulaq asanda.
Qəribə cavanlar çıxıb meydana,
"Şair" də, "nasir" də var arasında.
Aydın üfüqlərdə duman axtarıb,
Günəşdə işıq yox, ləkə görürlər.
Qılınca qurşanıb, qalxan axtarıb,
Dağı da kiçicik tikə görürlər:
"Gəlin filankəsi yıxıb sürüyək,
Elə gecə-gündüz vətəndən yazır.
Bir ağıldan seyrək, qələmdən zirək
Qolunu çırmayıb deyir: – Mən hazır.

Ana şerimizin süd qoxusundan
İntiqam alanlar çıxıb meydana,
Şairlər, ayılın qış yuxusundan.
Təzə "pəhlivanlar" çıxıb meydana,
Qəribə cavanlar çıxıb meydana.
Onlar bir damladır, ümman içində,
Susdurar qarğanı yüz-yüz qaranquş.
Bu qədər qeyrətli cavan içində
Bir ovuc nadürüst necə yaranmış?
Bunu özümüzdən gəlin soruşaq:
Hissimiz küt olub, qulağımız kar.
Bir evdə yolunu azırsa uşaq,
Atadır, anadır buna günahkar.
Bürünüb, sığınıb yad köynəyinə,
Qəribə cavanlar çıxıb meydana.
Demirəm onları itirməliyik,
Ürək ağrıları sarsıdır bizi.
Çaşanı düz yola gətirməliyik,
Dayaq etməliyik əllərimizi.
Cərrah bıçağıyla kəsib tullayaq,
Görsək bu ürəkdə ögeylik qurdu.
Deyək ki, ay oğul, aç gözünü, bax,
Sənətdə dəstə yox, ordu var, ordu.
Hamı bir ölkənin vətəndaşıdır,
Hamı yürüşdədir, hamı səfərdə.
Hər şair, şairin qan qardaşıdır,
Yüzü əsgər olar, biri sərkərdə.
Sənət timsalıdır xeyirxahlığın,
O şərə bürünsə, xeyir yaranmaz.
Bir ana südünün, bir uşaqlığın
Paklığı olmasa şeir yaranmaz.
Yaranan ürəksiz soyuq sətirlər,
Cılız şikayətlər, dedi-qodular.
Ucuz mədhiyyələr, xala-xətirlər,
Onlar tez yazılar, tez unudular.
Didsə bir-birini əhli qələmlər,
İşıqlı dünyamız zülmətə dönər.

Didər el-obanın bağrını qəmlər
Ümidi azalar, inamı sönər.
Bu nədir? –
Sənətin geniş yolunda
Döngələr, dalanlar çıxıb meydana.
"Tənqidçi" şəklində, "alim" rolunda
Qəribə cavanlar çıxıb meydana.

Ay mənə süd verən ağbirçək anam,
Ay mənə dərs deyən əziz müəllim,
Ürəyim kövrəlib dönür kamana,
Ömür təqviminə yanaşır əlim,
Bir cavan gözündə duman görməyim,
Təmizlik qəlbləri şeh kimi yusun.
Yaxşılar içində yaman görməyim,
Hər kəs vicdanını şərdən qorusun.
Baxdıqca sevincim dönsün ümmana,
Mən də cavanlara qoşulub gəzim.
Dedim, ay müəllim, dedim, ay ana,
Sizin sələfiniz, mənim əvəzim.
Vətən yetirib şöhrətə-şana,
Ən gözəl cavanlar çıxıb meydana,
Ən ülvi insanlar çıxıb meydana.

1980

SƏTTAR MÖCÜZƏSİ

Şəninə hər yerdə tərif, söz olub,
Rəqibin az olub desəm düz olmaz.
Neçə siyahıdan adın pozulub,
Tarixə yazılan heç vaxt pozulmaz!

Məcnunu olduğun təbiət kimi,
Xalqın ürəyində ilahiləşdin.
Bütün paxıllara bir ibrət kimi
Rəqiblər kiçildi, sən dahiləşdin!

Bu dilsiz ağaclar necə oxuyur?
Necə şair deyir bu lal qayalar?
Nə gözüm yorulur, nə könlüm doyur,
Dil açıb danışır rənglər, boyalar.

Rəssamlıq ilahi vergiydi səndə
Bəs necə oxutdun gülü, çiçəyi?
Görünür üç ürək varmış səsində:
Füzuli, Üzeyir, Səttar ürəyi.

DƏNİZDƏN GƏLİRƏM...

Elə ki, sahilə yanaşır gəmi,
Görüş həsrətilə ürəklər əsir.
Sevincdən atılıb yerə quş kimi,
Evlilər həmişə evə tələsir.

Nişanlı cavanlar ləngiyir bir az,
Onların mazutdan üzü parlayır.
Qızla bu görkəmdə görüşmək olmaz. –
Üstünü-başını hey tumarlayır.

Sahilə çıxırlar təzə bəy kimi,
Hərə öz yarının girir qoluna...
Burda subayların var öz aləmi,
Tələsmir, can atmır onlar heç yana.

Buruqdan ucadır cüssələr, boylar,
Yanır ürəklərdə məhəbbət közü.
Sahili gözüylə yeyib subaylar,
Bəs niyə bağlanıb qızların gözü?

Mən də qayıtmışam evə dənizdən,
Suların bağrını yarmaqdır peşəm,
Küləyin, tufanın nərəsindən mən
Mehriban səsini eşitməmişəm.

Məni caynağında sıxmış dalğalar,
Qəzəbli başımdan aşmış dənizin.
Qəlbimdə balamı qucmaq eşqi var, –
Qoy tumbul əlləri saçımda gəzsin.

İsinsin nəfəsim hərarətimlə,
Tufanlı qəlbimdir əsib, köyrələn.
Gəl məni qarşıla öz şəfqətinlə,
Sevgilindir gələn, ərindir gələn.

Baxıram, səs-səmir gəlmir otaqdan
Pişik də qısılıb küncə uyumuş.
Çay dolu stəkan bəlkə o vaxtdan
Masanın üstündə qalıb soyumuş.

Ürək az qalır ki, qopsun sinəmdən,
Gözüm öz evimə baxır nigaran,
Sənin çarpayına yanaşıram mən,
Nə şirin yatmısan, şirin yatmısan.

Yuxumu görürsən gülümsəyərək?
Qəlbin Xəzərdədir, fikrin dərində.
Buludda gizlənən qoşa ulduz tək
Gözlərin gizlənmiş kipriklərində.

Bilirəm görürsən orda ərini,
Arabir sifətin nura bürünür,
Arabir sıxırsan hörüklərini,
Yəqin gözlərinə dalğa görünür.

Bu gün qalib kimi çəkilib adım,
Gərək eşidəydin bu xəbəri sən,
Bilsən oyatmağa səni qıymadım,
Səhər özün məndən inciyəcəksən.

Körpə də neçə yol səni oyatmış,
Yanına salmısan şirin dəcəli.
Başını sinənə söykəyib yatmış,
Şəklimin üstündə qalmış bir əli.

Ey könül istəyim, könül harayım,
Sənin bal yuxuna acı qatmaram,
Özüm qızdıraram xörəyi, çayı,
Səni oyatmaram, yox, oyatmaram.

Bilirəm fikrində nələr dolanır,
Kimdir işıq verən təbəssümünə:
"Buruğun başında bir çıraq yanır,
Sahilə iki göz zillənmiş yenə..."

Yuxuda, yuxzuda görürsən bunu,
"Yaxşı ki, sakitdir dəniz" – deyirsən.
Sevgilim, dənizin coşğunluğunu
Sənə gətirmişəm ürəyimdə mən.

VURĞUN

Vurğunun saçları vaxtsız ağardı
Gümüş dalğalar qondu başına.
Yüz yaşlı qocaya bənzəri vardı
O qədəm qoyanda əlli yaşına.

Dağ deyil, zirvəsi qar görməyən dağ
Şerin sahibinə ad halal oldu.
Vaxtsız qocalsa da, vaxtından qabaq
Vurğun şerimizdə ağsaqqal oldu.

Nizamini, Füzulini sevdi ürəkdən
Ömür boyu fəxr elədi sələfləriylə.
Yorulmadı Ələsgərə ustad deməkdən,
Fəzir Vaqif taxta çıxdı şah əsəriylə.

Palıd kimi öz kökünə bağlıydı Vurğun,
Səsi bütün əsrlərin sədası oldu.
Ataların qədir-şünas oğluydu Vurğun,
Şeir yazan övladların atası oldu.

Kürsülərdə başı qarlı bir dağ kimiydi,
Dar ayaqda əyilməzdi dağ əyilsə də.
İdrakıyla çoxlarına üstün gəlsə də,
O, həyatda bir sadəlövh uşaq kimiydi.

Şeir halal bəhrəsidir ülvi hisslərin,
"Çoxbilmişlər" bu meydanda gəldi-gedərdir.
Rəngdən-rəngə, roldan-rola girən kəslərin
Düşüncəsi bir uşağın ağlı qədərdir.

EL MƏHƏBBƏTİ

Şeriylə dil açır körpələrimiz,
Hər evdə, eyvanda şəkli asılır.
Kəndliyə doğmadır, fəhləyə əziz,
Sözləri yollara zərlə yazılır.

Bu sevgi amansız ölümə qənim.
Ömrü ömrümüzlə qoşadır hər gün.
Vurğunu ucaldan xalqım, Vətənim
Özünü ucaldır, yaşadır hər gün.

O NİYƏ QOCALDI?

Vurğunun saçları vaxtsız ağardı,
Gümüş dalğalar qondu başına.
Yüz yaşlı qocaya bənzəri vardı,
O qədəm qoyanda əlli yaşına.

Dağ deyil, zirvəsi qar görməyən dağ,
Gərək sahibinə ad halal olsun.
Vaxtsız qocaldı ki, vaxtından qabaq
Vurğun şerimizdə ağsaqqal olsun!

QƏLBİMƏ ADIN YAZILIB

Sənə söz çələngi hörürəm, ustad,
Qəlbimə silinməz adın yazılıb.
Səni öz evimdə görürəm, ustad,
Başımın üstündə şəklin asılıb.

İllərlə səsini dinləməsəm.də,
Gözlərin ən yaxın həmsöhbətimdir.
Mən sənə yaraşan söz deməsəm də.
Qəbul et, ruhuna məhəbbətimdir.

ŞÖHRƏT

Adam var şan-şöhrət qonaqlığında,
Elə məst olur ki, ayılmır qəti.
Yüz tərif eşidir öz sağlığında,
Ömrü bitən kimi, bitir söhbəti...

Artır gündən-günə adın, hörmətin,
Hər tablon zirvədir-qanaddır sənə.
Hələ ehtiyatda qalan şöhrətin
Bil ki, ölməzlikdir, həyatdır sənə.

HEYKƏL QARŞISINDA

Zəmanə şahları endirib taxtdan,
Şeri qartal tək qaldırıb göyə.
Şeir oxuyuruq ona bayaqdan,
Yazanlar cərgəylə durub növbəyə.

Hərənin əlində bir dəstə kağız,
Deyirik nə gəldi xəyalımıza.
Yaxşı ki, heykəldir şair babamız,
Eşidə bilsəydi, vay halımıza!

XƏYAL VƏ HƏQİQƏT

Bir vaxt xəyalında yuxu tək şirin
Bir aləm yaradıb "İqbalnamə"də.
Bir gün bacarsaydım ölməz şairin
Gözünü açardım bir an, bir vədə.

Deyərdim: – Seyrə çıx təzə Gəncəni,
Vətəndə yaranır öz cənnətimiz.
Ay ustad, bir şeydə ötmüşük səni:
Xəyaldan gözəldir həqiqətimiz.

SƏNƏTİN MƏCNUNU

İlahi eşq ilə alışıb yandın,
Qəlbin öz odundan gileyli oldu.
Gözəl təbiətə Məcnun yarandın.
Hər sənət əsərin bir Leyli oldu.

Daş da dilə gəlib dedi: – Məni çək,
Dağlar örpəyini atdı başından.
Üzünə nur qondu, izinə çiçək,
Vətən torpağının hər qarışından.

ŞAİRİN HƏDİYYƏSİ

Şair saatını açıb qolundan,
Sənə bağışlayıb dedi sözünü:
Əqrəblər qolunda səslənən zaman,
Dinlə ürəyimin döyüntüsünü.

On beş il onunla ölçdün həyatı,
Dedin: – Dost bəxşişi ömrü uzadır.
...Muzeydə görürəm həmin saatı,
Onun ilk sahibi Rəsul Rzadır.

YAMANLIĞA YAXŞILIQ

Təbiət gözəllik vermədi sənə,
Həmişə gözlərin qəmə büründü.
Bir ürək bəxş etdi odlu sinənə,
O ürək əlində firçaya döndü.

Sən də əvəz çıxıb kamına çatdın,
Bu "pislik" hamının gəlməz əlindən.
Onu özündən də gözəl yaratdın,
Təbiət utansın öz əməlindən.

RUHUN ŞAD OLSUN

Dedi məzarımı kəndimdə qazın,
Yanıma bir firça qoyun, bir çiçək.
Adicə bir daşa adımı yazın,
Xətrimi istəyən özü gələcək...

Qələm çək hər dərdin, əzabın üstə,
Fırçan intizardan qoy azad olsun.
Heykəlin ucalıb məzarın üstə,
Səttar Bəhlulzadə, ruhun şad olsun!

FƏRQİMİZ

On beş dekabrda sən doğulmusan,
Ay ustad on altı dekabrda mən.
Sən dillər əzbəri rəssam olmusan,
Yazıram-pozuram xırda-xırda mən.

Həyatda fərqimiz bircə gün imiş,
Sənətdə fərqimiz yerlə göy qədər.
Bu şöhrət halalca qismətin imiş,
Səttar əbədidir, mən gəldi-gedər.

DİL PƏHLƏVANI

Ağzı köpüklənir uca kürsüdən,
Söyləyir: – Canım da qurbandır sizə.
Hazıram bu geniş ürəyimdə mən,
Minnətsiz ev verim yüz-yüz evsizə.

Onun boş ürəyi kimə gərəkdir?
Deyirlər şəhərdə beş otağı var.
Yaş ötüb, vaxt keçib, özü də təkdir,
Birinə yer versə ürəyi partlar.

GÜZGÜDƏ GÖRDÜYÜM

Oğlum gözlərini dikib güzgüyə,
Şövq ilə darayır şəvə telləri.
Mən də ağ saçımı görməyim deyə,
Güzgüyə baxmıram illərdən bəri.

Onun şax qaməti ucalığımdır,
Mən rişə, o mənim yaşıl budağım.
Güzgüdə görürəm qocalığımdır,
Oğlumda gördüyüm cavanlıq çağım.

ONUN MƏZARI

Döşünə döyərdi o kürsülərdə,
Əliylə sinəsi əlbəyaxaydı.
İş vaxtı üzünü görməsələr də,
Gərək hər iclasda səsi çıxaydı.

Bir gün o çıxmadı söz güləşinə,
Dərdinə nə dərman, nə kömək oldu.
Dedilər, o qədər döydü döşünə,
Axırda ürəyi döyənək oldu.

HAVA QULDURLARI

Hava quldurları yaman çoxalıb,
Yerin caniləri qalxıb göylərə.
Sükanı pilotun əlindən alıb,
Sürür təyyarəni özgə bir yerə.

Torpağa enməsə göyün ah-vayı,
Quldurlar göyü də tutub soyarlar.
Bir gün oğurlayıb Günəşi, Ayı,
Dünyanı işığa həsrət qoyarlar.

TƏRİF-TƏHQİR

Əvvəl tərifladın məni bolluca,
Gördüm yavaş-yavaş xərifləyirsən.
Ağzını ayırıb sən üsulluca,
Bir ucdan hamını tərifləyirsən.

Tabaqdır yüz başa qoyulan bir tac,
Onu yerə salıb ayaqlayıram.
Yüz il tərifə qalsam da möhtac,
Ucuz tərifini təhqir sayıram.

ŞÖVKƏT ƏLƏKBƏROVAYA

Oxudun "Qarabağ şikəstəsini",
Ürəyim alışıb yandı közünə.
Yağdırdım başına gül dəstəsini,
Döndü geniş salon Cıdır düzünə.

Mən bir uşaq oldum, sən də bir cavan,
Təzədən yaşadın xoşbəxt ömrünü.
Ordan Vaqif gəldi, burdan Natavan,
Çatdı Qarabağın toy-bayram günü!

ŞUŞANIN ŞƏHƏR BAĞINDA

Xan Şuşinskinin xatirəsinə

Burda qəlyanını tüstülədərdi,
Arabir muğamat deyərdi pəsdən,
Bu yaşıl kürsüdə fikrə gedərdi,
Durnalar uçanda başının üstdən.

Həmin bu kürsünün rəngi də solsa,
Nəsildən-nəsilə qalsın yadigar.
Şuşada ikinci bir Xan doğulsa,
Burda əyləşməyə ixtiyarı var.

FƏLƏSTİN XALQI

Bir adam didərgin düşsə vətəndən,
Qurbət əzabıyla köksü dağlanar.
Yurduna can atar son nəfəsəcən,
Qəbri də vətənsiz od tutub yanar...

Bir millət elliklə düşüb qürbətə,
Yurdunda at çapır gəlmələr, yadlar,
Xalqlar necə dözür bu cinayətə?
Bir xalqı vətənsiz qoyub cəlladlar!

HARA YAZAQ?

Uşaqlıqdan bilirəm ki, Yer kürəsində
Neçə faiz quru yer var, neçə faiz su
Çox görsəm də bunu dünya xəritəsində,
Bircə şeyə mat qalmışam doğrusu:

Düz ölçdünüz dənizləri, okeanları,
Ancaq əsl həqiqətdən düşdünüz uzaq.
Ey alimlər, su yerinə axan qanları
Unutdunuz, bunu hansı hesaba yazaq?..

QIFIL

Düzlüklə döyünsün qəlbi hər kəsin,
Hamı halal gözlə baxsın həyata.
Muzey qapıları qıfıl görməsin,
Dönsün qıfıllar da eksponata.

Ancaq nəs dillərin, yad avazların,
Önündə qapısı bağlı hasaram.
Qeybət qıranların, boşboğazların,
Ağzından ömürlük qıfıl asaram.

ATILMIŞ ÇÖRƏK

Əlimlə didərdim çörəyi hərdən,
Elə ki, yeməkdən gözüm doyardı.
Atam tikələri götürüb yerdən,
Öpüb gözlərinin üstə qoyardı...

İndi bir ağsaçlı atayam mən də,
Xəyalən baxıram həmin gözlərə.
Yollarda atılmış çörək görəndə,
Sanıram gözlərim tökülüb yerə.

BACI-QARDAŞ

Kənddə bir tanınmış həyət-baca var,
Burda günlər keçir sakit, mehriban.
Bir ana, bir oğul, iki qoca var,
Onu mən qocaltdım, məni də dövran.

Bir yerdə gedirik xeyirə, şərə,
Cavanlar düşünür: – Yəqin həmyaşıq.
Bacılar köçəndə özgə evlərə,
Anamla bir evdə bacı-qardaşıq.

XƏZƏR ÇİMƏRLİYİNDƏ

Nədir ürəyimi burda incidən? –
Çimərlik qapqara, sahil natəmiz.
Xəzəri ayırmaq olmaz zəncidən.
Bu mavi dənizdir, ya Qara dəniz?

Hər ləkə qonanda sular qabarır,
Mazutlu div kimi pəncələşirik.
Zəncilər Bakıda gəlib ağarır,
Biz burda qaralıb zənciləşirik.

UŞAQ VƏ DƏNİZ

Gün çıxır, od tutub yanır üfüqlər,
Dəniz də qızınır göyün odundan.
Qızıl balıq kimi qızıl şəfəqlər
Üzür ləpələrin göy qanadında.

Qızarmış oğlumun gül yanaqları,
Bu gözəl səhnədən o göz çəkməyir.
İstəyir yerisin sulara sarı,
Ləpə imək̈leyir, o imək̈leyir.

Xurmayı saçını dağıdır külək,
Qəlbinin inadı oxunur üzdən.
Bir istək aparır, onu bir istək:
Qızıl şəfəqləri alsın dənizdən.

Güclənir, hay salır bu an ləpələr,
Qoparmaq istəyir o, duran yeri.
Sahilə şir kimi cuman ləpələr,
Sahildən quzu tək qayıdır geri.

Qıvrıla-qıvrıla cumur təzədən,
Tumbul əllərində sıxılıb qalır.
Elə bil yorulub mübarizədən,
Sular ayağına yıxılıb qalır.

Meh yatır, dənizə al şəfəq düşür,
Yüyürüb gəl deyir, o yenə gəlmir.
Əl atır, ovcundan çıxıb sürüşür,
Bu necə balıqdır əlinə gəlmir?..

Gözündə qorxudan yoxdur bir əsər,
Qalxır, ləpələri qaldırsın deyə.
Köksündə gəmilər oynadan Xəzər,
Oyuncaq görünür dilsiz körpəyə.

GÖZÜN GÖTÜRMÜR

Mən atəş, sən quru, soyuq taxtasan,
Kükrəyən ilhamı gözün götürmür.
Sısqa bulaq kimi künc-bucaqdasan,
Dənizəm, dalğamı gözün götürmür.

O qədər qanına keçib xəbislik,
Elə bilirsən ki, yaxşıdır pislik.
Fitnədən yazarsan bütöv bir dərslik,
Ancaq bir misramı gözün götürmür.

Hər şerim çıxanda yanıb-yaxırsan,
Bir təbrik sözünü qızırqanırsan.
Şeir canandır ki, sən qısqanırsan!
Niyə sevir hamı, gözün götürmür!

İlan tək qıvrılıb əzab içində,
Ürəyin boğulur çirkab içində.
Zəhərsən örtülü bir qab içində,
Şərbət dolu camı gözün götürmür.

Bəd gündə yadına bu həmyaş düşür,
Baxırsan, gözündən hətta yaş düşür.
Xoş gündə başına niyə daş düşür!
Mənə ehtiramı gözün götürmür.

Sən də yaz, şerini el xəbər alsın,
Gözün qaralmasın, kağız qaralsın.
Öz qələm yoldaşın bir yana qalsın,
Ömər Xəyyamı da gözün götürmür.

Heyif ki, olmadın qanıb-qandıran,
Dünyada yox səni bir inandıran.
Məni zirvələrə qanadlandıran
Məsləki, inamı gözün götürmür.

İndi qızıl minir öz qiymətinə,
Sənin tək baqqallar düşüb çətinə.
Kor qalıb bugünkü həqiqətinə,
Belə bir əyyamı gözün götürmür.

Əl götür bu özgə paydan, mənimdir,
Nə gəlsə ulduzdan, aydan, mənimdir.
İndi fürsət mənim, meydan mənimdir,
Bu fikri, məramı gözün götürmür.

Sən dosta xəyanət, mən dəyanətəm,
Dostlarla doludur dövrəm, əhatəm.
Ay canlı nekroloq, ay üzü matəm,
İşıqlı dünyamı gözün götürmür.
Sən gəda, mən sənət mülkündə hatəm,
Bu Tofiq Bayramı gözün götürmür.

MİLLƏTİN GÜL BALASI

Gül çıxıb ceyran belinə,
Qızğın alver gedir, tələs.
Mişar alıb tez əlinə,
Ağacları doğrayıb kəs.
Əncir, üzüm baldan şirin,
Amma deyil puldan şirin.
Puldur həyat, puldur həvəs
Dedin: – Ay baş, düşün dərin:
Yüz tənək bir gülə dəyməz!

Yarpaqları bir-bir yoldur.
Sən qaz vurub, qazan doldur.
Qoy bilinsin adın, yerin
Gülün çoxsa, pulun boldur.
Şitillikdə əyil, bükül,
Bura sənin Məkkən, Pirin.
Sübhə kimi dağıl, sökül
Qaralsa da ağ ciyərin
Ud zəhəri, alma nəfəs,
Pula dönüb, cibə tökül.
Desinlər ki, bu oğuldur.
Bir dəst puldur, hər dəstə gül,
Millətimin gül balası!

Altda "Volqa", əldə sükan,
Siqnal səsi düşsün kəndə.
Sür, gözləyir bazar-dükan.
Bir bank pul var hər ləkində.
Barmaqların tikan-tikan,
Əl-ayağın kündə-kündə.
Qoy pozulsun səndəki qan,
Təki qazanc gəlsin gündə,
Pul qalandır, pul istehkam
Pul cücərir gül əkəndə.
Bu dünyadan alırsan kam,
Yerin də bir cənnət məkan.
Pəhləvansan öz çəkində,
Bir-birinə aləm dəyir,
Vücuduna dəymir təkan.
Çöllər yanıb inildəyir,
Dil uzadıb – su ver, – deyir.
Nə quyusan, nə də kənkan.
Bir tükün də tərpənməyir,
Dağılsa da yüz Mərdəkan.
Ye kababı, həzm et, gəyir,
Gül suyu iç bir stəkan,
Millətimin gül balası!

Alimlər var, sındırar baş,
Bəxşiş, rüşvət alan deyil.
Ağarır saç, dolanır baş
Amma cibdən qalan deyil.
Aldıqları aylıq maaş
Bir bazarlıq pulun deyil.
O borş yeyir, sən yağlı aş,
Bu doğrudur, yalan deyil.
O buzlu ət nədir, qardaş
Gülçü onu alan deyil.
Balıq sudan çıxır yaş-yaş,
Dərdin-sərin talan deyil.
Onda kitab, səndə daş-qaş,
Mənzili bir zalın deyil.
Sən oxuyub olma çaş-baş,
Bu yol, sənin yolun deyil.
Gir toylara yağdır şabaş,
Deməsinlər kalan deyil.
Əlliliyi tulla bir baş,
O kiflənib qalan deyil.
İçib-keflən, həddini aş,
Xeyir işdə sal ixtişaş.
Toy bəyi saç yolan deyil,
Səhər açıl, gözündə yaş.
Dost-tanışa bir-bir yanaş
Üzr istə yavaş-yavaş,
Altdan bir daş, üstdən bir daş.
Rəhimə gəlib qohum-qardaş
Desin gönü qalın deyil, –
Millətimin gül balası.

Bəh, bəh, bazar qiymətidir!
Varsan bu cür basa-basa
Ah, nə gözəl ticarətdir,
Müştərilər gəlib tasa.
Bəzəsinlər sifətinə
Gül sarısı töküb sanki,

Biri toya, biri yasa
Ayıbdır gül aparmasa.
Gül də ki, od qiymətinə!
Pulu göydə sayansan ki,
Heyran qaldım sənətinə.
Pullar yağır, sellər kimi,
Dama-dama göllər kimi.
Ciblər şişir fillər kimi,
O qan verir can ətinə.
Satdığın tər güllər kimi.
Təbərriksən bu vətənə,
Millətimin gül balası!

Baxıb sənə fağır-fağır,
Söz demərəm güldən ağır,
Əl gül əkir, əl pul satır.
Ay gül alan, – deyib çağır,
Şerim paydır xidmətinə,
Millətimin gül balası.

ÇİÇƏKLƏR

Salmayın fikrimi qəribliyə siz,
İnanın, harda ki, şair sözü var.
Hazıram and içib deyim ki, şəksiz
Bütün çiçəklərin görən gözü var.

O gözlər dikilib gözlərimizə,
Bizimlə bir görür baharı, qışı.
Yüz sirli, mənalı söz deyir bizə
Açılan güllərin qönçə baxışı.

Cavanlıq çağımda, girdim çəmənə,
Yığdım qucağıma bir dəstə çiçək.
Onlar məlum-məlum göz dikib mənə,
Elə bil dedilər: – O gəlməyəcək.

Gözlədim, özümü yandırıb-yaxıb,
Gülləri saraltdı sinəmin ahı.
Onlar da mənim tək yollara baxıb,
Dindilər: – Bizlərdə görmə günahı.

Yolub çiçəkləri səpdim yerə mən,
Torpağa döşəndi çəkdiyim dərd-qəm.
Nə danım, indi də xəcalətimdən
Güllərin gözünə baxa bilmirəm.

Elə ki, dərd sıxır bizi nar kimi,
Ümiddən, gümandan əllər üzülür.
Güllər də ağlayır insanlar kimi,
Qəmli gözlərindən şehlər süzülür.

Birimiz həyatla vidalaşanda,
Bizi yola salır güllər, çiçəklər.
Gəlib arxamızca mənzil başında,
Yetim tək boynunu bükür çələnglər.

Elə ki, qurtarır bağların barı,
Yarpaqlar saralıb düşür torpağa.
Güllər yada salıb ötən baharı,
Büzüşüb həsrətlə baxır uzağa.

1970

ALQIŞ DEYİM

Alqış deyim bu torpağın nemətinə,
Elin halal qismətinə alqış deyim.
Ürəklərin birliyinə, vəhdətinə,
Hünərinə, zəhmətinə alqış deyim.

Bu zəfərin işığıyla gözlər nurlanır,
Qürurlanır insan oğlu uca dağ kimi.
Ana vətən gözəlləşir, ellər varlanır,
Qızıl payız nübarlıdır ilk bahar kimi.

Mərd əllərin öz zəhməti, öz varıyla,
Bir millətin qeyrətini bilmək olar.
Ovucların işıq saçan qabarıyla,
Günəşdəki ləkəni də silmək olar.

Bu əllərin hünərinə alqış deyim,
Onlar bizim şöhrətimiz, dayağımız.
İgidlərin hər birinə alqış deyim,
Başdan-başa bərəkətdir torpağımız.

Uçum qartal qanadında xoş xəbərin
Muğanımı, Mil düzümü alqışlayım.
İstəyirəm mərd qızlara bu göylərin,
Ən işıqlı ulduzunu bağışlayım.

Cavanların zəfər dolu yürüşünə
Yol göstərən qocalara alqış deyim.
Vaxt tapmayıb bulaq üstə görüşənə,
Məhsul yığan bacılara alqış deyim.

Körpələri evdə qalıb yol gözləyən
Gəlinlərə, analara alqış deyim.
Ağ kolları kitab kimi əzizləyən
O göyərçin balalara alqış deyim.

Xalqın şirin zəhmətini, əməyini
Ümman edən hər damcıya alqış deyim.
Məşəl kimi yandırıb öz ürəyini,
Yol göstərən sükançıya alqış deyim.

El qeyrəti damarlarda coşub-daşıb,
Elə bil ki, hər birimiz beş nəfərik.
Şəhərimlə kəndlərimlə qucaqlaşıb,
Gecə-gündüz səfərbərlik, səfərbərlik.

Bayraq rəngli, nur çələngli qələbənin,
Bəhrəsini görənlərə alqış deyim.

Bir cərgədə kəndli qızla tələbənin,
Axıtdığı halal tərə alqış deyim.

Siz ey odlar diyarının yaraşığı,
Hər birnizin çöhrəsində günəş yanır.
Yoxa çıxır alınların qırışığı,
Sizə baxıb yorğun gözlər işıqlanır.

Hər biriniz bu torpağın şah əsəri,
Hər biriniz şöhrətsiniz bu həyata
Ən sərvətli bir ölkənin sahibləri,
Layiqsiniz min alqışa, mükafata.

Qızıl taylar ucaldıqca ehram kimi,
İstəyirəm dəniz olub mən çağlayım,
Ürəyim də genişlənir ümman kimi,
İzin verin, hamınızı qucaqlayım.

İlham sizin, şeir sizin, sənət sizin,
Yer də, göy də eşqinizlə vəcdə gələr.
O mis kimi yanan isti əlinizin
Atəşindən doğulmuşdur bu kəlmələr.

Azərbaycan xoş xəbərlər məkanıdır
Azərbaycan – şadlıq yeri, toy diyarı.
Qələbələr bu torpağın ünvanıdır,
Ey insanlar, geniş açın qapıları.

Küçələrdə tar səslənsin, kaman dinsin,
Haqqımız var yallı gedib, qanad açaq.
İgidlərin səcdəsinə günəş ensin
Qədəmlərə gül səpilsin qucaq-qucaq.

Ana Vətən, qadir xalqım, gözün aydın,
Mübarəkdir bu bayramın, bu təntənən.
Alnın açıq, başın uca, üzün aydın,
Bir müqəddəs bayraq kimi ucaldın sən.

Bəxtəvərsən, başdan aşır var-dövlətin,
Bərəkətin dəniz-dəniz aşıb-daşır.
Ana Vətən, ağ qızılın, bol sərvətin,
Gözün aydın milyon tona yaxınlaşır.

Alqış deyim bu arzuna, niyyətinə,
Övladların qüdrətinə alqış deyim.
Ana torpaq, dünya gəzən şöhrətinə
Alqış deyim, alqış deyim, alqış deyim.

1978

CAVİDİN MƏZARI

Qəlbimizdə xəlvəti
Çəkdik ahu-zarını,
Səsinə həsrət qaldıq
Şairlər yığnağında,
Yağıdan gizlədib
Onun söz gülzarını,
Şerini pıçıldadıq
Dodaqaltı, xəlvəti.
Axır ki, itkin saldıq
Bu qorxu azarını.
Yıxdıq qəmin, həsrətin
Quşqonmaz hasarını
Ölümünə qol çəkən
Rütbəli alçağın da,
Alçağa yançağın da
Bağladıq bazarını.
Biz də qeyrətə gəldik
Dünyanın düz çağında
Qırx il donub buzlayan
Cavidin məzarını
İsidib nəfəsimizlə
Əritdik buz qarını.
Hər çiçəyin telində,
Hər gülün saçağında,
Hər ürəkdə bəslədik
Onun laləzarını.

MÜŞFİQİN MƏZARI

İndi suyun altında,
Torpağın qucağında
Gəzirik şerimizin
Cəh-cəh vuran tarını.
Hər qaya kölgəsində,
Hər divar uçuğunda
Gecə-gündüz axtarıb
Onun son gülzarını,
Hər şeir məclisində
Hər sənət ocağında
Otuz yeddidən bəri
Çəkib intizarını,
Ha gəzirik, tapmırıq
Müşfiqin məzarını.
O harda itgin düşüb?
Harda yerə quylanıb?
Atsaydılar quyuya,
Fantan olub çıxardı.
Daş çöksəydi üstünə,
Yer altından haylanıb
Vulkan təki püskürüb
Sal daşı da yıxardı.
Bir səhraya düşsəydi,
Damcı-damcı paylanıb,
Cadar-cadar torpağa
Çeşmə-çeşmə axardı.
Tək qalsaydı, ölümün
Üstünə qulaylanıb
Əzrayılı oduyla
O, yandırıb, yaxardı.
Yeri məlum olsaydı,
Ruhu yerdən boylanıb,
Bir çiçəyin gözüylə
Dilbərinə baxardı.
Bu gözün qarasında,
Bu saçların ağında

Görərdi eşqi yetim
Yüz-yüz ərsiz qarını.
Başı dərdli, bəlalı
Otuz yeddidən bəri
Çəkib intizarını,
Hər şeir məclisində
Hər sənət ocağında
Ha gəzirik, tapmırıq
Müşfiqin məzarını.
Zamanın külәkləri
Onu hara apardı?
Varmı elə bələdçi
Ünvanını izləyə?
Onun çılğın ürəyi
Dəniz kimi qalxardı,
Gömülsəydi torpağa,
Dözməzdi səssizliyə.
Bir alıcı quş olub
Hökmən bizi tapardı.
Qoymazdı həsrətlilər
İllərlə yol gözləyə.
Sükunətin qoynundan
Bir gün tufan qopardı,
Əbədi son qoyardı
Bu gedər-gəlməzliyə.
Yenə söz meydanında köhlənini çapardı.
Şairləri çağırıb
Sədaqətə, düzlüyə.
Bəlkə qalxıb göylərə?
Günəşdəki ləkəni
Şeriylə təmizləyə?
Sənətin Müşfiq adlı
Bir möcüzəsi vardı
Yerlər köksünə dardı.
O, yenə var! –
Yer onu
Bizdən çətin gizləyə.
Axı bu nə ayrılıq,

Bu necə dərd-qübardı?
Gərək hamı qəlbində
Bu inamı bəsləyə:
Onsuz şeir tarımın
Sarı simi qopardı.
Yox, yox, Müşfiq ölməyib,
Qovuşub ölməzliyə!
İtgin salıb illərin
Ağır intizarını,
O, yaşayır,
Gəzməyək
Müşfiqin məzarını!

NEKROLOQ

Mən bir dost itirmişəm
Gözlərim görə-görə.
Bu itkidən ürəyim
Olub yanar bir kürə.
Mən bir dost itirmişəm
Harda?
Döyüşlərdəmi?
Soruş onun məzarı
Kənddəmi, şəhərdəmi?
Soruş necə itibdir?
Dənizdəmi qərq olub?
Bəlkə qızmar sobada
Yana-yana qovrulub?
Bəlkə uçquna düşüb.
Bəlkə boranda itib?
Dağlara yol çəkəndə,
Körpü quranda itib?
Bu suallar gərəksiz,
Bu şübhələr nahaqdır,
Mən bir dost itirmişəm,
Dostum ölməyib, sağdır.
Nə xəstədir, nə şikəst.
Mən bir dost itirmişəm,

Bu necə itkidir bəs?
Ölsəydi, ağlayardım,
Məzarını hər axşam
Öpüb qucaqlayardım.
Kor olsaydı gözləri,
Verərdim gözlərimi,
Köməyə çağırardım
Bütün əzizlərimi.
Yox, onu nə cəbhədə,
Nə qürbətdə itirdim.
Nə zülmətdə itirdim,
Nə xəlvətdə itirdim.
Nə uzaq bir ölkəyə
Səyahətdə itirdim.
Onu həyatda tapıb,
Kabinetdə itirdim.
Mən itirdim,
O tapdı.
Tapdı ad-san, vəzifə,
Mən itirdim, mən yandım,
O yanmadı bir dəfə.
Tapdığına sevindi,
Böyüdü, qürrələndi.
O, vəzifə gücünə
Yüz-yüz dost tapıb indi.
(Vəzifə, ay vəzifə,
Səndəki hünərə bax:
Rentgen göstərmədiyi
Ən gizli nöqtələri
Sən göstərirsən ancaq)
Mən bir dost itirmişəm,
Bir vaxt qəlbi təmizdi.
Ona mərdlik, səadət
Canımdan da əzizdi.
O mənimlə həmfikir,
O mənimlə həmnəfəs,
O mənimlə sirdaşdı.
Hanı o dost, hanı bəs?

Hanı o dost?
Oğlum da
Onu məndən soruşur.
Gedər-gəlməz əmini
Hər gələndə soruşur.
Soruşur:
– Hər gün məni
Qucub-öpən hardadır?
Ata, ilk qədəmimə
Çiçək səpən hardadı?
Niyə bizə gəlmir o,
Hardadı uşaqları?
Anam da hey soruşur:
– Hanı dostun, ay oğul?
Bəlkə əhdi, ilqarı
Özün pozdun, ay oğul?
Mən ki, onu heç zaman
Səndən ayırmamışam.
Yaman könlüm istəyir,
Qoşa gəlin bu axşam.
Sizə plov bişirrəm,
Dost nədir, küsmək nədir?..
Gah xəstədir deyirəm,
Gah da uzaq səfərdə.
Gözlərim görə-görə
Məndən çox uzaqdadır.
Onun gülüşü saxta,
Danışığı saxtadır.
Nə qədər desən "incə"
Nə qədər desən "nəcib"
O qədər "incəlib ki",
O, vəzifə başına
"İynə gözündən" keçib
Mən bir dost itirmişəm,
Sinəmdə daş asılıb.
Üzəyimin başına,
Nekroloqu yazılıb.

1971

VƏSİYYƏTİM

Həkimimə yalvarın, bədənimi yarmasın,
Həkimimə yalvarın, hay haray qoparmasın.

Ölümüm nə ciyərdən, nə ürəkdən olubdu,
Həkimim belə desə, bilin ki, yanılıbdır.

Deməyin ki, öldürən siqar, ya araq oldu,
Gecəni sübhə kimi, yazıb, yaratmaq oldu.

İnanmayın, dostlarım, dostlarım, inanmayın,
"Özünə qəsd etdi o, əfsus", deyib yanmayın.

Mən yaşayardım hələ, mən düşünərdim hələ,
Qəsd eləyə bilməzdi ömrümə dərdim hələ.

Mən vuruşardım yenə vicdanını satanla,
Hər rütbəli nadanla, maskalı şarlatanla.

Şəfa tapardım hələ övlad təbəssümündən,
Silkələnib çıxardım ölümün tilsimindən.

Araz üstə körpünü çiynimlə parçalardım,
"Sərhəd məftillərində bu kobud əllərimlə
bir muğamat çalardım",

Fəqət mənimki bitdi, dostlar, bir qulaq asın:
Həkimimə yalvarın, bədənimi yarmasın.

Axı, mənim dərdlərim sizə bəllidir ancaq,
Matəm mərasimində nitqlər çox olacaq.

Məni boğan bir alçaq, tərif söyləsə əgər,
Ona aman versəniz, ruhum vulkan püskürər.

Tabutuma dəyməsin bir iblisin əlləri,
Canfəşanlıq etsə də onu qaytarın geri.

Demirəm açıq-saçıq danışın dərdlərimdən,
Sizə baha oturar, onsuz da ölmüşəm mən.

Lakin bir bunu deyin: yalanlara dözmədi,
Cabbarlının, Müşfiqin halal mükafatını
Ləkəli əllərilə alanlara dözmədi.

"Qaytar Əli borcunu", – bağırdı bir idbara –
Səssiz güllələr atıb onu saldılar dara.

Deyin, dostlarım, deyin: – Nöqsanları da vardı,
Bu rəhmətlik arabir hissə də qapılardı.

Bir rütbəli, alçağa, yalançı ağsaqqala
Yersiz təriflər qoşub Allah, dedin az qala.

Sonra da əzab çəkdi, ondan küsdü təbi də,
Bəlkə vaxtsız ölümün buydu bir səbəbi də.

Deyin bir az kobuddu, tündməcazdı rəhmətlik,
Nadanlara həmişə atəş açdı, rəhmətlik.

Ürəyi dolu gəzdi, hey boş oldu cibi də,
Bəlkə vaxtsız ölümün buydu bir səbəbi də.

Deyin, dostlarım, deyin, siz yaxşımı, pisimi,
Siz yaşadın ruhumu, siz ucaldın səsimi.

Həkimimə yalvarın, bədənimi yarmasın,
Həkimimə yalvarın, hay-haray qoparmasın.

Kimlər duya bilərlər azarımı, dərdimi?
Susdurulmuş bir ürək sağala bilərdimi?

Mən çağıra bilmədim hamınızı yanıma,
Qıymadım dözəsiniz bu ayrılıq anına.

Demirəm qəbrim üstə gəlin güllə, çiçəklə,
Ürəyiniz olmasa, gəlməyin mən deməklə.

Təkcə bir diləyim var: olsam da daş qəfəsdə,
Əlinin məzarından bir ovuc torpaq səpsin
Mənim qəbrimin üstə.

Yerimiz ayrı, uzaq,
Qoy bizi qovuşdursun bir ovuc qara torpaq.

Gəlin, məzarım üstə, gəlin bizə ağlayın,
Bir məzarın başında ikimizə ağlayın.

1978

BOYALI ƏLLƏRINDƏ

Tutduğun pediküldə
Ətriyyat zavodu var:
Bu "Roza", "Podaroçnı",
"Serenada",
Bu "Karmen"
Daha başqalarını bilmirəm
nə adı var.
Yüz tənə eşitsən də
Pozmayırsan halını,
Mühazirə dinləmir,
Keçirirsən nəzərdən
"Modalar jurnalı"nı,
Elmdə yaratdığın
"Yenilikdən, kəşfdən"
Bir söz desəm pis olmaz:
Deyirsən ki, Nəsimi
Məşhur tənqidçi olmuş,
Sabir böyük dilşünas.
Təzə qəzet oxumaq
Ancaq bir məqsəd üçün
Gəlib düşəcək yada:
"Nizami" kinosunda

Görən nə gedəcəkdir?
Hansı tamaşa vardır
Görəsən dramada?
İmtahan günlərində
Bəzən sadə çit paltar
Geyinən yoldaşların,
Lakin saf ürəyilə, nurlu
gələcəyilə,
Öyünən yoldaşların
Vaxt tapmayır sənin tək,
Aynalar qarşısında
Saatlar itirərək
Saçlarını daraya,
Sənsə ortada yeyib,
kənarda gəzişərək
Sadiq "dayılarını"
Çağırırsan haraya...

Ey sən,
Zoyanın, Koşevoyun
Eşqini sinəsində
Qəlbi tək daşıdığı,
Yolunda can verdiyi, adıyla
yaşadığı,
Müqəddəs bir diyarda
Yaşayan qız!
Ərköyün uşaq kimi
Əzilib-büzülməyə yoxdur bizim
haqqımız!
Ağ gündən, səadətdən
Nəfəs alıb yaşayan
Bizim həyat şirindir
Böyük əmək eşqilə başa
çatan hər saat.
Sənin o "incəliklə" keçən bütün
ömründən
Azı yüz qat şirindir.

RƏQİBSİZ

Aqillər mehriban, nadanlar sərtdi,
Bircə gün olmazdı evi təbibsiz.
Şeirdə rəqibi yalnız Səməddi,
O getdi, meydanda qaldı rəqibsiz.

Tarixə yazıldı o, yaza-yaza,
Ölməzlik qazandı can bahasına.
İndi nə Vurğun var, nə də Rəsul Rza,
Düşmüşük dahilik iddiasına...

VAHİDİN XATİRƏSİNƏ

Sən şeir zərgəri, söz pərgarısan,
Çətin ki, bu addan yüksək ad olsun.
Babam Füzulinin yadigarısan,
Ey ölməz qəzəlxan, ruhun şad olsun!

Xoşbəxtsən, gör adın çəkilir harda!
Hər sözün məclisə verir yaraşıq.
Dillər əzbərisən toyda, mağarda,
Qəlblərə məlhəmsən, gözlərə işıq!

RÜBABƏ MURADOVANIN XATİRƏSİNƏ

Yanıqlı nəğmələr oxudun bizə,
Arabir göz yaşı boğdu səsini,
Getdin, həsrət qaldın ana Təbrizə,
Uddu qara torpaq qəm nəğməsini.

Bəxtin qara gəldi, ay "Qara gilə",
Bilirəm, dövrandan gileyli oldun.
Döndün yana-yana bir ovuc külə,
Vətən – dərdli Məcnun, sən Leyli oldun.

MAESTRO NİYAZİNİN XATİRƏSİNƏ

Göz yaşımı qarışdırıb mürəkkəbimlə,
Qulaq asıb ürəyimin fəryad səsinə.
Mən ilk dəfə əlbəyaxa olub təbimlə,
Söz gəzirəm Niyazinin xatirəsinə.

Əlim gəlmir, barmaqlarım qopur qələmdən,
Təntiyirəm, sanki ağır dağlar aşmışam.
Axı, bir vaxt "Rast"ın şirin sədasıyla mən
Bir gecədə Niyaziyə dastan qoşmuşam.

Ağlamaqmı, təskinlikmi son əlacımız?
Qara getdi, Fikrət getdi, dərdim çox oldu.
Azərbaycan musiqisi şöhrət tacımız, –
Bir qiymətli daşı vardı, o da yox oldu.

Dahilərin qənimidir amansız əcəl,
O susdurdu qartal səsli bir sənətkarı.
Görün kimə əl uzatdı o qansız əcəl:
Köçdü ölməz Üzeyirin son yadigarı.

Yayın günü qəlbimizə çökdü qar, boran,
Sinəmizdə kitab oldu dərd varaq-varaq.
Milyon-milyon ürəklərdə tufan qoparan,
Bu əlləri biz torpağa necə tapşıraq?

O musiqi ümmanıydı, əvvəli-sonu
Görünməzdi, gecə-gündüz qaynayıb, daşıb.
Mən ağlıma sığışdıra bilmirəm bunu:
Ümman kiçik bir tabuta necə sığışıb?..

Nəğməkarlar yetim kimi sinəsi dağlı,
Bəstəkarlar sərkərdəsiz qalan qoşundur.
Çiyinlərdə aparılan qara fraklı,
Qanadları qəfil sınan qaranquşumdur.

Yer üzündə, öz kəndində, öz mahalında
Qüdrətiylə daş dil açar, dağ titrəyərdi.
Çubuğunu qaldıranda pultun dalında,
Azərbaycan başdan-başa nəğmə deyərdi.

Əfsuslar ki, o əlvida deyib həyata,
Ağrıları bütün xalqın canına gəlib.
Musiqimin Koroğlusu Üzeyir ata,
Musiqinin xan Eyvazı yanına gəlib!

Gərək onu gözüm görə, dilim səsləyə,
Hünər, şöhrət zirvəsidir sənət dağında
Ö ölümə qılınc çəkib, ölümsüzlüyə
Əbədilik qovuşmuşdur öz torpatında!

1984

FİKRƏT ƏMİROVUN XATİRƏSİNƏ

Sən sənət zirvəsini
Fəth eləyən qartaldın.
Əfsus, səni də əcəl
Xalqın əlindən aldı.
Günəş kim nur saçıb
Parlayanda qaraldın.
Təkcə oğlun Cəmil yox,
Musiqim yetim qaldı.
Yaslı analar kimi
Qara geydi sənətim,
Əlvida, ey Fikrətim!

Dahiləri cərgədən
Ölüm yaman qoparır.
"Kürd ovşarı"n hönkürür,
"Şur"un fəğan qoparır.
Xəzərimin sinəsi
Dərddən şişib qabarır.

Dostlar səni çiynində
Son mənzilə aparır.
"Min bir gecə"yə dönür
Hər anı bu həsrətin,
Əlvida, ey Fikrətim!

Ən layiqli əvəzsən
Üzeyirin adına.
Bircə gün də olmayıb
O düşməsin yadına.
Ən çətin imtahanda
O yetişib dadına.
Yer altında qovuşdun
Öz böyük ustadına,
Üzeyir yadigarım,
Üzeyir əmanətim,
Əlvida, ey Fikrətim!

Sən başının tacısan
Vətənimin, elimin.
Nəğmədə cəh-cəhi var
Şirin ana dilimin
Kəpəzimin qəddini
Əydi qəfil ölümün.
Qar altında qaraldı
Suları Göy gölümün.
Yasa batdı Gəncədə
Nizamiylə Məhsətim,
Əlvida, ey Fikrətim!

Azərbaycan torpağı
İstedadlar məskəni.
Bu dahilər ocağı,
Bu ustadlar məskəni, –
Nəğmə kimi köksündə
Əzizləyəcək səni.

Ölüm endirə bilməz
Ucaldığın zirvəni.
Sən ey milli sərvətim,
Vüqarım, ləyaqətim!
Əbədidir şöhrətin,
Əlvida, ey Fikrətim!

1984

KORLUQ

Deyirlər kor olub Homer əzəldən,
Gözləri seçməyib qaradan ağı.
Bircə gün qələmi düşməyib əldən,
Şerinə nur saçıb ağlın çırağı...

Ey könül, yaz-yarat, ömür-gün gedir,
Qoyma düşünməkdən beyin yorula.
O kəs bu dünyanın ən bədbəxtidir,
Onun gözü görə, ağlı kor ola.

BEZDİRMİSƏN

Avqust günəşindən boğulur nəfəs,
Tentiyib tuturuq ürəyimizi.
Nə qədər olsa da ulu, müqəddəs,
Günəş istilikdən bezdirir bizi...

Şairlər bu haqda düşünsün barı,
Çox düzüb-qoşmaqda bəhsə girməsin.
Bir gün cana yığıb oxucuları,
İlham pərisindən bezikdirməsin.

SAHİBSİZ EV

– A qonşu, bu evin sahibi hanı?
– Deyirlər evlənib, köçüb şəhərə.
– Kif atıb qapısı, uçub eyvanı,
Niyə qonaq gəlmir ildə bir kərə?

– Ey sən də söz tapdın! Az beynini yor,
Hər gün qonaqlıqda, toy-mağardadır.
Ev nədir, hələ də bilmir o nankor
Doğma anasının qəbri hardadır.

İKİ QOCA

Qoca var sinəsi geniş Mil düzü,
Adı and yeridir elin, Vətənin.
Bəmbəyaz saçları, nurani üzü
Yolunda çıraqdır gəlib-gedənin.

Qoca var qurşanıb bəd əməllərə,
Özü də utanır öz "şöhrətindən".
Anıb keçmişini gündə yüz kərə
Kömür tək qaralır xəcalətindən.

ZOOPARKDA

Bir "ovçu" ceyranı görür qəfəsdə,
Gözləri qurd kimi yanıb parlayır.
Böyründə bir xanım qolları üstə,
Bir xallı küçüyü hey tumarlayır.

İnsanlar, bəs insaf, mürüvvət hanı?
Qoşulun, hay verin bu dərdli səsə:
Qurtarın məhbəsdən yazıq ceyranı,
Vəhşi ovçuları salın qəfəsə!

MİN ŞÜKÜR

Qaz dedi qarğaya: – Çox qarıldama,
Hər səsin çıxanda ətim ürpəşir.
Ayrılıb çöllərdən səni bir dama
Saldırram, qopartma çox haray-həşir.

– Səsimiz bir gələr, – söylədi qaza, –
Biz "qa, qa" deyəndə bülbül ət tökür.
Neynərsən yanında bayquş ulasa?
Bayquşa baxanda bizə min şükür.

QAYA VƏ TƏPƏ

Qumluqdan sal qaya çıxdı bir dəfə,
Karxana küncündə atılıb qaldı.
Ona yanıq verdi kiçik bir təpə:
– Gör səni bərkliyin nə günə saldı!

Qaya cavab verdi: – Məni külünglər
Doğrayıb çarpdıqca diriləcəyəm.
Göyə sovuracaq səni küləklər,
Mənsə bir divara hörüləcəyəm!

KÜRSÜDƏ VƏ HƏYATDA

Ağzı köpüklənir yenə kürsüdən:
– Köçkünlər, canım da qurbandır sizə.
Hazıram bu geniş ürəyimdə mən,
Minnətsiz yer verəm hər birinizə.

Onun boş ürəyi kimə gərəkdir?
Deyirlər şəhərdə beş otağı var.
Yaş ötüb, vaxt keçib, özü də təkdir,
Bir qarış yer versə ürəyi partlar.

QIZIL VƏ POLAD

Qramla ölçülür qızıl həmişə,
Qapan tərəzidə çəkilir polad.
O, zövqlə taxılır barmağa, dişə,
Bu – yerdə körpüdür, göylərdə qanad.

Əyilməz bir şəxsə...
Qızıla tay olur ən xalis insan.
Bəzən poladı da döyüb əyirlər,
Qızıl ləkəsizdir, safdır hər zaman.

DƏRDİM

Gözümə gəlibdir mirvari suyu,
Kaş ki, mirvarinin özü gələydi.
Gəzdim qəmli-qəmli mən sahil boyu,
Mazutlu ləkələr gözümə dəydi.

Bunları törədib hansı bədnəzər?
Baxdıqca mümkünmü göz bərəlməsin?
Ya göz yaşım kimi durulsun Xəzər,
Ya da heç gözümə işıq dəyməsin!

BİR MÜĞƏNNİYƏ

Baxıram, ekranda par-par yanırsan,
Barmağın, qulağın brilyant, yaqut.
Bayram yolkasıtək hey fırlanırsan,
İstedad bir misqal, bər-bəzək bir pud.

Bircə zahirinə düşür işığın,
Üzsən də bir qızıl xəzinəsində.
Kaş ki, bu bəzəyin, bu yaraşığın
Zərrəcə dəyəri ola səsində.

BİR QƏBRƏ BAXARKƏN

Onun əllərinə haram pul dəyib,
Başı qarnındaymış, ağlı cibində.
Sağ ikən heç kimə xeyri dəyməyib,
Qəbri də gizlənib bir kol dibində.

Dünyada nə qədər gözəl məkan var,
Torpaq doğmalara yad olar çətin.
Harda ki, çayır var, qaratikan var,
Orda sümüyü var bir bədniyyətin.

HACI ZEYNALABDİN TAĞIYEVİN ABİDƏSİ QARŞISINDA

Ay Hacı, gəlişin mübarək sənin,
Əhsən surətini yaradan elə!
Dağıldı heykəli çox başkəsənin,
Yerdən baş qaldırıb döndün heykələ.

Sən elin dilindən qazandın rəhmət,
Yaxşılıq itməyib, düşsə də dara.
Xalqın qəlbindəki gizli məhəbbət,
Axır heykəlləşib çıxdı aşkara!

ŞİRİN SÖZ

Bəzən iclaslarda durub üz-üzə,
Sözlər yağdırırıq zəhərdən acı.
Tamarzı qalırıq bir şirin sözə,
Görək, kim ödəsin bu ehtiyacı?

Acı söz üyütsək dəyirman kimi,
Bu dərddən, azardan çətin sağalaq.
Gərək az tapılan bir dərman kimi,
Şirin sözləri də aptekdən alaq...

TORPAĞA ANDIM

Çörək doğrayırdım, bıçaq sürüşdü,
Kəsdi barmağımı yavaş, yüngülcə.
Qanımdan torpağa bir gilə düşdü,
Bir az ufuldadı yaram o gecə.

Bu Odlar diyarı yerdən göyəcən
Mənimdir, döşündən işıq əmərəm.
Bircə qarışıyçın son qətrəyəcən
Qanımı axıtsam, uf da demərəm.

QIZ QALASI

Bakıda bir qədim Qız qalası var,
Bəlkə, qalaların ən göyçəyidir.
Bir deyil, xalqımın yüz qalası var,
Bu qala onların ağbirçəyidir.

Belə ucaldarlar qız heykəlini,
O hələ min illər ucalasıdır.
Yurdumun hər sadiq qızı, gəlini
Namusda, qeyrətdə qız qalasıdır.

ŞÖHRƏT

Şöhrət bir sürüşkən, möhtəşəm qaya,
Ləl, gövhər parlayır başında onun.
Hər qalxan özünü çətin saxlaya,
Dərd olur üstündən aşanda onun.

Sürünə-sürünə qalxır ilanlar,
Qartal qanad çalıb birdən ucalır.
Orda məskən salır layiq olanlar,
Nalayiq sürüşüb dərədə qalır.

İNTİZAR

Bir göyün altında gəlib görüşən,
O iki taleyi bezar bizimdir.
Qoşa durna kimi qürbətə düşən,
O bir cüt müqəddəs məzar bizimdir.

Onların gəlməyi qalıb haçana?
El burda, dil burda, ruh bəs hardadır?
Cavidi gətirdik Azərbaycana,
Nəsimi, Füzuli intizardadır.

HƏYAT VƏSİQƏM

Həkimlər tapşırıb: – Oxuma qəti,
Gözlərin tutulur, belə yaramaz.
Oğlum da yağdırır mənə töhməti:
– Ay ata, çox yazma, yat, dincəl bir az.

Deyirəm: – Bilsəm ki, növbə mənimdir,
Yazaram, susdurmaz bu gur səsi qəm.
Ağaran vərəqlər ağ kəfənimdir,
Qaralan varaqlar həyat vəsiqəm.

ONLAR VƏ SƏN

Nizami komada yazdı,
Sən isə
Beş gözlü sarayda yazdın o ki var.
O qızıla tutdu şeri, sən misə,
Sancıldı döşünə qızıl medallar.

Füzuli qürbətdə qala bilmədi,
Yumdu gözlərini el deyə-deyə.
Beş axça bəxşişi ala bilmədi,
Bir torba pul aldın hər mədhiyyəyə.

Sabirin mazuta batdı libası,
Doldu ciyərinə his qucaq-qucaq.
Mindiyi yüz ilin kəl arabası,
Sənin qara "Volqa"n par-par, cağbacaq.

Nəsimi qürbətdə, intizardadır,
Sən öz sorağını Aydan gəzirsən.
Bilmirəm Hadinin qəbri hardadır,
Sən öz heykəlinçün meydan gəzirsən.

Doyurmu şöhrətdən gözün!
Əttövbə!
Bəlkə medalımı sənə pay verim?
Dahilər içində yaransa növbə,
Deyərsən: – Birinci sıradır yerim!

Özünə beləcə bir yol seçmisən,
Bir sözün, əsərin yoxdur yadda, yox!
Hər şeydə onları ötüb keçmisən,
Ancaq şairlikdə, istedadda yox.

Bir gün vidalaşıb əzizlərinlə,
Sonra diriləydin, dostum, bəlkə sən!
O zaman görərdin öz gözlərinlə,
Dahilər yanında sən bir kölgəsən.

"QÜRBƏT" ŞAİRİ

Bir kimsə göndərmir xaricə məni,
Şair var, yollara baxır müntəzir.
İllərlə görməyib doğma kəndini,
Hər ay bir ölkəni dolaşıb-gəzir.

Adı el içində düşüb qiymətdən,
Geyimi bahalı, şeri ucuzdur,
Bir yığın kitabla gəlir qürbətdən,
Vətəndə kitabı oxucusuzdur.

ODLAR YURDU

Mənə Odlar yurdu demiş babalar,
Odumdan əriyib qaçır boran, qış.
Hər damcı suyumdan yanır sobalar,
Hər qarış torpağım oddan yaranmış.

Görsəm ki, əsən var qarlı havada,
Ona odumuzdan bəxşiş yollaram.
Ancaq qara əllər dəysə bu oda,
Odlar arasında od tutub yanar.

VƏTƏN SEVGİSİ

Vətən! Vətən! – dedin hər kəlməbaşı,
Sözünün hər biri şirin qənd, noğul.
Canımdan əzizdir onun hər daşı,
Bunu kürsülərdən car çəkdim, oğul.

Onu əməlinlə sev həqiqətən,
Sözdə Vətən demək asandır, asan.
O zaman bəxtəvər olar ki, Vətən,
Vətənə layiqli övlad olasan!

LƏKƏSİZ GÜNƏŞ

Üzeyir Hacıbəyovun xatirəsinə

Günəşin Vətəni Yer küresidir,
Ondan həyat alan yüz-yüz ölkə var.
Göyü nurlandıran, yeri isidən,
Günəşin də üzündə qara ləkə var.

Baş əydin bir ulu müqəddəs ada
Musiqi dahimiz nurdan yoğrulmuş.
Göydəki Günəşdə ləkə olsa da
Üzeyir ləkəsiz bir günəş olmuş.

MÜŞFİQİN ADI

Azalır qəlbimdə keçmiş qəm, kədər,
Onun bu günündən söhbət açanda.
Müşfiqin yazdığı misralar qədər,
Körpə müşfiqlər var Azərbaycanda.

Onun heykəlinə göz dikib yollar,
Sürünür heykəllik daş dizin-dizin.
Bu gün Müşfiq adlı cəsur oğullar,
Canlı heykəlidir Müşfiqimizin.

BİR SƏHNƏ

Parapet bağında Hadi əl açıb,
Şerini satanda yoldan ötənə.
Kasıblar utanıb, varlılar cumub,
Alıblar gövhəri su qiymətinə.

Ah, nə ibrətamiz bir mənzərədir
Qeyzindən kükrəyir daşa da bilmir.
Bir xalqı tarixdə şair yaşadır,
Bir xalq bir şairi yaşada bilmir...

QIZIL VƏ GÜMÜŞ

İnsan dərə keçib, dağ gəzə-gəzə,
Can qoyur tapınca hər qəniməti.
Torpağın altından çıxanda üzə
Qızılın, gümüşün artır qiyməti...

Saralır ağaclar, ağarır başlar,
Təbiət rəhimsiz, ürəksiz olur...
Qızılı yarpaqlar, gümüşü saçlar
Torpağa qarışıb, gərəksiz olur.

NÖVBƏ

Dörd yandan bürüyüb qəzet köşkünü,
Növbəni pozmayın – deyir adamlar.
Durub əsə-əsə soyuq qış günü,
Qəzeti gözüylə yeyir adamlar.

Baxıb sevinirəm bu xoş gəlişə,
Qəzetlər gözləri yolda qoymasın.
Hamının tox olsun qarnı həmişə,
Bircə oxumaqdan gözlər doymasın!

SON BORC

Əl çəkə bilmirdi tutduğu işdən,
Özünə bir sənət seçmişdi bunu:
Daim borc alardı tanış-bilişdən,
Heç vaxt qaytarmazdı hərif, borcunu.

Belə yaratmışdı onu yaradan,
Borc aldı rəngi də heç saralmadı.
Bir gün həmişəlik çıxdı aradan,
Bircə əzrayıla borclu qalmadı.

ZƏHƏR

Qızıldan bahadır ilan zəhəri,
Onu da ölkələr minnətlə alır.
Adam var, axtarır kəndi, şəhəri,
Tapdığı zəhərdən xəstə sağalır...

Ay qonşu, demək də arıma gəlir,
Lap cana doymuşam sənin əlindən.
İlan zəhərindən dərman düzəlir,
Niyə zəhər yağır acı dilindən?

QARABAĞ NƏĞMƏSİ

Ay Qarabağ, sən qüvvətsən dizlərimə,
Qaytar məni gənc yaşına, qurban olum!
Qocalmışam, sən işıq ver gözlərimə,
Gəlim sənin tamaşana, qurban olum!

Yad gözlərə Şuşa batır şüşə kimi,
Dayanmışıq dövrəndə sıx meşə kimi,
Sənsən ana təbiətin baş həkimi,
Can məlhəmi hər daşına, qurban olum!

Sən Vaqifin keşməkeşli həyatısan.
İlhamının, ürəyinin sovqatısan.
Başdan-başa nərmə-nazik bayatısan,
O dahiyə, söz qoşana qurban olum!

Qəlbimdəsən bir müqəddəs inam kimi,
Eşqin ilə sinəm yanır bir şam kimi,
Qollarını aç mənə öz anam kimi,
Qoy atılım ağuşuna, qurban olum!

Bir vaxt sənə yadlar atdı kəməndini,
Fürsət tapıb işə saldı öz fəndini.
Stepana dəyişdilər Xankəndini,
Onun qədim naxışına, qurban olum!

Kəbəsisən nəvəmizin ağbirçəklərin,
Bir gözəllik sərgisisən göyçəklərin.
Bulaq üstə yeriyən şux çiçəklərin,
O ilahi baxışına qurban olum.

Soyut təşnə ürəyimin yanğısını,
Sən güləndə qış yaz olur, can qızınır.
Qoyma ağır intizarda Xan qızını,
Qərq olmasın göz yaşına, qurban olum.

Sən bizimsən! – xalqdır edən bu tələbi,
Milyonların qeyzə gəlib, coşub təbi.
Gözün aydın! Qoç Koroğlu, qaçaq Nəbi
Sərkərdədir bu qoşuna, qurban olum!

Ana yurdun ən istəkli balasısan,
Torpağımda həmişəlik qalasısan.
Bir alınmaz namus, qeyrət qalasısan,
Sənin hər bir qarışına qurban olum!

DAĞLAR

Gördüm ilqarını, vüqarını mən,
Qartal tək başına qonalı, dağlar.
Əyilib su içdim qaynar döşündən,
Oldum körpə kimi analı, dağlar.

Köksündə min nemət, zinət bəslədin,
Elinə verməyə qüdrət bəslədin.
Dosta özün boyda hörmət bəslədin,
Qüdrətdən vəfası binalı dağlar.

Sinənə güllərdən xalı düzülmüş,
Yaşılı düzülmüş, alı düzülmüş.
Üzünə lalənin xalı düzülmüş,
Kəklikli qayası xınalı dağlar.

Başının papağı minillik qardır,
Əyninin paltarı sal qayalardır.
Üzündə dumandan ağ cuna vardır,
Gəlin tək ismətli, həyalı dağlar.

Doymaram hüsnünə min şeir yazsam,
Ölmərəm, gülünü bağrıma bassam.
Ən gözəl əsərsən, ən böyük rəssam,
Ey Səttar firçalı, boyalı dağlar.

İndi sinə dağın gendə qalıbdır,
Göz yaşın dumanda, çəndə qalıbdır.
Ələsgərin sözü səndə qalıbdır,
Sənsən şeir qədər mənalı dağlar.

Tərtərin səsiylə uyuyanda sən,
Ürəyim titrəyir bu şirin səsdən.
Sanki dədə Şəmşir oxuyur pəsdən,
Yuxuya verməyə maralı, dağlar.

Odur, Kürd gözəli çiynində səhəng,
Başında güllərdən hörülmüş çələng.
Düzləri keçəndə uçur qırğı tək,
Şığıyır aşanda o, yalı, dağlar.

Dəstə hörükləri aşırmış geri,
Şahanə yerişi titrədir yeri.
Bir göz qırpımında qara gözləri
Oxudu gözümdən sualı, dağlar.

Əlindən su içdim, yandı ciyərim,
Dinib-danışmağa varmı hünərim?
Razıyam ot olub səndə göyərim,
Solmayım gülündən aralı, dağlar.

Yağış çiləməsin, sazaq olmasın,
Gözəllər gözümdən uzaq olmasın.
Dağların başında bir dağ olmasın
Mənə ayrılığın bu halı, dağlar.

Qalsın gözü yolda, qulağı səsdə,
Gələrəm görüşə axır nəfəsdə.
Qoy bilsin, hər zaman başının üstə
Gəzəcək Tofiqin xəyalı, dağlar!

AZƏRBAYCAN HAQQINDA NƏĞMƏ

Vətənin böyüklüyü tək sərhədlə ölçülməz,
Şöhrətini ucaldan uca dağlar deyildir.
Vətən elə uludur, o heç zaman kiçilməz.
Onu yaşadan da təkcə sağlar deyildir.
Bir ölməzin adıyla yaşar bəzən bir ölkə,
Bir dahinin şöhrəti xalqı ucaldar aya,
Anam Azərbaycanım – dünya gəzən bir ölkə
Dünya xəritəsində bənzəyir bir damlaya.
O damlanın içində saray-saray evim var.
O damlada Üzeyirim, Səmədim, Gəncəvim var,
Dünya salonlarını "Yeddi gözəl" fəth edir.
Afrika səhrasını gülzara bürüməyə
Gülüm, çiçəyim çatar.
Bütün yer kürəsini bir rəngdə geydirməyə
Zərif ipəyim çatar.
Nəyim yoxdur bəs mənim?
Yadlardan umacağım!
Mənə dünya boydadır öz yurdum, öz ocağım.
Nəyim yoxdur bəs mənim?
Yoxdur qəmim, fəryadım!
Var fərəhim, sevincim,
Bəxtiyarlıqdır adım.
Həm də bütün xalqlara dünya boyda hörmətim,
Ehtiramım var mənim
Uca Kəpəzim qədər.
Məsləkimə sadiqəm eşqim, nəfəsim qədər.
Azərbaycan torpağı – günəş nurlu bir ölkə,
Bircə damla olsam da dünya xəritəsində
Şöhrəti dünya gəzən əzəmətli diyardır!..

GƏLİN DOSTLAR, GƏLİN!

Əlinizə bayraq alın,
Yaxanıza qızıl lalə
Taxıb gəlin.
Axın-axın, dəstə-dəstə,
Bu meydana axıb gəlin!

Şir ürəkli, tunc biləkli,
Xoş diləkli fəhlə qardaş,
Coşqun Xəzər dəryasında,
Ləpələr keç, dalğalar aş,
Sıx buruqlar meşəsindən,
Alnı açıq zəfərlə gəl.
Bu uğurlu günümüzə
Sən uğurlu xəbərlə gəl,
Gəl ki polad sıraların
İlk cərgəsi səninkidir.
Yer şarını silkələyən
Addım səsi səninkidir.
O əlindəki bayrağına
Güntək yansın, dalğalansın,
Baxanlar da elə sansın,
Göy qurşağı çıxıb yerdən.
Bu arzu, kam səninkidir,
Əziz bayram səninkidir.
Şirin həyat, gözəl büsat,
Azad ilham səninkidir.
Şair gəlsin bu meydana,
Gülsün dilək, coşsun ürək,
Səsi düşsün uzaqlara,
Sözü qonsun dodaqlara,
Aşıq qardaş, sən də tələs,
Köklə sazı, sinənə sıx,
Bir şad gündə, toy-düyündə,
Biz ki, sənsiz olmamışıq.
Gəl dinləyək, bir nəfərtək,
Eldən gələn gur səsini,
Bu günlərin havasını,
Bu günlərin nəğməsini!
Sən də yapış əllərimdən,
Dünya görmüş qoca babam,
Ey vüqarlı Şah dağından,
Uca babam!
Dağ başından qartal kimi,
Seyr edəcək görürsənmi?

İnsanlığa zinət olan,
İzdihamı görürsənmi?
Gözlərdəki xoş təbəssüm,
Azadlığın müjdəsidir.
Xalqın qadir əllərilə
Dərdə, qəmə son qoyuldu,
Vətənimiz azad oldu,
Qara günün ağ gün oldu.
Ay ağ saçlı, ay ağ günlü,
Toy düyünlü Azərbaycan!
Nur çıraqlı, al bayraqlı
Döşü güllü Azərbaycan!
Azadlığın al günəşi
Gözlərinə şəfəq yayır.

ZAMANIN HÖKMÜYLƏ

O, harda qazılacaq,
Görən hansı ölkədə?
Torpaq ona qoynunda
Yer vermədi bəlkə də.
Lakin o, qazılacaq, –
Bu, hökmüdür zamanın –
Bəlkə hər yerdən uzaq
Son qütbündə dünyanın.
Nə üstündə yazısı,
Nə başdaşı olacaq.
Sinəsində nə ağ çiçək,
Nə göz yaşı olacaq.
Bura insan gələcək,
Rəngi qara, rəngi ağ.
Ordusuz generallar,
Burda torpaq qazacaq,
Burda külüng vuracaq
Tək qollu qəhrəmanlar.
Hərbin alovlarından
Gözsüz qalan cavanlar,

Deyəcək: – Dərin qazaq
Bu yeri dənizə qədər.
Yox, dəniz də dayazdır,
Hərbə kinimiz qədər.
– Dərin qazın! – deyəcək
Oğul itirmiş ana, –
Təzə dərdlə getməyim
Mən bir də qəbristana.
Külə dönmüş meşələr:
– Dərin qazın! – deyəcək.
Güllə dəlmiş budaqlar,
Əsgər qolları kimi,
Sallanıb inləyəcək:
– Yetər, şirin bar verib,
Taleyi acı olduq,
Milyon-milyon şikəstə
Qoltuq ağacı olduq!
Əsgər tabutu olub,
Yatdıq yer altında biz.
Boy ataq, sevənlərə
Çətir açsın kölgəmiz.
Dəstək tutun bizləri
Əlinizdə, insanlar!
Ən dərin rişəmizdən
Dərin olsun bu məzar.
Məzar qazılan kimi,
Yığılıb qucaq-qucaq,
Lənətlər sədasıyla
Torpağa quylanacaq.
Üzərinə çökəcək
Toz təpəsi, qum layı,
Yaranacaq bu yerdə
Sıx dağların alayı.
Bayquş bayquşluğuyla
Qonmayacaq bu yerə,
Küləklər qar tökəcək
Qucaq-qucaq bu yerə.
O günü ümidlərin

Dan ulduzu doğacaq,
Ölkələr üzərinə
Güllə yox, gül yağacaq.
Bir quş da yaralansa
Bir tüfəng gülləsindən,
Yer-göy oyanacaqdır,
O vaxt onun səsindən...
Ey mənim əsirdaşım,
Ey mənim cahandaşım,
Milyon bacım, qardaşım!
Bu nə gözəl arzudur,
Bu nə şirin bir dilək!
Qoyun tufanlar görən
Ağac budaqları tək
Sülh deyib dalğalansın
Polad əllər, tunc əllər.
Barmağını tətikdən
Ayırsın qorxunc əllər.
Gəlin alaq canını
Vədəsiz ölümlərin.
Yaşadaq gözəlliyi,
Həyatı, insanlığı,
Qazaq dərindən-dərin
Torpağın sinəsində
Bu son qəbristanlığı.
Torpaqdan asimana
Ucalmayaq ahları,
Torpağın son qatında
Basdıraq silahları!

İLHAM TƏZƏ OLSUN

Gəlirsən,
Müjdələr gəlir səsində,
Bütün yer üzünə sevinc yayırsan.
Sən köhnə illərin son cərgəsində
Təzə əsgər kimi addımlayırsan.

Yollara bərəkət səp qucaq-qucaq,
Uğurla başlasın yeni ilimiz.
Təqvimə günləri yazırıq ancaq,
Tarixə yazılır əməllərimiz.

Odumla əridim qar paltarını,
Eşqimlə isinsin buzlu nəfəsin,
Gəlişin torpağın arzularını
Çiçəyə bürüsün, gülə bələsin.

Mübarək qədəmin mətin, inamlı,
Zirvələr fəth edib ad alacaqsan.
Sabah neçə-neçə coşqun ilhamlı
Şairin səssində ucalacaqsan.

Şənlik, sevinc olsun qismətim, payım
Oğlumun muradı, gözü səndədir.
Keçən il gəzən neçə subayın
Sevgisi səndədir, toyu səndədir.

Nəfəsi təngimiş anamız yerə
Nə bir mərmi yağsın, nə də qurğuşun.
Doğum evlərindən təzə evlərə
Körpələr axışsın hey qoşun-qoşun.

Hamı uca tutsun insan adını,
Qoy qəlbi qaralar yanıb qaralsın.
Yaxşılıq açanda qol-qanadını,
Yamanın əlləri qoynunda qalsın.

Sən köhnə ilimin körpə qardaşı,
Sabah xoş müjdəli həqiqətimsən.
Ümidsən, arzusan hər addımbaşı,
Mənim bol nemətim, bərəkətimsən.

Səndə şimşək gücü, işıq sürəti,
Elin günəş qəlbi, od nəfəsi var.

Təzə fikirlərin sehri, qüdrəti,
Təzə kəşflərin təntənəsi var.

Təzə il, hər qəlbdə təzə bir istək,
Mənim də açdığım iz təzə olsun.
Təzə kəndimiztək, şəhərimiztək
İlham təzə olsun, söz təzə olsun!

QOŞA QARTAL

O qartal şəninə mən,
Nəğmə yazdım sübhə kimi.
Boşaltdım ağ varaqlara
Tələtümlü ürəyimi.
Son misraya nöqtə qoyub,
Dedim qalxım tez ayağa.
Radiodan təzə xəbər
Axdı evə dalğa-dalğa.
Düşündüm ki, ulduzlara
Salam verib, salam alan,
Asimanın qucağında
Gecələyən o qəhrəman
Yəqin səhər enib yerə.
Mən diktorun söylədiyi
Həyəcanlı kəlmələrə
Qulaq asdım, vüqarımdan
Ulduzlara qanad açdım.
Sinəmə bir şeir axdı,
Dilə gəldi bir də ürək.
Son misranın nöqtəsini
Vergül edib, yenə yazdım.
Gah danışan radioya,
Gah könlümə qulaq asdım.
Qulaq asdım ölkələrin,
Mahalların səsinə mən,
Yer kürəsi titrəyirdi
Milyon dilli bu səslərdən.
Hələ dünən əzbərlədik

Kosmonavtın adını biz,
O, uçduqca sübhə qədər
Yumulmadı gözlərimiz.
O, uçduqca sevinqc axdı,
Qürur gəldi hər ürəyə.
Səhər oldu, bir qartal da
Arxasınca qalxdı göyə.
Nöqtə qoymaq istəmirəm
Bu şerimin sonuna mən.
Bəlkə bu dəm Yer üzündən
Ulduzlara qonaq gedən
Növbəti bir qartalımdan
Radiolar söhbət açıb
Dalğa-dalğa yaydı yenə.
İnanıram mən insanın
Bu hüdudsuz qüdrətinə,
Ana torpaq, sən də eşit
Ürəyimin gur səsini:
Ulduzların hüzurunda
Bir gün özüm qoyum gərək
Bu şerimin nöqtəsini!

AZƏRBAYCANIM

Yüz illər uğrunda sinə gəribdir
Koroğlular nəsli, Azərbaycanım.
Qan ilə yuyulmuş yaşıl düzlərin
Qış olub hər fəsli, Azərbaycanım.

Ağrın bizim olub, dadın özgənin,
Axdın ciblərinə yadın, özgənin,
Özün odlar yurdu, odun özgənin,
Çıraqları hisli, Azərbaycanım.

Bürüyüb çadraya yüz-yüz pərini,
Boğdular ən şirin diləklərini,
Gəlinlər saz kimi hörüklərini
Çaldı gizli-gizli, Azərbaycanım.

Babək itirsə də tunc qollarını,
Döyüşə səslədi oğullarını.
Dedilər, əyməsin şah vüqarını
Qoşqarlı, Kəpəzli Azərbaycanım.

Tarix özü desin, bu necə sirdi,
Şeir, söz çələngi daşda bitirdi.
Dünyaya sığmayan şair yetirdi
Zindanlı, məhbəsli Azərbaycanım.

Bir gün son qoyaraq göz yaşına sən,
Atıldın azadlıq vuruşuna sən.
Səs-verdin qəlbinin çağrışına sən
İnqilab həvəsli Azərbaycanım!

Analar dikəltdi əyri qəddini,
Arzular böyütdü öz sərhəddini,
Millətlər içində qızıl xəttini
Yazdın, azad oldun Azərbaycanım!

Ən gözəl günündür, ən əziz çağın,
Hüsnünü bəzəyir qızıl bayrağın.
Səadət müjdəli ana torpağın
Dünyada yox misli, Azərbaycanım!

ƏN GÖZƏL

Ey könül, umanlar coşsun səsində,
Şerin qanad açan günüdür bu gün.
Bütün ölkələrə yer küresində
De ki, Azərbaycan günüdür bu gün!

Dostları şad görüm, yadları dalğın.
Arzumun gül açan günüdür bu gün.
Şöhrətli vətənin, qeyrətli xalqın
Tarixə nur saçan günüdür bu gün.

Payızdan xoş ətri gəldi baharın,
Elimin sevinci aşıb-daşıbdır.
Sifəti nurlanıb ağsaqqalların,
Ağbirçək analar cavanlaşıbdar.

Sizə müntəzirdir kaman da, tar da,
Bəzənin, düzənin, nişanlı qızlar.
Tovuz quşu kimi süzün mağarda
Xilqətdən ənlikli, kirşanlı qızlar.

Ellərdən ellərə şad xəbər yayın:
İllər sürətini verib anlara.
Bol-bol üzümündən şərbət paylayın,
"Ağ qızıl" toplayan qəhrəmanlara.

Xalqımın adına nurlu heykəldir
Günəşə ucalan bəyaz tayalar.
Gör nə tamaşadır, nə gəlhagəldir:
Önündə kiçilir dağlar, qayalar.

Yarış cəbhəsində, iş meydanında
Artır gündən-günə şöhrətim-şanım.
Zamanın ən çətin imtahanında
Əla qiymət alıb Azərbaycanım!

Dünyanı mat qoyub bu arzu, həvəs,
Xalqımın öyünən günüdür bu gün.
Bütün ürəklərin həmrəy, həmnəfəs
Sevinclə döyünən günüdür bu gün.

Ən gözəl kəlmələr axtarın, seçin,
Dostlar, alqışlardan Azərbaycana.
Hələ neçə-neçə bayraqlar biçin
Qızıl qumaşlardan Azərbaycana!

Bayramın mübarək, ey ana Vətən!
Hünərlər, zəfərlər izləyir səni,
Şöhrətin ən uca zirvəsindəsən,
Hələ çox zirvələr gözləyir səni!

YUXUSUZ GECƏ

Gecə... Uzaq diyarda
Qəfil bir mərmi dinir,
Milyonların köksündə
Bəslənilən arzular
Körpə kimi diksinir.
Sevgiyə sədaqəti
Sınamaq əvəzinə
Ölümün, fəlakətin
Gücünü sınayırlar.
Bulud da parçalanır,
Göyə hakim kəsilən
Sükut da parçalanır.
Torpaq sükut sevməyir,
Qoy dünya gecələr də
Sədalı, səsli olsun
Səslər səhər müjdəli,
Həyat nəfəsli olsun.
Əgər dönsə yer üzü,
Musiqi salonuna,
Mən sübhəcən layla tək
Qulaq asaram ona.
Min sərnişin qatarı
Gurultu sala-sala,
Gecə keçsin yanımdan
Uzaq, yaxın mahala,
İncimərəm yuxudan
Oyansam da qəfildən.
Bəlkə həmin səslərdə
Ən gözəl bir şerimin
İlk səsini tapdım mən.
Səs var qorxu gətirir,
Səs var vahimə yayır,
Əsrin qulaqlarında
Atom olub partlayır.

Gəlin nifrətimizi
Dəryaz edək – kəsək biz
O səslərin kökünü,
Dünya dənizə töksün
Çiynini donqar edən
Ağır atom yükünü.

QƏLƏBƏ NƏĞMƏSİ

Bu gün xalqım şair kimi coşub çağlayır,
Sevinc dolu ürəklərdə zəfər səsi var.
Torpağımı günəş öpür, göy qucaqlayır,
Hər tərəfdə bayram eşqi, toy həvəsi var,
Yer üzündə Azərbaycan təntənəsi var?

Tarixlərə yaraşıqdır bu hünərimiz,
Dost gözlərə bir işıqdır xoş xəbərimiz.
Bol nemətdir, bərəkətdir alın t ərimiz.
Hər igidin ağ qızıldan bir Kəpəzi var,
Yer üzündə Azərbaycan təntənəsi var!

Salxım-salxım üzümlərim göydən asılsa –
Qoy ulduzlar utanmasın sayı az olsa.
Ürəyimdə Xəzər boyda səs, avaz olsa,
İlhamımın ümman kimi kükrəməsi var,
Yer üzündə Azərbaycan təntənəsi var!

Bəxtiyardır belə xalqın özü, rəhbəri,
Bayraqlarla qucaqlayır zəfər-zəfəri.
Dünya bilir Vətənimin illərdən bəri
Qəhrəmanlıq, qabiliyyət ənənəsi var,
Yer üzündə Azərbaycan təntənəsi var!

ZƏFƏR YARAŞIR

Qoy bu şerim sovqat olsun
bəxtəvərlərə,
Ər qeyrətli gəlinlərə, igid ərlərə.
Ürəyimiz həmdəm olub şad xəbərlərə –
Bu gün yenə sevinçimiz qaynayıb-daşır,
Azərbaycan torpağına zəfər yaraşır!

Bayraqlardan işıq alır, güc alır Vətən,
Təntənədən təntənəyə ucalır Vətən.
Zəhmət, hünər yarışında
tac alır Vətən.
Şan-şöhrətim aya çatır, günə yanaşır,
Azərbaycan torpağına zəfər yaraşır!

Silkələnib geriliyin daşını atdıq,
Ordu kimi cərgə-cərgə güclənib artdıq.
Qələbədən qələbəyə körpü yaratdıq.
Elə gücü selə dönür, dövlət-var aşır,
Azərbaycan torpağına zəfər yaraşır!

"Ağ qızıl"ım, sarı salxım
dəniz-dənizdir,
Alnımızın təri kimi safdır,
təmizdir.
Bu yüksəliş amalımız, əqidəmizdir.
Ömrümüzə günəş ruhlu səhər yaraşır,
Azərbaycan torpağına zəfər yaraşır!

Bu qardaşlıq, bu azadlıq ölkəsində biz,
Birinciyik qaliblərin cərgəsində biz,
Yerin, göyün yenə diqqət mərkəzində biz.
Səsimiz bir şəlalətək coşur, gurlaşır,
Azərbaycan torpağına zəfər yaraşır!

RAKETLƏR

Raketlər əriyir, gözünüz aydın!
Əriyir qəlblərdə o səksəkələr.
İnsanlar, səfərdən rahat qayıdın,
Qorxusuz, hürküsüz yatın gecələr.

Raketlər əriyir, torpaq büsbütün
Bolluğa, ruziya qərq olsun gərək.
Raketsiz bir dünya kasıbın, lütün
Əynində paltardır, ağzında çörək.

BİTƏRƏF ŞAİR

Bitərəf – şeirlər yazıram dedi,
Çiçəkli çəməndən, bülbüllü bağdan.
Elə damla-damla sızıram dedi,
Nə çıxar sel kimi coşub daşmaqdan.

Ancaq bilmədi ki, bu keşməkeşdə
Ən böyük hünərdir şair doğulmaq.
Bu gün hər sənətdə, bu gün hər işdə
Bişərəf olmaqdır, bitərəf olmaq.

SINAQLAR

Yeraltı sınaqlar birmi, ikimi,
Mərmilər torpağın bağrını yarır.
Dünya vahiməli bir uşaq kimi
Səs-küydən usanıb dinclik axtarır.

Bu xəstə torpağa dərman gəzəndə,
Bir arzu, bir istək umuram haqdan:
Yer altda sınaq yox, bu yer üzündə
Məhəbbət, sədaqət keçsin sınaqdan.

QUŞSUZ YUVALAR

Bakıda göyərçin yaman azalıb,
Görəsən onlara kimdir qəsd edən?
Qaralmış yuvalar sahibsiz qalıb,
Quşlar da qaçırlar acı tüstüdən.

Təbiət yas tutur bu qovhaqova;
Hüsnündən gözəllik, yaraşıq gedir.
Bülbülsüz bir çəmən, quşsuz bir yuva
Evlərdə uşaqsız beşik kimidir.

TELEFON MƏHƏBBƏTİ

Sevgi məktubları düşübdür dəbdən,
Cavanlar eşqini yazmır kağıza.
Rahatca zəng vurub küçədən, evdən,
Oğlan görüş verir gündə bir qıza.

Göz-gözə baxmadı alışar çətin,
Sifariş bürosu deyil hər ürək.
Zəng ilə düzələn bir məhəbbətin
Ömrü də beşgünlük olur... neynəmək?!

AĞACIN BƏLASI

Bürümüşdü dörd yanı onun qolu-budağı,
Boy-buxunda ucaydı şəhərin evlərindən.
Külək əsdi, kökündən qopdu o səhər çağı,
Yanındakı ağaclar nəfəs aldı dərindən.

Adamlar səs eşidib axışdılar o yerə,
Düşündülər, görəsən onun dərdi nə imiş.
Gördülər ki, baş alıb ucalsa da göylərə,
Özü nəhəng olsa da, kökü lap üzdə imiş!

MARŞALIMIZ

Bəzən sual verir mənə cavanlar,
Tarix kitabını gətirib yada:
Bizim Babəkimiz, Koroğlumuz var,
Niyə marşalımız yoxdur dünyada!

Deyirəm: – Silahı sözdür millətin,
O, bizim qələbə nişanımızdır.
Məğrur sərkərdəsi şerin, sənətin
Nizami ən qədim marşalımızdır.

ARZU

Gəlin bu dünyanın gözəlliyini
Nəsildən-nəsilə töhfə saxlayaq.
Qovmaqçın zəhərli barıt iyini
Ərzə dəniz-dəniz gül-çiçək yayaq.

Ömrə ziynət olsun böyük əməllər,
Arzuyla qovuşaq hər gələn günə.
Bu çəkic, bu oraq qaldıran əllər
Silah qaldırmasın biri-birinə.

Hərbin qollarına biz kəmənd vuraq,
Mərmilər çürüsün dərin dənizdə.
Poladlar əridib körpülər quraq,
Tanklar yer şumlasın tarlada, düzdə.

SAHİLDƏ

Qağayılar yaylıq kimi
Yelləndikcə göy dənizdə,
Arzulara qanad açır
Ürək bizim sinəmizdə.

Durna təki qatarlaşıb,
Sahil boyu dincəlirik.
Sanki həyat dənizindən
Dalğa-dalğa yol gəlirik.
Sular kimi təmizlənib,
Duruluruq gilə-gilə,
Arada bir ləpə vurur,
Xərçəng düşür bu sahilə...

Əlində bir tranzistor,
Gözlərində qara eynək,
Bədəninde tarım durub
Zolaq-zolaq uzun köynək.
Öz tayını tapıb deyir:
"Gəl mırt vuraq, gəl deyinək,
Sən gileyli, mən narazı
Bu həyatdan, bu dövrandan.
Zəhmət çəkib beş yol azı
Kəsilmişik imtahandan.
Bu restoran, o çayxana,
Bulvar geniş, hava təmiz,
Borcludur ki, ata-ana
Pul qazansın, xərcləyək biz.
Nə bikef ol, nə utancaq,
Canın kefdə çıxsın təki.
Ağ əllərin badə tutub,
Qız əlləri sıxsın təki".
Uyub tvist havasına,
Dil-dil ötür gecə yarı.
Nigarandır ata-ana:
Harda qalıb oğulları?
Günahkardır, bir vaxt onu
Özü salıb bu kəməndə.
Gərək bunu soruşaydı
Əl toğlusu bəsləyəndə.
Soruşaydı, soruşmadı,
Cəzasını yüzqat çəkir.

Ata-ana pozanların
Əzabını həyat çəkir.
Mən çəkirəm, sən çəkirsən,
Üsyan edir vicdan səsi.
Bu kimlərin qalığıdır,
Bu haranın törəməsi?
Yerişindən yer titrəyir,
Gör necə də havalıdır.
Elə bil ki, kürəyinə
Pərçim olan at yalıdır.
Yaman zəhmət çəkib yazıq,
Saç uzadıb səhər-axşam,
Gendən onu gah keşişə,
Gah da qıza oxşatmışam.
Demişəm ki, öz əslindən
Əcdadından utan barı!
Cavab verib tanımırsan
Bizim ulu babaları.
Heç olmasa muzeyə get,
Əcdadının şəklinə bax.
Sərkərdələr saç uzadıb,
Saqqal qoyub min il qabaq.
Mən onların sələfiyəm,
El dəbindən hara qaçım?
Yad damğası vurma mənə,
Qərb modası deyil saçım.

Babaya bax, nəvəyə bax! –
Nə gülüncdür bənzəyişin.
Babaların qeyrətini
Bir yada sal, yaxşı düşün,
Sən onların saçını yox,
Dühasını, hikmətini
Öz başında yaşat, bala,
Bu quyruqlu yalanlarla
Az babana daş at, bala.

Bu niyyətlə ali savad
Almağın da çox nahaqdır.
Məqsədimiz ali insan,
Ali vicdan yaratmaqdır.
Saçlarının arasında
Yad ölkənin dalğası var.
El çörəyi yeyə-yeyə .
Beynində caz havası var.
Ayıl, ayrıl o aləmdən!
Bir də qayıt bu həyata.
Ata-ana kölgəsində
Xumarlanıb yata-yata,
Gözlərinlə işıq alıb
Nurlu Bakı gecəsindən,
Xəyalında az keç, bala,
Paris, London küçəsindən.
Babaların el yolunda
Saçlarından asılmışdır, –
Bilirsənmi?
Sən yük olub asılmısan,
Bu həyatın yaxasından.
Babaların sinəsinə
Odlu körük basılmışdır, –
Bilirsənmi?
Sən canını qoruyursan
Halal zəhmət havasından,
Bəlkə, şümşad əllərini
Muzey üçün saxlayırsan?
Yox çıxmasaq hövsələdən
Çürüyəcək o baş, bədən,
Yerin zavod, yerin mədən,
Yerin insan cərgəsidir.
Bu, tək şair sözü deyil,
El hökmüdür, el səsidir.
Bax səndən də yaraşıqlı
Boy-buxunlu cavanlara.

Əllərində o qabara,
O sərtliyə, qüdrətə bax.
Səadətdir o əlləri
Ehtiramla tutub sıxmaq.
Bir qulaq as dodaqların
Nəğməsinə, gülüşünə.
Bir fikir ver o fəhlənin
Cavan qızla görüşünə;
Nə bir süni ədası var,
Nə yalandan can deməsi.
Qəlbi kimi tərtəmizdir
Tufanları yoran səsi.
Bir gözəlin baxışından
Sehirlənib o, lal olur.
Halal zəhmət çəkənlərin
Sevgisi də halal olur.
Axşamüstü işdən evə
Yorğun gələn bir övladın
Qabağına çay gətirən,
Xörək düzən qoca qadın
Yer üzündə ən bəxtəvər,
Ən mənalı bir insandır.
Cavan oğlan bu işığı
Ürəyində sən də yandır.
Nəğmə kimi şirin olar
Ömür sənə, həyat sənə.
Kaman səsi yad səslərdən
Doğma gələr yüz qat sənə.
Bu gəzdiyin bulvarın da
Gül-çiçəyi gözəlləşər.
Bizim kimi qismətinə
Səadətdən bir pay düşər.
Vətən ona xor baxanı
Sürüyəcək üzü üstə.
El qədrini bilənləri
El saxlayar gözü üstə.

ANA DİLİM

Qalxıb Şahdağına söz istəyirəm,
Çatsın hay-harayım dinləyənlərə.
Mən nankor deyirəm, nacins deyirəm –
Öz ana dilini bilməyənlərə!

Bu dil şirinlikdə şərbət kimidir,
Saflığı qorunan sərhəd kimidir,
Anamız Vətən də qürbət kimidir –
Öz ana dilini bilməyənlərə!

İtsin gözlərimdən qoy ilim-ilim,
Qəzəb ümmanıyam, yoxdur sahilim.
İlan zəhərindən acıdır dilim –
Öz ana dilini bilməyənlərə!

Döyüşdə bərkiyib el polad olur,
Zirvəyə uçmağa dil qanad olur.
Torpağın sevinci, dərdi yad olur –
Öz ana dilini bilməyənlərə!

Mən qədim "Qarabağ şikəstəsi"yəm,
Üzeyir nəfəsli gül dəstəsiyəm.
Vaqifin, Vurğunun nifrət səsiyəm –
Öz ana dilini bilməyənlərə!

Yad dildən pay umub kişi dilənməz,
Bu ləkə üstündən heç vaxt silinməz.
Füzuli şeirdə kimdir bilinməz –
Öz ana dilini bilməyənlərə!

Beyninə girmədi ana öyüdü,
Əsilsiz yaşayıb, o bic böyüdü.
Görüm haram olsun ananın südü –
Öz ana dilini bilməyənlərə!

Yad əllə bir çiçək, gül dərilməsin,
Canlı meyit olsun, o dirilməsin.
Bu ana torpaqda yer verilməsin –
Öz ana dilini bilməyənlərə!

Nankorun qızıldan olsa dirəyi,
Dar gündə millətin olmaz gərəyi.
Haramdır Vətənin halal çörəyi –
Öz ana dilini bilməyənlərə!

Bu dildə bir qızmış pələngəm, şirəm,
Aslanlar döşündən mən süd əmirəm.
Yeddi oğul doğsun, ana demirəm –
Öz ana dilini bilməyənlərə.

Yüz dili öyrənsən, alqışlayıram,
Hər dili üzüyə bir qaş sayıram.
Güllədən kəsərli söz tuşlayram
Öz ana dilini bilməyənlərə.

Birinə əslini danıb desələr,
Bu nifrət ölüncə ona bəs elər.
Bir gün öz övladı qənim kəsilər –
Öz ana dilini bilməyənlərə.

Qədrini bilməsə kamanın, neyin,
Saman çuvalıdır o baş, o beyin,
Bu ana torpaqda fərari deyin –
Öz ana dilini bilməyənlərə!

Övlad ki, yadlaşdı, dərd böyük olur,
Çəkdiyi xəcalət ömürlük olur.
Vicdan da, qeyrət də artıq yük olur –
Öz ana dilini bilməyənlərə!

Bu gün azad dilli Azərbaycanam,
O taylı, bu taylı vahid bir canam.

Baxır ögey kimi ağbirçək anam –
Öz ana dilini bilməyənlərə!

Şairəm, adım da Tofiq Bayramdır,
Bu dil cəngi səsim, ana laylamdır.
Vətəndaş sözünü demək haramdır,
Vətənin karına gəlməyənlərə.
Bu qanun ən ağır bir ittihamdır –
Öz ana dilini bilməyənlərə!

İBLİSLƏR

Aşkarlıq genəldir nur sərhəddini,
Dağılıb əriyir dumanlar, sislər.
Yarır yalanların o çin səddini,
Ədalət Evindən ucalan səslər.
Tir boryda hakimin əyir qəddini
Haqqa, həqiqətə sığınan kəslər.
Torpaqda cücərir bərəkət dəni,
Sökülür heykəllər, uçulur büstlər.
İmzalar içində tapır xəttini,
Qara siyahıdan çıxır ağ üzlər.
Bir zaman qudurub, aşıb həddini
Mələk qiyafəli qəlbi xəbislər.
Qəddar Mir cəlladın tutub cəddini,
Günahsız ölümə, qana hərislər.
Yuxuda gördülər Otuz yeddini
Uçunur bədənlər, titrəyir dizlər.
Çağırıb haraya tanrını, dini,
Pak olmaq istəyir o natəmizlər,
Pozub şerimizin ana xəttini
Yalançı təriflər, yabançı hisslər.
Seçir qorxa-qorxa bir xəlvət tini
Cavidi, Müşfiqi satan iblislər.
Təbiət pisləri çox yaşadır ki,
Vicdan əzabının ömrü uzansın.

Baxmalı, görməli tamaşadır ki:
Dirilər cəhənnəm odunda yansın.
Hörmüzlə Əhrimən baş-başadır ki,
O rəhmət, bu isə lənət qazansın.
Ocaqlar dağılsın, evlər talansın.
Hamıda ürək bir göz qoşadır ki,
İkisi ağlasın, biri utansın.
Naşının ümidi nəqqaşadır ki,
Bürünclə qızılın fərqini qansın.
Qartalın uçuşu yoxuşadır ki,
Enişdə qarğalar gəzib dolansın.
O şair şairin qardaşıdır ki,
Bir məslək eşqiylə oda qalansın.
Cavid ucalıqda bir Şuşadır ki,
Təpələr yolunda çətin dayansın.
Müşfiq şerimizin şah quşudur ki,
Onsuz bu zirvəyə kim havalansın?
Elə bir üzüyün qaş-daşıdır ki,
Zülmət də acizdir nurunu dansın.
Xəcalət tərindən qaralır, itir
Qızılın yanında məhv olur mislər.
Qalıb künc-bucaqda boş çuval kimi
Həyata yük olan o nadürüstlər.
Alınmır gərəksiz ucuz mal kimi
Cavidi, Müşfiqi satan iblislər.
Zaman çox yaranı kəsib tulladı,
Ağrımız, acımız yox olsun gərək.
Çıxdı mavzoleydən xalqlar cəlladı,
Qəbri də kül olub dağılsın gərək.
Tünbətün çəkmə yox, ayaq nalladı,
Dedi: – Becid gedən yıxılsın gərək.
Şairi Sibirə kimlər yolladı?
Görürsə, gözləri ovulsun gərək.
Deşsin daş qəbrini Müşfiq fəryadı,
Vicdan əzabından boğulsun gərək.
Fəxri xiyabandan silinsin adı,
Hər yerdən it kimi qovulsun gərək.

Sənətin Məcnunu, şerin Fərhadı
Bir cüt Qoşqar kimi dağ olsun gərək
Cavidin, Müşfiqin sınmış qanadı
Şəfqətli əllərlə sağalsın gərək.
Yaşatmaq istəsə Vətən övladı,
Köksündə heykəli doğulsun gərək.
Qovaq sıramızdan düşməni, yadı,
Cərgəmiz yumruq tək sıx olsun gərək.
Bir ovuc neft olsun mavi dənizdə
Ruhu dilənçilər, özü müflislər.
Bir qara keşişdir gözlərimizdə
Bu qəlbi qaralar, qana baislər.
Lənət daşlarıdır nəzərimizdə
Cavidi, Müşfiqi satan iblislər!

BİR SƏHNƏ

Çeşməyim qəfildən düşüb qırıldı,
Kəlməni kəlmədən seçə bilmədim.
Ev işıq olsa da, gözüm qaraldı,
Otaqdan otağa keçə bilmədim.

Yaxşı ki, qurtardı bu ağır cəzam,
Xeyirxah bir həkim çatdı dadıma...
Ağlının gözüylə oxuyub-yazan
Şair Kərim Faiq düşdü yadıma.

XUDU MƏMMƏDOVUN XATİRƏSİNƏ

Ona vaxtsız əcəl vermədi aman,
Yandı ulduz kimi tez batmaq üçün.
Elə bil könüllü köçdü dünyadan,
Kiminsə ömrünü uzatmaq üçün.

Kristal qaralmaz düşsə min oda,
O bizdən nə heykəl, nə şöhrət güdür.
Alim tək o müxbir üzvü olsa da,
İnsanlıq elminin fəxri üzvüdür.

NƏVƏM TOMRİSƏ

"Dövlətdə dəvədir, övladda nəvə",
Kim bunu deyibsə, ona mərhaba!..
Sən bir qaranquş tək qondun bu evə,
Gördüm ki, bu gündən babayam, baba.

Uçmaq istəyirəm, tut qanadımdan,
Səninlə doyunca oynayacağam.
Əllini aşmağım çıxıb yadımdan,
Mən də sənin kimi körpə uşağam.

RUDƏKİDƏN İQTİBAS

Bir cavan qocaya dedi: – Ay əmi,
Az güldür özünə qızı, qarını.
Bir utan, bu yaşda eyib deyilmi,
Niyə qaraltmısan ağ saçlarını.

O dedi: – Adətdir, biri öləndə
Qohumlar bürünür qara libasa.
Bu ağ saçlarımı qaraldıb mən də,
Ölən gəncliyimçün batmışam yasa.

SALAM ASİYA, SALAM AFRİKA!

Nəğmələrin dalğasında paytaxtım coşur,
Dünya bura şəhər-şəhər düzülüb gəlir.
Qanqın gümüş dalğaları Kürlə qovuşur,
Nil Arazın yaxasına süzülüb gəlir.

Günəş kimi təmiz olsun eşqiniz, dostlar,
Qəlbiniz işıq saçsın azadlıq deyə.
Şeir, sənət məclisində bu gün siz dostlar,
Həqiqəti bayraq kimi qaldırın göyə.

Könlümüzdə təlatümlü alqış dənizi,
Sizə odlu kəlmələrdən gül bağlayırıq.
Xəzər kimi geniş açıb öz sinəmizi
Afrikanı, Asiyanı qucaqlayırıq.

Qonaq sevən duz-çörəkli odlar diyarı,
Məhəbbətlə, hərarətlə salamlar sizi.
Salam, uzaq Vyetnamın mərd oğulları,
Mən öpürəm silah tutan əllərinizi!

Bakı-Hanoy ayrılmazdır bir-birindən,
Mən sizləri öz köksümdə duyuram dostlar.
O torpağın qan süzülən yarasına mən.
Ürəyimi məlhəm kimi qoyuram, dostlar.

Zənci qardaş, gözüm üstə yerin var, yerin,
Qəlbimdədir, dilimdədir, yazdığın şeir.
Zəncirləri parçalayan o tunc əllərin
Azadlığa dastan qoşur, nəğmələr deyir.

Qoy susdursun mərmiləri söz vuruşları,
Məhkumluğa ölüm yazaq söz güllələsilə.
Siz ey sülhün, azadlığın qaranquşları,
Qoy ürəklər qanadlansın nəğmə səsilə!

Afrikanın qüdrəti var qələminizdə,
Asiyanın səsi sizdə, sözü sizdədir.
Lumumbanın gözlərinin işığı sizdə,
Lumumbanın hərarəti qəlbinizdədir.

Ürəyimlə, varlığımla sizə bağlıyam,
Qəlbiniz iti olsun, səsiniz mətin.
Mən azadlıq nəğməkarı, həyat oğluyam,
Sabahına inanıram hər bir millətin.

Könlümüzdə təlatümlü alqış dənizi,
Sizə odlu kəlmələrdən gül bağlayırıq.
Xəzər kimi geniş açıb öz sinəmizi,
Afrikanı, Asiyanı qucaqlayırıq.

YEDDİ GƏMİ ADASI

Onların ayağına poladdan bənd vuruldu,
Kəsildi göy sulardan yeddi gəmi nidası.
Yeddi gəmi birləşib yeddi gözlü ev oldu
Sən o gün yarandın:
"Yeddi gəmi adası!"

Neçə xalqın övladı axıb gəldi bu yerə,
Qərib kimi gələnlər qardaş kimi görüşdü.
Ürəklərin birliyi qüdrət verdi əllərə,
İlk dəniz buruğuna sinəndən körpü düşdü.

Dalğalara döş gərdin polad bir qala kimi,
Dəniz fatehlərini qorudun bala kimi.
Tufanlarla çarpışan səndə aldı dincini,
Burda yoldaş yoldaşın nəfəsiylə isindi.

Qəmi gizli saxlayıb, bölüşdü sevinci,
Bəzən yavan da yedi, yenə canlara sindi.
Sədaqət andı içən sevimli qızlarından
Biri dönük çıxanda, hamısına toxundu.

Bir lampa işığında sevgi kağızları da,
Bəzən birgə yazıldı, bəzən birgə oxundu...
Bugün dəniz şəhəri üzür nur dənizində,
Min şəfəq sütunu var göy suların üzündə.

Polad qollar dolanıb olur polad halqalar,
Bu qollar arasında çapalayır dalğalar,
Bugün Xəzərin varı dünənkindən gur axır,
Onun mavi qoynundan özü boyda nur axır.

Qalxır təzə binalar polad sütunlar üstə,
İnsan yeni arzuda, insan yeni həvəsdə.
Hər dəstənin mənzili meydan kimi otaqlar,
Dalğalarla həmahəng burda qarmon, orda tar.

Çarpayılar yaylıdır, yatacaq da qar kimi,
Xidmətçilər qayğıkeş, doğma analar kimi.
Biri dəhliz süpürür, biri döşəmə yuyur,
İşdən yorğun gələnlər şirin-şirin uyuyur.

"Yeddi gəmi adası", unudulub qalmısan,
On ildə bir əsrlik keçmiş olub qalmısan.
Qucağına gələn yox, qoynunda dincələn yox,
İndi polad adada evlər geniş, otaq çox.

Tufan səni sıxmadı, aşsa da öz həddini,
Sıxılırsan bilirəm tənhalığın cəngində.
Dəniz əyə bilmədi, həsrət əyir qəddini,
Mənimçin görmək çətin o pas atmış rəngini.

"Yeddi gəmi adası", nədir bu qəm nidası?
Heç kəsin olmayıbdır səninlə son vidası.
Heç kəs səni uçurtmaz, heç kəs xor baxmaz sənə,
Dili yaman söz deməz, əli də qalxmaz sənə.

Qardaşlığın, dostluğun məhək daşı sən oldun,
Yaxşı-yaman günlərin ilk sirdaşı sən oldun,
Neftçi qardaş göz üstə səni saxlasın gərək,
Sabah yuyar qoynunu, parıldarsan güzgü tək.

Tamaşana gəlirlər dünyanın hər yerindən,
Olmuş dillər əzbəri adın da, hünərin də,
"Yeddi gəmi adası", fəxr elə ki, bugün sən,
Möhtəşəm bir muzeysən bu dəniz şəhərində.

MƏNİM ARZUM

Yığılsın başıma dostlar, tanışlar,
Otağım böyüsün kainat qədər.
Mənim ulduz sanı arzularım var,
Hər biri şirindir bu həyat qədər.

Bütün insanlarla verim səs-səsə,
Bütün insanlarla oxuyum-çalım.
Azad yaşamağı sevən hər kəsə,
Sağlıq söyləməyə olsun macalım.
Öpüm körpələrin gül yanağından,
Uğurlar diləyim analara da.
Mən işıq aparım öz otağımdan,
Şama həsrət qalan komalara da.
Öz ana yurdumdan salam aparım,
Neçə qərib yurda, qərib diyara.
Mən ümid aparım, inam aparım,
Səadət eşqiylə çırpınanlara.
Deyim, insanlığın gözəlliyini
Nəsildən-nəsilə töhfə saxlayaq.
Qovmaqçın zəhərli barıt iyini,
Ərzə dəniz-dəniz gül-çiçək yayaq,
Harda ələm olsa, harda qan-qada,
Üreyim kövrələr, əsər də mənim.
Dəysə azadlığa güllə Konqoda,
Arzum yaralanar Xəzərdə mənim.
İnsan eşqi ilə adım ucalıb,
Bir yol dəyişmərəm bu adətimi.
Bütün qəmlilərin qəmini alıb,
Onlara paylaram səadətimi.
İnanıb bəşərin gözəl çağına,
Ərzə nur yayıram əməlimlə mən.

ÇADRA TAPILMADI

Yavaş-yavaş aralanır məxmər pərdələr,
Çil-çıraqlar ağ salona səpir nurunu...
Nə bu bina operadır, nə bu yer şəhər,
Uzaq bir kənd səhnəsində görürəm bunu.

Klub təzə açılmışdır, bu axşamçağı
Toy libası geyinmişdir kənd başdan-başa.

Gələnlərin gülür gözü, gülür dodağı,
Qızğın keçir, şirin keçir bu ilk tamaşa.
Sevil yerə yıxılaraq getmiş özündən,
Dilbər xanım şaqqıldayır, gülür o ki, var,
Sıralardan hıçqırıqlar eşidirəm mən.
Balaşı da lənətləyir salondakılar...

"Oyan, Sevil, qalx ayağa" qışqırır Gülüş,
"Qalx ayağa", pıçıldaşır yerdəkilər də.
Sevil durur gözü odlu, səsası müdhiş,
O yeriyir qorxa-qorxa, baxır Dilbər də.

Sevil dərin baxışlarla süzür ərini,
– Al! – deyərək o bir örpək atır başından...
Çadra deyil. Birdən heyrət bürüyür məni,
Pərdə enir, silkələnir alqışdan hər yan.

Axı, belə yazmamışdır böyük sənətkar,
Niyə Sevil kəlağayı örtmüş başına?
Axı, belə yazmamışdır böyük sənətkar,
Niyə Sevil kəlağayı örtmüş başına?
Axı, onun zülmət rəngli bir çadrası var,
Gərək burda o çadrayla möhkəm yaşına.

Rejissorun qulağına pıçıldayıram,
O, qımışıb yavaş-yavaş qalxır, səhnəyə,
Bu pərdəni ona böyük günah sayıram.
Düşünürəm, durubdur ki, üzr istəməyə...

O, saçını əllərilə darayıb geri,
Gülə-gülə, – qulaq asın, – deyir, salona,
Qonağımız nöqsan tutub bizə bir yeri,
İstəyirəm cavab verəm indi mən ona.

Düzü, qardaş, biz "Sevil"i hazırlayanda
Ələk-vələk eyləyərək axtardıq kəndi,
Çox qarıya yalvardıq ki, varsa hayanda,
Bizə bircə çadra tapsın, yoxumdur, dedi.

AZƏRBAYCANIM GƏLİR

Moskvanın qoynuna
Şərim, dastanım gəlir.
Hər telində bir nəğmə,
Tarım, kamanım gəlir,
Gəlir dostluq nəğmələrimiz,
Alqışımız bir dəniz.
Göy göl kimi pak, təmiz
Sevgi ümmanım gəlir.
Gəlir sözüm, söhbətim,
Halal varım, nemətim.
Alnıaçıq sənətim,
Şöhrətim, şanım gəlir.
Salon aşıb-daşanda,
Ey müğənnim, coş onda.
Bu sənət yarışında
Sənə gümanım gəlir.
Xəzər, sinəsi gümüş,
Hər dalğa səsi gülüş,
Ağ çiçəyə bürünmüş
Milim, Muğanım gəlir.
Gəlir uca dağlarım,
Nəğməkar bulaqlarım.
Ən bəxtiyar çağlarım,
Ən xoş dövranım gəlir.
Düzülüb sağa, sola,
Nurlar çiləyib yola,
Çinarlarla qol-qola
Buruq karvanım gəlir.
Dönür ürəyim dağa,
Qanad verin uçmağa.
Mərd xalqımı qucmağa
Qızıl meydanım gəlir.
Ağ gün düşüb baxtıma,
Qalxım şöhrət taxtıma.
Müqəddəs paytaxtıma
Azərbaycanım gəlir!

MÜBARİZ ÇAĞIRIŞ

Ey gənclik, hazırla zəfər çantanı,
Yolçu yolda gərək demiş babalar.
Odlu ürəyinin qaynasın qanı,
Bu gün təbiətə yenə hücum var.

Olsun sıraların dəmir tək mətin
Yürüşə sən polad addımlarla get.
Səs ver partiyanın çağırışına sən,
Onun hər əməli bir yüksəlişdir.
Kükrəyən çay kimi kükrəsin sinən,
Bu gediş müqəddəs, böyük gedişdir.

Bozdağın döşündən yol çəkən əllər,
Bugün Uzaq Şərqə köməyə çatsın.
Səhralar qoynunda gül əkən əllər,
Yüz-yüz zavod tiksin, şəhər yaratsın.
Daha gözəlləşsin anamız Vətən...

Ürəyində apar elin səsini,
Dalğalı Xəzərin kükrəməsini,
Yeni Sumqayıtın od kürəsini,
O yerə özündə apar, qardaşım!

Apar Daşkəsəni quran əlini,
Gur çaylara kəmənd vuran əlini.
Bizim köhlən Kürü yoran əlini,
Sibirə özünlə apar, qardaşım!

Ucalt xalqımızın şöhrətini sən,
Bilinsin gəncliyin ən mətinisən.
Bakı neftçisinin qüdrətini sən,
Bükülməz dizində apar, qardaşım!

Ora işıqların gur çeşməsini,
İliç lampasının nur çeşməsini.
Bizim Mingəçevirin nur çeşməsini,
Alışan gözündə apar, qardaşım!

İmtahan etməmiş ellər aż səni,
Kim qəhrəman kimi tanımaz səni?
Bilirəm qorxutmaz nə ayaz səni,
Nə boran, qardaşım, nə qar, qardaşım!

Partiya arxanda durmuş dağ kimi,
Müzəffər, yenilməz bir bayraq kimi,
O sənin yolunda bir mayaq kimi,
Həmişə nur olub yanar, qardaşım!

ŞƏKƏR

Ən böyük nemətdir söz azadlığı,
Onu qazanmadıq dərdsiz, əzabsız.
Aləmi bürüyüb şəkər qıtlığı,
Şəkər xəstəliyi saysız-hesabsız.

Bir həkim söylədi: – Bunun sirri var:
Bir vaxt çox uyublar fitnəyə, şərə.
Ürəyə sancılan qara tikanlar
Ömrü zəhərləyib döndü şəkərə.

XƏSTƏXANADA

– Salam, şair qardaş, gəlmisən yenə?
Hazırıq başına dönüb-dolanaq.
– Ay həkim, hər dərdim tanışdır sənə,
Mən burda sakinəm, evimdə qonaq.

Diabet dörd əlli tutub əlimdən,
Mən çəkən bu dərdi fil çəkə bilməz,
O qədər azara sadiqəm ki, mən,
Ölüncə o məndən əl çəkə bilməz.

GÖZ HƏKİMİ

Nazim Əfəndiyevə

Min gözün işığı bu gözlərdə var,
Üzündə bir zərif gül təravəti.
Deyir: – Gözünüzdə qara pərdə var,
Ekranın gözünə baxmayın qəti.

Deyirəm: – Sən mahir göz sərrafısan,
Mən də şəfqət dolu söz həkimiyəm.
Sənin gözlərinə doyunca baxsam,
Elə bu dünyanı görmüş kimiyəm.

XƏSTƏ GEDİR

Həkimlər sevinir qürur duyurlar,
Dirildi, kəfəni yırtdı bu insan.
Xeyir-dua verir xəstələr ona:
– Bir də bu yerlərə qayıtmayasan!

Gedir, bir xəstənin yeri boşalır,
Yüz xəstə şadlanır, – belədir adət.
Burda bir çarpayı sahibsiz qalır,
Bir evə qayıdır sevinc, səadət.

NANKORLUQ

Gözləri qapıda, fikri uzaqda,
Çırpınır, sıxılır öz yatağında.
Ondan xəbərsizdir oğul-uşaq da,
Kimsə kurortdadır, kimsə bağında.

Elə ki, yetirdi ömrünü sona,
Onu nə gözləyir – deiym bu başdan.
Həmin daş ürəkli övladlar ona,
Məzar tikəcəklər bahalı daşdan.

ƏLİ KƏRİMƏ

I

Sındı şerimizin kövrək qanadı,
Görmədi zirvələr doyunca onu.
Şeri utandırıb nankor övladı,
Bəlkə də qaytarıb ana borcunu.

Ey ürək, şam kimi yanıb ərimə,
Onun tək aləmə işıq saç, işıq.
Əfsus ki, biz nakam Əli Kərimə
Hələ borcumuzu qaytarmamışıq.

II

Bu söz şairlərə ağır gəlməsin;
Deyirlər şairlik divanəlikdir.
Kərəm atəşiylə yanan bir kəsin
Qatili soyuqluq, biganəlikdir.

Üzdə çox sevilib, çox alqışlanıb,
Xəlvətdə şərinə dəyib şillələr.
Müşfiqin köksünə tüfəng tuşlanıb,
Əlini susdurub səssiz güllələr.

HƏMSÖHBƏT

Yazıçı Hacağa Cümşüdlüyə

Füzuli deyərdi hər kəlməbaşı,
Bilməndə qurtarır öz həyatını,
Yalvardı: – Mənimlə birgə, yanaşı
Dəfn edin şairin külliyyatını.

Yaşadı, görmədi xoş gün həyatda,
Nə ölməz əsəri, nə şöhrəti var.
Ancaq xoşbəxtdir ki, torpağın altda
Onun Füzulitək həmsöhbəti var.

ƏLFİ QASIMOVA

Sevinci özündən oğurlayıb sən,
Halalca payladın hər xeyir işə.
Burda bir örtülü kitab kimisən,
Sənin açıq olub qəlbin həmişə.

Dostların yolunda öz ürəyini
Vaxtsız qocaltmısan, Əlfi qardaşım.
Qonaqlar gözləyir masabəyini,
Sən harda yatmısan Əlfi qardaşım?

ƏMİM İSLAMIN XATİRƏSİNƏ

Şeir xiridarı, söz aləmiydin,
İlk dəfə əlimdən tutan sən oldun.
Atam ki, sağ idi, mənə əmiydin,
Atasız qalmadım, atam sən oldun.

Başdaşın dikəlib dərdli başımda,
Sən bir yalçın qaya, mən bir qəlpəyəm.
Ay əmi, sən getdin, mən bu yaşımda
Elə bil atasız yetim körpəyəm.

BURDA BİR İNSAN YATIR

Burda bir insan yatır,
Ləyaqətli bir ağa.
Adı ürəyimdədir,
Cismi köçüb torpağa.

Ruhu qanadlı bir quş,
Yurdu həmişəlikdir.
Vəzifəsi insanlıq,
Ordeni kişilikdir.

TOY MƏCLİSİNDƏ

Barmaqlar, qulaqlar qiymətli qaş-daş,
Süzülüb ortalıqda yallı gedir o.
Bu xanım insana bənzəmir qardaş,
Qızıl dükanının vitrinidir o

Bunları nə yolla qazanıb əri?
Rüşvətlə! Yığdığı qızıldı, zərdi
Vicdan əzabıyla xəcalət təri
Olsaydı, toya yox, yerə girərdi.

MƏNLİK

Oyunda təngnəfəs oldu bir kərə,
Həkimlər sağaltmaq istədi onu.
Dedi: – Yaşım keçib, azarkeşlərə,
Baş əyib tərk etdi stadionu...

Adam var rəisdir nuh əyyamından,
Kabinet fikriylə gecə də yatmır.
Beyni də kiflənib, qocalıb yaman
Onda bir futbolçu mənliyi çatmır.

KƏBİN

Nə vaxt bir-birinə can-can dedilər,
Harda tapışdılar, kim bilir onlar.
Kəbin kəsdirdilər, toy elədilər,
Beş gündə küsüşüb tez ayrıldılar.

Beləcə oldular yüz ilin yadı
Pozulub düşdülər dilə, ağıza.
Tale ki, bir eşqi qəlbə yazmadı,
Dönər o kəbin də qara kağıza.

NƏVƏM TOMRİSƏ

Ay qızım, bu adı daşımaq çətin
Ulu nənənə də el Tomris deyib
Fatehlər bu qaynar, odlu millətin
Gözünün odunu almaq istəyib.

Yoluma işıqdır gəlişin sənin
Ulduzlu göylərdən zər düşdü gəldi.
Sən gəlin Tomrisi ol bu Vətənin
Bir gün eşidim ki, Zərdüşt də gəldi.

NƏVƏMİN KÖTƏKLƏRİ

Can balam, bu işin nə gözəl işdir,
Çıx sinəm üstünə, məni ayaqla.
Ağarmış saçımı yolub-didişdir
Tapsan qarasını mənimçün saxla.

Necə də şirinmiş nəvə yumruğu
Babanı döyürsən kam alır nənə.
Şairə yüngülcə zərbə vurmağı
Tənqidçi əmilər səndən öyrənə.

QƏHRƏMAN AZƏRBAYCANIM

Yenə var-dövlətin başından aşır,
Şöhrətin dünyanı gəzib dolaşır,
Adına, şəninə zəfər yaraşır
Hər günü bir dastan Azərbaycanım!
Ay mənim qəhrəman Azərbaycanım!

Dadlıdır, halaldır çörəyin, duzun,
Min nemət yaradır mərd oğlun, qızın,
Xoşbəxtsən, parlayır tale ulduzun.

Yolları çıraqban Azərbaycanım!
Ay mənim qəhrəman Azərbaycanım!

Doğma partiyadır böyük sərkərdən,
Sənə təbrik gəlib əziz rəhbərdən,
Yüksəlib ucaldın bu xoş xəbərdən –
Sevinci bir ümman Azərbaycanım!
Ay mənim qəhrəman Azərbaycanım!

MƏHƏBBƏT NƏĞMƏSİ

Mübarəkdir dostluğun, sədaqətin bayramı!
Polad kimi sarsılmaz bir dövlətin bayramı!
Qoy ürəyim sevincdən qanadlanıb quş olsun,
Yer səsimə qoşulsun, Göy səsimə qoşulsun.
Xəzərin dalğaları bayram alqışı olsun,
Sağlıq kimi nəğməmi içənlərə nuş olsun,
Mübarəkdir dostluğun, sədaqətin bayramı!
Polad kimi sarsılmaz bir dövlətin bayramı!
Rəhbərimiz nə gözəl düşünüb, fikirləşib;
Bir bayrağın altında bütün xalqlar birləşib.
Nəhəng çaylar qovuşub, uca dağlar birləşib,
Günəş kimi yanmağa gur çıraqlar birləşib,
Yer üzünə nur saçır bu vəhdətin bayramı,
Polad kimi sarsılmaz bir dövlətin bayramı.
Bu dostluqla çıxmışıq əsrin imtahanından,
Uğrunda qəhrəmanlar keçib şirin canından.
Qoy düşmənlər biryolluq əl çəksin gümanından,
Yel olub keçə bilməz bu birliyin yanından,
Alovlarda yaranmış bu qüdrətin bayramı!
Polad kimi sarsılmaz bir dövlətin bayramı!
Bir süfrənin başında nemətimiz bərabər,
Hüququmuz bərabər, hörmətimiz bərabər.
Bir məclisdə sözümüz, söhbətimiz bərabər,
Ana yurda borcumuz, xidmətimiz bərabər,
Mübarəkdir bir eşqin, bir niyyətin bayramı!

Etibarın, vəfanın, dəyanətin bayramı!
Millət var ki, yurdu yox, dərdi-səri Vətəndir,
Hər nəğməli ürəyin şah əsəri Vətəndir,
Hər taleyin günəşli ilk səhəri Vətəndir,
Bu bayram hər ölkənin, hər millətin bayramı!
Qoy səsimiz, nəğməmiz yer üzünə car olsun;
Bu birliyi yaradan əllərimiz var olsun!
Bir-birinə can deyən dillərimiz var olsun!
Qış fəslində yaz olub təbiətin bayramı!
Çiçəklənib xalqlara məhəbbətin bayramı!
Bu bayramla başlanıb arzu, murad günümüz,
Əbədilik zülümdən, qəmdən azad günümüz,
Haqqın təntənəsidir, həqiqətin bayramı!
Mübarəkdir dostluğun, sədaqətin bayramı!

ANANIN SƏSİ

Mədəniyyət sarayında hamı sülhə qol çəkir,
Ağ günlərə, səadətə, ürəyində yol çəkir.
Budur qalxmış tribunaya gümüş saçlı bir qarı,
Qəzəbindən yığılmışdır alnındakı qırışları.
Ağ birçəkli bir anaya dikdi salon gözünü,
O dərin bir köks ötürüb belə dedi sözünü:
Mən anayam! Bu zillətin hamısını görmüşəm!
Neçə ana ürəyini əritmişdir bax bu qəm.
Nişan günü cəbhələrə yola düşdü övladım,
Ürəyimdə qaldı mənim şirin arzu, muradım.
İndi artıq onun isti nəfəsini duymuram.
Övladımın zəhmətinin bəhrəsini duymuram.
O, cavan bir mühəndisdi, yaratmaqdı əməli,
Əlləriylə qoyulmuşdur çox evlərin təməli.
Gördüyünüz bu saray da zəhmətinin barıdır,
Bir mühəndis ürəyinin doğma arzularıdır.
Hər daşında, torpağında əməyinin izi var,
Övladımdan Vətənimə bu qalmışdır yadigar.

Bu gün onun əlləriylə ucalmış bu binadan,
İstiqbala, səadətə alqış deyir min insan.
Mənim ana qəlbimdə də qəzəb alovlanaraq,
Bu sarayı övladımın öz ocağı sanaraq,
Bir müqəddəs əməl kimi keşik çəkib mən ona,
Bombalardan qorumaqçın torpağını, daşını
Milyon ana bir də həsrət qalmamaqçın oğluna,
Bir mübariz bayraq edib ürəyimin başını.
Hərb sözünə nifrət edib, alqış deyib sülhə mən,
Milyonların arzusuna qol çəkirəm ürəkdən.

ŞAİR DOSTUMA

Çinar kölgəsində durub son kərə,
Ovcuna su alıb içdin bulaqdan.
Hər gülü iylədin azı on kərə,
Dağlara əlvida dedin uzaqdan.

Bənəviş inəyin qaymağıyla sən,
Yedin iştah ilə sac çörəyini.
Anan məhəbbətlə öpdü gözündən,
Söylədi: – Xoş görüm gələcəyini.

Xəyalın kəndinə uçanda hərdən,
Yaşıl tarlasını, düzünü gördün.
Ağsaçlı ananın əlində kətmən,
Bakıya dikilən gözünü gördün.

Axmadı alnından xəcalət təri,
Qəlbində qalmadı arzun, muradın.
İnamla qalxırsan sən pillələri,
Bu gün bir tələbə çağrılır adın.

Bu yerə qəlbinlə dörd il bağlısan,
Ömrünə nur səpir bu illər sənin!
Demə ki, sadəcə bir kənd oğlusan,
Şəhərin qoynunda yerin var sənin!

Heç vaxt baxmayırsan kəndə qıyqacı,
Ruhundan getməmiş göy çəmən ətri;
Kənd üçün göynəyir burnunun ucu,
Yenə xoşdur sənə yasəmən ətri!..

Ucal, əməlinlə ucalsın Vətən,
Sevinib şad olsun ana ürəyi!
Kəndi böyütməkçin, böyütməlisən –
Sən öz qəlbindəki eşqi, istəyi!..

QAYA VƏ SEL

Keçib dağı-dərəni,
Aşıb bəndi-bərəni,
Kükrədi sel, daşdı sel,
Daşdı tufan qoparsın,
Kəndi yuyub aparsın.
Bir möhtəşəm qayayla
Qəfildən rastlaşdı sel.
Vurdu, yıxa bilmədi,
Aşa bilmədi onu.
Bu qocaman sal qaya,
Mətin qaya, lal qaya,
Kəsdi selin yolunu.
Hiddətindən qabarıb
Hücum çəkib gəldi sel,
Qəlpə-qəlpə qoparıb
Sinəsini dəldi sel.
Didildi, parçalandı,
Yarıldı, haçalandı,
Xeylu vuruşdu qaya,
Tab gətirə bilməyib
Axırda uçdu qaya.
Uçdu dərəyə doğru,
Dağ-daş əsdi bu səsdən.

Selin yolu açıldı,
Əl-qolu açıldı.
Dedi: – "Kəndi bir anda
Yuyub apararam mən".
Axıb ildırım kimi
Cumdu evlərə sarı.
Amma çata bilmədi,
Kəsilmişdi yolları.
O qaya ki, sel onu
Təkləyib uçurmuşdu,
İndi neçə qayayla
Qarşısında durmuşdu.
Durmuşdu hamısı da
Verib çiyin-çiyinə,
Sel neyləyər onların
Qranit birliyinə?
Ha kükrədi, ha daşdı,
Axırda köpü yatdı.
Selin gücü tükəndi,
Selin ağzı qapandı.

BACIM, SƏN BƏXTİYARSAN

Bacım Svetlanaya ithaf

Nəfəsindən süd qoxusu,
Bahar ətri gələn bacım!
Mənim ana diyarımda
Azad, xoşbəxt gülən bacım!
Sən nə qədər mehribansan
Sən nə qədər bəxtiyarsan,
Mənim bahar Vətənimdə,
Sən solmayan bir baharsan.
Hər xoş sözün
Ən gözəl bir nəqarətdir
Ürəyimin nəğməsinə.

Gülüşlərin, təbəssümün
Taxılır tər çiçək kimi
Vətənimin sinəsinə.
Anamın xoş laylasıyla
Mışıl-mışıl yatanda sən.
"Qızıl gülə batanda sən"
Nələr duyub başındakı
Hər ağ tükü
Bir gününçün ağardan
Bu qoca anam.
Öz əyilmiş beli ilə,
Uca dağdan uca anam!
Çarpayının üzərinə
O astaca sinə-sinə,
Sənin ürək döyüntünü
Bu gün sənə qaytarmaqçın
Dünən alıb sinəsinə.
Radionu hər gün səhər
İntizarla dinləyəndə,
Əllərində hələ yurdsuz
Körpələrin al qanları
Qurumamış, cavanları
Hərb deyəndə:
Mən qoymaram qana batsın.
Çox sevdiyim – bu körpəni! –
Deyib ana, qucağına
Daha möhkəm sıxmış səni.
Körpə bacım, mən qoymaram
Dodağında hıçqırıqlar,
Sinən üstə al qan görüm.
İstəmirəm bədənindən
Axan qanla
Uçan evlər arasından
İzlər salıb,
Tənha qalıb
Balam hanı! – deyib anam
Açа sənə qollarını,

İstəyirəm qədəminlə
İzlər salıb ağardasan
Ana məktəb yollarını,
Lakin bizdən uzaqlarda
Fəlakətlə əkiz olan
Körpələr var, analar var.
Məhbəslərdə al günəşə
Barmaqlıqlar arasından,
Baxır onlar.
Afinada, Mançestrdə
Faşistlərin hökm etdiyi
Neçə yerdə,
Məhbəslərdə əsirlikdə
Məsum körpə uşaqları:
Vaxtsız öldü köç eylədi.

TƏZƏ OLSUN

Gəlirsən, müjdələr gəlir səsində,
Bütün yer üzünə sevinc yayırsan.
Sən köhnə illərin ilk cərgəsində
Təzə əsgər kimi addımlayırsan.

Yollara bərəkət səp qucaq-qucaq,
Uğurla başlasın ilk səferimiz.
Təqvimə günləri yazırıq ancaq,
Tarixə yazılır əməllərimiz.

Odumla əridim qar paltarını,
Eşqimlə qızınsın buzlu nəfəsin.
Gəlişin torpağın arzularını
Çiçəyə bürüsün, gülə bələsin.

Mübarək qədəmin mətin, inamlı,
Zirvələr fəth edib ad alacaqsan.

Sabah neçə-neçə odlu, ilhamlı
Şairin səsində ucalacaqsan.

Qanad çalacaqsan qaranquş kimi,
Neçə bəstəkarın təzə notunda.
Dünyaya gəlsən də boran, qış kimi,
Baharsan yurdumun hər büsatında.

Şənlikdir qismətin, sevincdir payın,
Qızların qaməti, boyu səndədir.
Keçən il yar gəzən neçə subayın
Təzə il, sevgisi, toyu səndədir.

Nəfəsi təngimiş anamız Yerə
Gül yağsın, yağmasın mərmi, qurğuşun.
Doğum evlərindən təzə evlərə
Körpələr axışsın hey qoşun-qoşun.

Hamı uca tutsun insan adını,
Qoy qəlbi qaralar yanıb-qaralsın.
Yaxşılıq açanda qol-qanadını,
Yamanlıq əlləri qoynunda qalsın.

Ağıllar, ilhamlar çıxsın yarışa,
Silahsız zəfər də qəhrəmanlıqdır.
Bütün küsülülər gərək barışa,
Ən böyük səadət mehribanlıqdır.

Sən köhnə ilimin körpə qardaşı,
Sabah bir əsrlik həqiqətimsən.
Ümidsən, arzusan hər addımbaşı,
Bol-bol nemətimsən, bərəkətimsən.

Səndə şimşək gücü, işıq sürəti,
Elin günəş qəlbi, od nəfəsi var.
Təzə fikirlərin sehri, qüdrəti,
Təzə kəşflərin təntənəsi var.

Cütləyib çaatın əqrəblərini,
Vaxtın ötməsini gözləmirik biz.
Zəfərlə başlayıb ilk zəfərini,
Bir ilə tən olar hər dəqiqəmiz.

Təzə il, hər qəlbdə təzə bir istək,
Mənim də açdığım iz təzə olsun.
Təzə kəndimiz tək, şəhərimiz tək
İlham təzə olsun, söz təzə olsun!

NƏĞMƏNİN QANADINDA

Yenə o tanış səs, sehirkar səda
Bənnanın qəlbini titrətdi birdən.
Çəkic tutan əli qaldı havada,
Sanki ayağı da üzüldü yerdən.

Başını qaldırıb baxdı yuxarı,
Gördü həmin evdir, həmin pəncərə.
Usta hörən gündən bu daş divarı,
Ürəyi quş olub qondu o yerə.

Piano səslənir, qız dinir yenə,
Asta çəkic vurur xeyli var, usta.
Bacarsa divarı alıb çiyninə,
Həmin pəncərəyə qaldırar usta.

Elə bir sürətlə o yüksəlir ki,
Sanki dayanacaq al günəşlə tən.
Ona elə gəlir ki, elə gəlir ki,
Bir ulduz üzəcək əliylə göydən.

Usta çəkic vurur, qız dilləndikcə
O, gücü, hünəri bu səsdən alır.
Nəğmə dalğa-dalğa yerə endikcə,
Bina pillə-pillə göyə ucalır.

Qız nəğmə oxuyur, usta sanır ki,
Bu səs qanad açıb hər evin üstə.
Ya susub bu səsi dinləyir Bakı,
Ya da bütün Bakı dinir bu səsdə.

Qız nəğmə oxuyur, dil açir daşlar,
Çəkicin səsi də nəğməyə dönür.
Ustaya bu adi sənət ki, var,
Daha da mənalı, şirin görünür.

Qız nəğmə oxuyur, təzə binanın,
O, ilk nəğməsini eşidir sanki.
Sabah bu mənzilə köçən ananın,
Təşəkkür səsini eşidir sanki.

BAYRAM ŞƏHƏRİ

Yarpaqları qızarmış
Ağacların budağı
Yel əsdikcə yellənir
Qızıl bayraqlar kimi.
Sahilin dodağından
Dalğaların dodağı
Bayram nəğməsi alıb,
Ötür nəğməkar kimi.
Mənim günəşli Bakım,
Qəlbi atəşli Bakım
Nümayişə çıxıbdır
Mətin sıralar ilə.
O, payızda qovuşur
Ən gözəl bahar ilə.
Bu bahar azadlığın,
Səadətin baharı.
Günəş kimi müqəddəs
Həqiqətin baharı.

Küçələr don biçibdir
Qızılgüldən özünə,
Xəzər nur dənizinə,
Şəhər gül dənizinə
Qərq olubdur bu səhər.
Gəlir güldən ətirli,
Güldən zərif körpələr.
Havada şarlar uçur
Qızıl rəngli, göy rəngli,
Bakı bayram nəğməli,
Bakı bayram ahəngli.
İnsanlar axın-axın,
İnsanlar dəstə-dəstə,
Ürəklər bir arzuda,
Ürəklər bir həvəsdə.
Dalğalı bayraqları
Calasan bir-birinə
Nəhəng bir yelkən qonar
Xəzərin üzərinə.
Dalğalardan güclüdür
Dodaqların nəğməsi,
Uçur qağayı kimi
Kaman səsi, tar səsi
Küçələrə, yollara.
Ellər min alqış deyir
Bu müqəddəs bahara.
Mənim sədaqətimdir –
Bu yerdə doğulmuşam.
Mənim vuqarım Bakı,
Doğma diyarım Bakı.
Odlu sətirlərimi
Bayram çələngi kimi
Yollarına səpirəm.
Milyon nəğməli Bakı!
Milyon nəfəsli Bakı!

DƏZGAH ARXASINDA

İşləyir qəlbində şirin bir dilək,
Nə əllər yorulur, nə ürək doyur.
Şüşəsi göy rəngə çalan bir çeşmək,
Qara gözlərini oddan qoruyur.

Alnında qırışlar itir, görünür,
Meşin iş pencəyin geymiş əyninə.
Gah sola çevrilir, gah sağa dönür,
O, tərli üzünü silir çiyninə.

Polad da əlində mum tək yumşalır,
Bir işdən tutdumu, çətin daşına.
Bilmirəm ağaran ağ saçlarıdır,
Ya dəmir tozları qonur başına.

Kürəkdən enlidir, bədəndən dolu
Əzəmət duyulur tərpənişində.
Açılmış yaxası, çırmanmış qolu,
Bir döyüş medalı yanır döşündə.

O illər nə qədər uzaq olsa da,
Unutmur dünənki kədəri, ahı.
Top səsi nifrətlə düşdükcə yada,
Sanki sülh nəğməsi çalır dəzgahı.

Nə bir ləkəsi var, nə də bir xalı,
Rəngi qaralmayıb illərdən bəri.
Zəfər rəmzi olan həmin medalı,
Yuyub parıldadır alnının təri.

Vətənə bağlıdır ürəyi, canı,
Sabahı yaradır öz əllərilə.
Qanıyla qurduğu azad dövranı,
Qoruyur müqəddəs alın tərilə.

NAZİM HİKMƏTƏ

Sən Bakıya qonaq gəldin,
Xoş ürəklə, gül çiçəklə.
– Xoş gəlmisən – dedik biz.
Sən Bakıya qonaq gəldin.
Sanki ana əllərilə
Badi-səba daraq çəkib
Saçlarını daradı.
"Nəfəsinə zərəri var" desə belə
dinləməzsən yüz həkimi;
sən demisən: "İstəyirəm
qara nefti
içim şirin şərbət kimi".
30 ildə o sarışın saçlarına
dən düşübdür.
Çünki şair öz evindən,
öz yurdundan gen düşübdür.
30 ildə cəllad vurmuş
ürəyinə 15 yara,
Haqq deyəndə atılmısan
zindanlardan-zindanlara.
Dodaqların qurusa da
ciyərinin yanğısından,
Al günəşi görməsən də
ciyərinin yanğısından,
Al günəşi görməsən də
barmaqlıqlar arasında,
Ürəyinin gözlərilə
Moskvanın beşguşəli
Ulduzuna baxmısan sən.
Qanlı Bursa zindanından,
yaralı bir pələng kimi
Çıxmısan sən.
Şair!

30 ildə dəyişməyən
məsləkimlə,
Dəyişmişik Bakını biz.
İndi işıq dənizində,
Çimir Xəzər dənizimiz.
Paytaxtımı tamaşaya
sən sevə-sevə çıx!
Cəsur Bakı neftçisinin
öz əliylə ucaltdığı
aynəbəndli evinə bax!
Əziz lazım bu qüdrətə söz deməyə,
söz mülkinin bahadiri
Vurğun gərək.
Vurğun dedim! Qafqaz dağı
ağ başını silkələdi ehtiramla,
Vurğun dedim! Gözlərimdən
yaş töküldü damla-damla.
Vurğun dedim! Durna gözlü
bulaqlarım yada düşdü.
Vurğun dedim! Obalarım,
oylaqlarım yada düşdü.
Vurğun dedim! Səsə gəldi,
odlar yurdu Azərbaycan,
Vurğun dedim! Ləngər vurdu göydə qartal,
boyun bükdü yerdə ceyran.
Göylər, yerlər haray çəkib
dedi həmin həqiqəti,
Sənin şair ürəyində
kök salmışdır
Vurğunumun məhəbbəti.
İcazə ver, əziz şair,
sonsuz oğul sevgisilə,
qucaqlayım qoy mən səni.

PƏRVİZİN ŞƏKLİ

Şəhərdə gəzdirirdi
Anam bu səhər bizi,
Dedim ona, gəlsənə,
Çəkdirək şəklimizi
Şəkil çəkən əminin
Otağına gəldik biz.
Əvvəl gülüb sevindi
Kiçik qardaşım Pərviz,
Anamın qucağında
O, dinməzcə oturdu.
Əmi də sevindi ki,
Nə sakit oğlandur bu?
İşıqlar yanan kimi
Dodaqları büzüldü.
Aparata baxanda
Gözündən yaş süzüldü.
O, diksinib qorxudan
Çığırdı birdən-birə,
Anamın qucağından
Az qaldı düşsün yerə.
Əmi dedi: – Ağlasan,
Axı şəklin pis düşər,
Evdə bütün uşaqlar
Baxıb sənə gülüşər.
Mən onu dilə tutdum,
Anam "ağlama" dedi,
O, büzdü dodağını.
Gülmədi ki, gülmədi.
Anam o şəkilləri
Evə gətirdi səhər,
Gör bir necə düşmüşük,
Pərviz düşüb nə təhər!
Dodaqları sallanıb,
Yanağına yaş axır.
Bir gözünü qıyıb o,
Bircə gözüylə baxır...

CAVANLIĞIM

Səni mənə vüsal verdi,
Hicran adlı, cavanlığım.
Saçlarımı ağ görəndə,
Fikrə daldı cavanlığım.

Qartal idim, birdən-birə,
Zirvələrdən endim yerə.
Bəlkə uzaq bir xatirə,
Bir xəyaldı cavanlığım.

Səsləyirəm, geri dönməz,
Gözləyirəm, o görünməz.
Özü getdi, məni sönməz
Oda saldı cavanlığım.

Bir cüt qara göz itirdim,
Gəzə-gəzə iz itirdim.
Gec tapmışdım, tez itirdim,
Tez qocaldı cavanlığım.

Çəkdim eşqin hər nazını,
Gördüm hicran ayazını.
Yar köklədi qəm sazını,
Çaldı, çaldı cavanlığım.

Yox gileyim, şikayətim,
Bəlkə buymuş öz qismətim.
Hara getdi məhəbbətim,
Harda qaldı cavanlığım?



1966

ŞAİRİN ŞİKAYƏTİ

İŞTİRAK EDƏNLƏR

Füzuli	
Nərgiz	– Füzulinin qadını
Sultan Süleyman	– Türkiyə sültanı
Vəzir	
Qasid	
I məmur	
II məmur	
Uşaqlı qadın	
Kəndlilər	

Əhvalat XVI əsrdə, qədim Bağdad şəhərində baş verir.

BİRİNCİ ŞƏKİL

Füzulinin evi. Ev orta əsr üslubu ilə döşənmişdir. Məhəmməd Füzuli əynində əba, başında araqçın köhnə həsir üstə əyləşmişdir. Onun qarşısında bir neçə kağız, əlində isə qələm var. Qadını Nərgiz bir az kənarda ayaq üstə dayanmışdır.

Füzuli

(*öz-özünə*)

Dust bivəfa, fələk birəhm, dövran bisükun.
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.
Sayeyi-ümmid zayil, afitabi-şövq kərm,
Rütbəyi-idbar ali, payeyi tədbir dün.

Nərgiz

(*Füzuliyə yaxınlaşaraq*)

Məhəmməd, əzizim, yenə qəmlisən?